Bu bir xalq qəzetidi
ƏDALƏT

## Nadim Raza: "Qarabağ Zəfəri Pakistanda da qeyd olundu"



**"Sizinlə görüşməkdən böyük şərəf hissi duyuram və bu cür yerinə düşən görüş fürsətinə görə Sizə olduqca minnətdaram. Sizin və Azərbaycan xalqının 44 günlük müharibədə tam Qələbəsi münasibətilə Sizi öz adımdan, Pakistanın bütün Silahlı Qüvvələri və Pakistan xalqı adından təbrik etmək istərdim".**

Adalet.az xəbər verir ki, bu sözləri Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza martın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda qəbulunda olarkən deyib.

"Deməliyəm ki, Zəfəriniz eyni istəklə Pakistanda qeyd olundu. Buna görə, Zati-aliləri, cənab səfir hadisələrin gedişatı haqqında bizi daim məlumatlandırırdı.

Müharibənin istənilən anında Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatları bizim kütləvi informasiya vasitələrində əsas başlıqla gedirdi. Bir daha tam Qələbəniz münasibətilə Sizi təbrik edirəm", - deyə pakistanlı general vurğulayıb.



## Ərdoğan Azərbaycanla Türkiyə arasında preferensial sazişi təsdiqləyib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"ni təsdiqləyib.**

**Adalet.az-ın məlumatına görə, R.T.Ərdoğanın imzaladığı qərara əsasən, saziş qüvvəyə minib.**

**Qeyd edək ki, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" 2020-ci ilin fevralın 25-də Bakıda imzalanıb.**

**Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi əksini tapıb.**

## Dövlət Xidməti səfərbərlik çağırışı barədə açıqlama yaydı

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) hərbi vəzifəlilərə zənglər edilməsi barədə sosial şəbəkələrdə yayılan məlumatlara münasibət bildirib.**




Xidmətdən Adalet.az -a verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 28.09.2020-ci il tarixli 2280 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasında Qismən səfərbərlik elan olunub: "Prezidentin Sərəncama əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericiliyə uyğun olaraq yaradılmış digər silahlı birləşmələr Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən hərbi vəzifəlilərlə kompletktləşdirilib. Azərbaycan Respublikası Prezidentinin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən, Prezidentin 28.09.2020-ci il tarixli 2280 nömrəli Sərəncamıyla hərbi xidmətə çağırılmış hərbi qulluqçular 2020-ci il dekabr ayının 25-dən 2021-ci il aprel ayının 15-dək mərhələli şəkildə səfərbərlik üzrə hərbi xidmətdən tərxis edilirlər. Məlumat üçün bildiririk ki, hərbi vəzifəlilərin təlim və səfərbərlik üzrə çağırılması Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı olduqdan sonra mümkündür. Hazırda bununla bağlı Prezident tərəfindən Sərəncam olmadığı üçün hərbi vəzifəlilərin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri tərəfindən təlim və səfərbərlik üzrə çağırılması mümkün deyil".

*Mehman Cavadoğlu*

## Vəziyyət gərginləşdikcə Paşinyan arxayınlaşır

Bax: səh.3

## Naxçıvanda özünüməşğulluq proqramı uğurla icra olunur



**Özünüməşğulluq proqramının icrası nəticəsində 2017-ci ilin iyun ayından başlayaraq bu günədək muxtar respublika üzrə 2834 nəfər ailə üzvü olan 622 ailənin özünüməşğulluğu təmin edilib və proqramın icrası üçün 2 milyon 289 min manatdan artıq vəsait sərf olunub. Bunu Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev deyib.**

Nazir bildirib ki, proqrama cəlb olunan 555 ailəyə heyvandarlıq, 67 ailəyə isə xidmət, istehsal və digər sahələr üzrə aktivlər verilib.

"O cümlədən 622 sosial qayğıya ehtiyacı olan ailədən 164-nə verilən aktivlər müqavilədə göstərilən müddət bitdiyi üçün akt əsasında onların mülkiyyətinə keçirilib. 2020-ci ildə də 1289 nəfər ailə üzvü olan 291 ailə proqrama cəlb edilib, bu məqsədlə 1 milyon 207 min 784 manat vəsait sərf olunub".

***Qeyd edək ki, Naxçıvanda "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilib.***

Bu bir xalq qəzetidi
www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 25 (5857) 4 mart 2021-ci il
Qiyməti 30 qəpik

## Təhsil Nazirliyi 8 Marta pul yığımına görə ictimaiyyətə müraciət etdi



**Təhsil Nazirliyi qarşıdan gələn 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ilə əlaqədar ictimaiyyətə müraciət edib.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xoşagəlməz hallara qarşı müəllimlər, valideynlər və ümumilikdə cəmiyyət olaraq birgə mübarizə aparmalı, dəyərlərimizi qorumalı və gələcək nəsillərə çatdırmalıyıq: "Bu və ya digər hallarla bağlı Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə (146-1) və yaxud office@edu.gov.az elektron poçt ünvanına anonim olmadan müraciət edə bilərsiniz".

# İlham Əliyev: "Biz sülh istəyirik"



Bax:səh-2

## Bayramqabağı karantin rejimi sərtləşdirilə bilərmi?

*Koronavirusa yoluxmaların sayında son günlərdə müşahidə edilən artım həm qış mövsümündən yaz mövsümünə keçidlə bağlı bədənimizdə olan dəyişikliklə əlaqəlidir, həm də havaların bir az soyuq keçməsi ilə həm COVID-19, həm də digər qripal xəstəliklərin artma reallığı ilə üz-üzəyik.*

*Bunu Trend-ə Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib. R.Mahmudov bildirib ki, bu gün digər narahatverici məqamlardan biri Novruz bayramı günlərində milli dəyərlərimizdən qaynaqlanaraq insanlar arasında təmasların daha da artmasının qripal xəstəliklərin yayılması üçün daha bir zəmin yaratmasıdır:*

*"Ölkədə epidemioloji vəziyyətin yenidən istəmədiyimiz səviyyəyə gəlməməsi üçün hər bir vətəndaşın mövcud epidemioloji qayda-qanunlara daha ciddi şəkildə riayət etməsi vacibdir. Bu həm də yaxın günlərdə, yəni təqribən 10-15 gün ərzində, bayram öncəsi Operativ Qərargahın daha sərt tədbirlər görməsini əngəlləyən amillərdən biri olacaq.*

*Heç bir dövlət sərt qapanmanın tərəfdarı deyil. Amma insan həyatı üçün təhlükə yaradan və ölkədə səhiyyə sisteminə zərər verə biləcək vəziyyətlərlə üz-üzə qaldığımız zaman əlbəttə ki, məcburiyyət qarşısında bütün dünyada olduğu kimi ölkəmizdə də belə qərarların verilməsi bəzən qaçılmaz olur".*

## HEÇ KEFDƏN ÖZÜNÜ ÖLDÜRƏN GÖRMƏDİK



***Moskvada 16 yaşlı bir məktəbli özünü 21-ci mərtəbədən ataraq intihar edib. İntihara səbəb o olub ki, anası ona ürəyi istədiyi "Ayfon"u almayıb. O da istəyirmiş ki, dostları kimi brend kostyumlar, brend ayaqqabılar geysin. Ailənin isə buna imkanı yox imiş. Apartmanda yaşayanlar kimi , o da bu arzudaymış, amma ikiotaqlı bir evdə yaşayırmışlar. Ailənin yoxsulluğuna dözməyib, özünü öldürüb.***

## Nə isə...



*Heç demə, 3 mart Beynəlxalq Yazarlar günüymüş. Mənim də xəbərim yox. Dostlar zəng edir ki, təbrik edirik, deyirəm, nəyə görə? Deyirlər, bəs, belə-belə.*

*Dedim ki,biz hardan yazar olduq ki? Yazarlar trollardı, hər şərhlərinə görə də mükafatlandırılırlar. Nə isə...*

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*



## DAĞLIQ QARABAĞIN AZƏRBAYCANLI İCMASI LƏĞV EDİLMƏLİDİR

**Əvvəla, bu icma yaradılanda adı düzgün qoyulmamışdı: necə yəni Dağlıq Qarabağ İcması?!**

**13 rayonumuz işğal altına düşmüşdü, onun yalnız 6 rayonu o zamankı Dağlıq Qarabağın ərazisində idi: Martuni, Əsgəran, Mardakert, Hadrut, Şuşa, Stepanakert. Lap şeir alındı ki. Sonradan Martuni və Hadrut ləğv edilərək bu iki rayonun bazasında Xocavənd rayonu, Əsgəran rayonu da ləğv edilərək Xocalıya birləşdirildi və Xocalı rayonu yaradıldı.**

Bax: səh.2

## Vüsalə Mahirqızından günün statusu

**Dövlət İmtahan Mərkəzinin magistratura imtahanında məntiq sualı. Sual sayına və imtahan üçün ayrılan vaxta görə, hər sualın həllinə 1.20 dəqiqə vaxt düşür. Bu sualın özünü oxumağa elə 1 dəqiqə vaxt lazımdı. Hələ başa düşüb, həll etməyi demirəm.**

**Siz, doğrudan da, bilik yoxlamaq istədiyinizə əminsiniz?!**


Ağacdan qopan yarpaqların bir hissəsi təmiz skamyaya, bir hissəsi ağacın yanından axan çaya, qalan hissəsi isə otların üstünə tökülmüşdü. Çaya tökülən yarpaqların 3də 1 hissəsi çaydakı daşlara ilişmiş, qalanını su aparmışdı. Otların üstünə tökülmüş yarpaqlardan rəngləri qirmızı olanın sayı tək ədədlə ifadə olunmuş və onların sayı sarı rəngdə olanların sayından az, yaşıl rəngdə olanların sayından çox idi. Sonradan əsən külək ağacdan daha 6 yarpaq qoparır və otların üstünə tökür.Həmin külək skamyaya düşmüş yarpaqların 60%ni sovuraraq yarısını otların üstünə tökür, digər yarsını isə çaydakı daşlara ilişmiş yarpaqların 4-də bir hissəsi ilə birlikdə suya qovuşdurur.

Sual:Ağacda ən aşağısı neçə yarpaq olub?

## Tanınmış tarixçi alim koronavirusdan vəfat edib



**Tanınmış tarixçi, tarix üzrə fəlsəfə doktoru Dilavər Əzimli vəfat edib.**

**Adalet.az xəbər verir ki, D.Əzimli 62 yaşında dünyasını dəyişib. Bir müddət əvvəl koronavirusa yoluxan alim Fövqəladə Hallar Nazirliyinin Zığ qəsəbəsində yerləşən modul tipli xəstəxanasında müalicə olunurdu.**

**Allah rəhmət etsin!**

## Bakının mərkəzində quzu gəzdirən şəxslərlə bağlı açıqlama



**Daxili İşlər Nazirliyi ötən axşam Bakının mərkəzində quzuya uşaq bezi geyindirərək gəzdirən iki nəfərin saxlanılması ilə bağlı məsələyə aydınlıq gətirib.**

DİN-nin mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, həmin şəxslərə izah olunub ki, pandemiya səbəbindən insanların bir araya toplaşması yol verilməzdir:

"Həmin şəxslərə izah olunub ki, xüsusi karantin rejimi dövründə insanların sıx toplaşmağına səbəb olan hərəkətlər yolverilməzdir. Bundan əlavə şəhər mərkəzində quzu gəzdirmək olmaz. Onlarla profilaktik söhbət aparılıb və sərbəst buraxılıblar. Həmin şəxslər cərimə edilməyib".

*Cəlil MƏMMƏDQULUZADƏ*

# Quzu



(Hekayə)

*Məmmədhüseynin kirvə oğlusu Qurtbasar kəndindən buna bir quzu sovqat göndərmişdi. Kəblə Məmmədhüseyn istədi quzunu kəsə, amma heyvanın belini əlləri ilə sığallayıb, bıçağı tulladı yerə və arvadına dedi ki:*

*- Bir sümüknən bir dəridən savayı bir şey yoxdu.*

*Arvadı məsləhət gördü ki, quzunu ötürsünlər bir neçə gün bağçada otlasın, əmələ gəlsin. Əri də razı oldu və quzunu itələyib saldı həyət bağçasına. Heyvan göy otu gördü, amma ağzını ota uzatmadı.Həmin vaxt qonşuluqda Əziz xanın evindən kişilərin oxumaq səsi gəlirdi və Əziz xanın öz səsi aşkar eşidilirdi:*

**Nə durmusan dağ başında qar kimi?**
**Məmələrin baş veribdi nar kimi, nar kimi...**

(Ardı 3-cü səhifədə)

## GÜNÜN LƏTİFƏSİ

Hidayət Elvüal Vəli Xramçaylıya:

**- Vəli, birdən yüz min manat tapsan neyniyərsən?**

Vəli:

**- neyniyəjəm qağa, tez aparıb borclarımı verərəm.**

Hidayət müəllim:

**- Bəs qalanın nağayrassan?**

Vəli:

**- Qalanında Allah kərimdi, yavaş-yavaş verərəm dana.**





# İlham Əliyev: “Biz sülh istəyirik”



**Biz sülh istəyirik və bu gün sülhü təbliğ edirik.**

**Adalet.az-ın məlumatına görə, bunu Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib:

”Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq.

Hesab edirəm ki, biz səylərimizi birləşdirərək mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik. Çünki ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır.

Biz beynəlxalq hüququn işləmədiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində icra edilmədiyini, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı sanksiyaların tətbiq olunmadığını, Ermənistanın cəzalandırılmadığını və sonsuz danışıqların dalana diləndiyini görəndə ədaləti özümüz bərpa etməli olduq.

Yəni, beynəlxalq hüquq işləmədiyi halda, o, güc vasitəsilə həyata keçirilməlidir. Biz buna nail olduq və bunu bütün dünyaya nümayiş etdirdik.

Ancaq biz sülh istəyirik və bu gün sülhü təbliğ edirik. Beləliklə, bizim hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunması işinə töhfə verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi və həmkarlarınızla səmərəli iş aparmağı arzulayıram”.

## “Müharibənin ilk günündən Pakistan dəstək nümayiş etdirdi”

**Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev martın 3-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən deyib.

Dövlət başçısı bildirib: ”Müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürümü ifadə etmək istəyirəm. Torpaqlarımızın azadlığı uğrunda apardığımız müharibə 44 gün çəkdi və Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatdı. Biz 30 ilə yaxın işğal altında olan ərazilərimizi azad etdik.

Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi.

Yəqin bilirsiniz ki, Azərbaycanda insanlar Pakistan xalqı ilə, ölkənizlə bağlı öz hisslərini nümayiş etdirdilər, müharibə zamanı Pakistan bayraqlarını dalğalandırdılar. Bu, bir daha bizim birlik və qardaşlığımızı nümayiş etdirir”.

## “Azərbaycan Kəşmir daxil olmaqla, bütün məsələlərdə Pakistanı dəstəkləyir”

**”Ölkələrimiz arasında əlaqələrin uzun tarixi var. Pakistan dünyanın Ermənistanla diplomatik münasibətlər qurmayan azsaylı dövlətlərindən biridir və Azərbaycanın torpaqlarının işğalı səbəbindən Ermənistanı rəsmi olaraq tanımayıb”.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev martın 3-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən deyib.

Prezident qeyd edib ki, xalqımız bundan xəbərdardır və biz bunu çox yüksək qiymətləndiririk: ”Azərbaycan da öz növbəsində, hər zaman Kəşmir məsələsi daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir.

Bu dəstək tərəfimizdən BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda verilir. Sabah İqtisadi Əməkdaşlıq Təşkilatının videokonfrans formatında Zirvə toplantısı keçiriləcək və biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığı müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə bir daha toxunaraq qeyd etmək istəyirəm ki, biz diqqətimizi iqtisadiyyat sahəsində cəmləşdirəcəyik. Buraya energetika və nəqliyyat sahəsi aiddir.

Biz ümid edirik ki, Pakistan ölkəmizin ərazisindən keçən mövcud və yeni yaranmaqda olan nəqliyyat marşrutlarına qoşulacaq.

Beləliklə də biz əməkdaşlığımızı bu sahədə də genişləndirmiş olacağıq”.

# "Bir çox ölkələr ordumuzun döyüş təcrübəsini öyrənir"



**Ordumuzun Vətən müharibəsində qazandığı döyüş təcrübəsi bir çox dünya ölkələrinin orduları və beynəlxalq hərbi ekspertlər tərəfindən öyrənilir.**

Adalet.az xəbər verir ki, bunu müdafiə naziri, general-polkovnik Zakir Həsənov martın 3-də Azərbaycanda rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Nadim Razanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Müdafiə naziri qeyd edib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatıb və torpaqlarımız işğaldan azad edilib.

Daha sonra nazir qonağa Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar haqqında məlumat verib.

**Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişaf etməsindən məmnunluğunu ifadə edən general-polkovnik Z.Həsənov Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəklədiyinə, həmçinin ölkəmizə göstərilən humanitar yardıma və mənəvi dəstəyə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını ifadə edib.**

# ERMƏNİSTANDA VƏZİYYƏT ELƏ ERMƏNİCƏNDİR

## Paşinyanın baxışları yenə dəyişdi

***Ermənistanın baş naziri əvvəllər tənqid etdiyi yarı prezident üsul-idarəsi formasına qayıtmaq barədə danışdı. O, növbədənkənar seçkilərin keçirilməsinə hazır olduğunu bəyan etdi. Bununla yanaşı Paşinyan Baş Qərargah rəisi Onik Qasbaryanın istefasını da tələb edib. RİA Novostinin müxbiri Anton Lisiçin Nikol Paşinyanın niyə əvvəlki baxışlarından geri çəkildiyini şərh edərək, Yerevan küçələrində vətəndaş qarşıdurmasının nə ilə nəticələnə biləcəyinə aydınlıq gətirməyə çalışıb.***

### *YALNIZ XALQ*

Paşinyan Respublika meydanında tərəfdaşları arasında bəyan edib ki, "reformalar keçirilməsi məqsədilə Konstitusiyada dəyişikliklər edilməsi üçün ümumxalq referendumu keçirilməsi lazamdır". O, parlament üsul-idarəsindən yarı prezident üsul-idarəsinə keçməyi də mümkün sayır. Ermənistanın baş naziri qeyd edb ki, onun tərəfdaşları növbədənkənar parlament seçkilərinə getməyə hazırdı. ***"Müxalifət mənim istefamı tələb edir, qoy bunu səsvermə müəyyənləşdirsin".*** Paşinyan seçkilərdə qələbədinə inanır və artıq partiyasının yeni şüarını da müəyyənləşdirib: ***"Rəngli inqilaba son".***

***"Biz xalqın mövqeyinə inanırıq, xalq məni baş nazir vəzifədinə gətirib, yalnız xalqın iradəsi məni bu fəzifədən azad edə bilər"*** - deyə baş nazir hökumət tribunasından səslənib. ***"İstəyirəm ki, səhvlərimin bağışlanması imkanını xalqın səsi müəyyənləşdirsin. Bununla müxalifəti növbədənkənar parlament seçkilərinə getməyə çağırıram".***

Paşinyanın bu çağırışı gözlənilməz oldu. O, hələ bir ay əvvəl baş nazir tamamilə əks fikirlər söyləyirdi, yanvar ayında yarı prezident üsul-idarəsi formasını müsdəqillik dövründə qeyri effektiv forma kimi qiymətləndirirdi. ***"Biz praktikada əmin olduq ki, bu sistem ölkəni uğursuzluğa aparır".***

Ölkədə yaşanan siyasi böhran onun fikirlərini dəyişdi. Qarabağda müharibə Ermənistanın məğlubiyyəti ilə dayandırıldıqdan sonra, ölkə qaynayır. Müxalifət Paşinyanın istefasını tələb edir, mitinqçilər küçələrdə " Nikol sayqındır" şüarları səsləndirir.

Belə bir qarışıqlığı baş nazir ən əlverişli vəziyyət kimi dəyərləndirir və onu tənqid edənlərə cavab vermək istəyir. Eksbaş nazir Serj Sarkisyanın Qarabağ müharibəsinin ilk günlərindən, vaxtınada Rusiyanın "İsgəndər" raket kompleksindən istifadə edilməməsi tənqidlərini şəhr edən Paşinyan: ***" Qoy bu suala o özü cavab versin görək, niyə "İsgəndər" raketləri partlamadı və ya niyə on faizi partladı?"***- deyə sual edib. Jurnalistin - "bu həqiqətən belədirmi?" - sualına Paşinyan:

***"Bilmirəm, bəlkədə bu raketlər 80-ci illərindi".*** Paşinyan guya öz baxışların müdafiə edirək bildirir ki, ***onlar hakimiyyətə gələnədək Ermənistanda bir idarəçilik institutu - " korrupsiya institutu"fəaliyyət göstərirdi. Biz bu sistemi dağıtdıq, indi bizim nə nağd, nə də ümumiyyətlə pulumuz yoxdur".***

Baş nazirin bu bəyənatları diqqətdən kənarda qalmadı. Baş qərərgah rəisinin müavini Tiqran Xaçatryan onun sözlərinə tənqidlə yanaşdığı üçün vəzifəsindən çıxarıldı. Buna cavab olaraq Baş qərərgah ölkədəki vəziyyətin son həddə çatdığını bildirdi və Paşinyanın istefasını tələb etdi.

### *VAŞİNQTONUN VƏ ANKARANIN DƏSTƏYİ*

Ermənistanda vəziyyət getdikcə yüksələn böhrana doğru gedir. Baş nazir baş verən hadisələri hərbi çevriliş kimi qiymətləndirir və öz tərəfdaşlarını Respublika meydanına mitinqə çağırır. RİA Novostinin müxbirinin fikrincə, Paşinyanı Vsşinqton və Ankara



dəstəkləyir. ABŞ dövlət departamrntinin nümayəndəsi Ned Prays ikibaşlı bəyənat verib:

***"Ölkənin silahlı qüvvələri daxili siyasətə qarışmamalıdı. ABŞ Ermənistanda demokratik prosesslərin və demokratik institutların tərəfindədir, biz qtiyyətlə bu ölkədə demokratiyanı və suverenliyi dəstəkləyirik".***

**Ankaranın Paşinyana "dəstəyi" bir az gelünc də görünə bilər. Ermənistan cəmiyyəti Türkiyənin və o cümlədən Azərbaycanın dəstəyinə neqativ yanaşır. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ümumiyyətlə dünyada, "o cümlədən Ermənistanda" hakimiyyətin zorla devrilməsini qınadığını bildirib.**

**Rüstəm Hacıyev**

# Savaş ritorikası və səfərbərlik fəallığı...



*Səxavət Məmməd*

*Son günlər cəmiyyətimizdə müharibə ritorikası artmaqdadır. Bunun müxtəlif səbəbləri var.*

*Qarabağın işğaldan tam azad edilməməsi, Qarabağın dağlıq hissəsində hələ də erməni silahlılarının qalması və Ermənistanda revanşistlərin fəallaşması insanların beynində müharibənin yenidən başlayacağı düşüncəsini qabardır.*

*Son günlər Ermənistanda hərbi çevriliş cəhdi, generalların baş nazir Nikol Paşinyanın istefasını tələb etmələri bu qənaəti gücləndirib. Müharibənin bitdiyini deyirik, ancaq hər birimiz yaxşı bilirik ki, müharibə sülh müqaviləsi ilə bitir. 44 günlük müharibədən sonra əlimzdə olan tək şey üçtərəfli bəyanatdır. O bəyanatın icrasının qarantı isə Rusiyadır.*

*1994-cü il mayın 12-dən qüvvəyə minən Bişkek protokoluna əsasən, atəşkəs elan edilmişdi. Ancaq 30 ilə yaxın müddətdə rəsmən atəşkəs olsa da, istər Azərbaycan, istərsə də Ermənistan tərəfindən kifayət qədər itkilər olub. Yəni protokol, ya bəyanat müharibənin tam bitdiyini təsdiq edən sənəd deyil. Ona görə də, sülh müqaviləsi imzalanana qədər müharibə ehtimalı qalmaqdadır.*

*Müharibə ilə bağlı söz-söhbəti artıran məsələlərdən biri də son günlər kimlərinsə Səfərbərlik Xidmətinə çağırılması haqda informasiyaların sosial şəbəkələrdə yayılmasıdır. Əldə etdiyim məlumata görə, belə bir məsələ yoxdur. Səfərbərlik prezidentin qərarı ilə elan edilir. Necə ki, müharibə dövründə qismən səfərbərlik elan edilmişdi.*

*Kimlərinsə ehtiyatdan Orduya çağırılması isə son dərəcə normal bir haldır. Əslində, çağrılmaların insanları narahat etməsinə səbəb Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin öz işini düzgün qura bilməməsindədir. O qurum davamlı olaraq ehtiyatda olanları toplanışlara çağırıb, onları təlimlərə cəlb etməlidir. Bu praktika təkcə müharibə şəraitində yaşayan ölkələrdə yox, ən dinc dövlətlərdə də yayılıb.*

*Banklar ölkəsi sayılan, bəlkə də dünyada müharibələrdən ən çox sığortalanan İsveçrədə də belə toplanışlar olur, təlimlər keçirilir. Bu səbəbdən də, əgər ehtiyatda olanların Orduya çağırılması halları varsa, bu, sözügedən qurumun öz funksiyasını yerinə yetirməsi deməkdir.*

*Azərbaycan Ordusunun döyüş vəziyyətinə gətirilməsi barədə informasiya yayılıb. Döyüş vəziyyətinə gətirilmə də müharibə etmək anlamına gələ bilməz. Ermənistanda məlum hadisələr baş verir. Azərbaycan dövlət təhlükəsizliyi üçün təbii ki, ordunu döyüş vəziyyətinə gətirməlidir. Təsəvvür edin, Ermənistanda hərbi çevriliş baş verdi. Nəinki Azərbaycan, Ermənistanla qonu olan bütün dövlətlər sərhəddə yaxın qüvvələrini döyüş vəziyyətinə gətirəcək. Gətirməlidir. Səbəb qorxmaq, çəkinmək, müharibə olacaq məsələsi deyil. Məsələ dövlət təhlükəsizliyidir.*

*Bu, təkcə Ermənistanla bağlı məsələ də deyil. Bu cür hadisələr İranda, Rusiyada, Gürcüstanda, Türkiyədə olsa belə, eyni addım atılacaq. Bunu birdəfəlik qəbul etmək lazımdır. Belə deyək, bu bir prosedur qaydasıdır.*

*Gələk, müharibə ehtimalına. Təkrar edirəm, sülh müqaviləsi olmadığı üçün müharibə ehtimalı hər zaman var. Reallıq isə tamam fərqlidir. Ermənistan ordusu demək olar, darmadağın edilib, ciddi texnika və canlı qüvvə itkisi verib. Doğrudur, Rusiya texnika ilə Ermənistanı təmin etməkdədir.*

*Bu gün Təbrizdə yaşayan dostlar fotolar göndərdi ki, Ermənistana hərbi texnikalar aparılır. Ancaq başqa məsələləri də göz önünə almalıyıq. Əvvəla, bütün istiqamətlərdə üstünlük Azərbaycan ordusunun tərəfindədir. Buna yüksəkliklər və nəqliyyat yolları da daxildir. Üstəgəl, Ermənistan ordusunun qarşısında həmin ordu üzərində qələbə qazanmış bir Ordu dayanıb.Ermənistan dövləti müharibənin təkrar başlamasında maraqlı deyil. Bunu həm siyasi, həm də hərbi gedişat göstərir. Səbəblərdən biri budur ki, Ermənistan Azərbaycanla dövlət sərhədinin çəkilməsinə heç bir maneçilik törətmir. Bəzi kiçik insidentlər olsa da, ümumilikdə sərhəd xətti haradan keçirsə, oranı boşaldır və təhvil verirlər.*

*Siyasi baxımdan isə rəsmi İrəvan Qarabağ yükünü üstündən atmaq üçün hər cür addımlar atır. Ermənistan əhalisi də bunda maraqlı görünür. Çünki müharibədə məğlub olmuş ölkə rəhbərini dəstəkləmək onun göstəricisidir ki, ermənilər də Qarabağ yükündən qurtulmaq istəyirlər. Qalır revanşistlər və separatçılar.*

*Sonunculara görə, Azərbaycan dövlətinin anti-terror əməliyyatları keçirəcəyi görünür və hətta deyərdim ki, bu, labüddür. Ermənistan üzərinə bəzi öhdəliklər götürüb və bunu verilən vaxta qədər yerinə yetirməlidir. Bu, yerinə yetirilməsə, Azərbaycan yenə anti-terror əməliyyatına başlaya bilər. İndiki müharibə ritorikası iki cəmiyyəti də başqa problemlərdən uzaqlaşdırmağa hesablanıb. Yəni yaxın zamanda müharibə gözlənilmir deyə bilərik. Hər silahlı qarşıdurma da müharibə sayılmır. Bölgənin tarix boyu müharibə meydanına çevrildiyini nəzərə alsaq, hər zaman müharibəyə hazır olmalıyıq.*

*Əsas olan budur.*

*yenicag.az*

*Aqil ABBAS*

# DAĞLIQ QARABAĞIN AZƏRBAYCANLI İCMASI LƏĞV EDİLMƏLİDİR

***Əvvəla, bu icma yaradılanda adı düzgün qoyulmamışdı: necə yəni Dağlıq Qarabağ İcması?!***

***13 rayonumuz işğal altına düşmüşdü, onun yalnız 6 rayonu o zamankı Dağlıq Qarabağın ərazisində idi: Martuni, Əsgəran, Mardakert, Hadrut, Şuşa, Stepanakert. Lap şeir alındı ki. Sonradan Martuni və Hadrut ləğv edilərək bu iki rayonun bazasında Xocavənd rayonu, Əsgəran rayonu da ləğv edilərək Xocalıya birləşdirildi və Xocalı rayonu yaradıldı.***

***Mardakert rayonunun da tarixi adı (Ağdərə) bərpa edilərək rayon ləğv edildi, özü və kəndləri Ağdam, Tərtər və Kəlbəcər rayonlarına birləşdirildi.***

***Dağlıq Qarabağın inzibati ərazisində təxminən 65 min azərbaycanlı yaşayırdı. İşğal altına düşən ətraf rayonların əhalisi isə həmin dövrdə təxminən 800 min idi (indi 1 milyon 100 mini keçib).***

***Nədənsə İcma yaradılanda Qarabağ İcması deyil, Dağlıq Qarabağ İcması adlandırıldı. İcmanın üzvləri də, İdarə Heyəti də Dağlıq Qarabağda yaşayan azərbaycanlılardan ibarət oldu.***

***Biri var ki, icma 1 milyon adamı əhatə edə, biri də var 65 min adamı. İcmanın işindən heç bir narazılığımız yoxdur, xüsusən də son illər fəaliyyətini gücləndirib.***

***Düzdür, acından ölən Ermənistanın Dağlıq Qarabağda yaratdığı icmanın dünyanın bir çox ölkələrində xüsusi nümayəndəliyi fəaliyyət göstərirdi. Təkcə Beynəlxalq Bankından 14 milyard dollar pulu oğurlanan Azərbaycan isə bizim icmanın xaricdə nümayəndəliklərini açmaması təəssüf hissi doğurur.***

***Artıq Dağlıq Qarabağ anlayışı da yoxdu. Ümumiyyətlə, bu vilayət gərək ki, 1991-ci ildə Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilmişdi. O vaxt kağız üzərində de-yure ləğv edilsə də, indi 44 günlük Vətən Müharibəsində parlaq qələbəmiz sayəsində de-fakto ləğv olundu.***

***Möhtərəm Prezident, Ali Baş Komandan həm bəyanatlarında, həm də çıxışlarında dəfələrlə vurğulayıb ki, Qarabağ Azərbaycandır! Heç vaxt işlətməyib Dağlıq Qarabağ ifadəsini.***

***Sonuncu 4 saatlıq mətbuat konfransında da bildirdi ki, Qarabağın aranı, dağı yoxdur, Qarabağ var.***

***İndi azərbaycanlıların Dağlıq Qarabağ İcması ləğv edilməli və onun yerində Qarabağ İcması yaradılmalıdır. Və bu icma həm insanların doğma yurd-yuvalarına qayıtmasında fəal olmalı, həm də siyasət sahəsində dünyada daha aktiv iştirak etməlidir. Və yeni yaradılacaq Qarabağ İcması Diasporla iş üzrə Dövlət Komitəsi ilə birgə fəaliyyət göstərməlidir. Demirəm komitənin bir tərkib hissəsinə çevrilsin, sadəcə olaraq, fəaliyyətlərini birgə plan əsasında qursunlar.***

***Diasporla iş üzrə Dövlət Komitəsinin fəaliyyəti, xəsusilə də son illər ciddi nəzərə çarpsa da və dünyadakı azərbaycanlıları "Azərbaycançılıq ideyası" ətrafında birləşdirməyi bacarsa da, Qarabağ İcmasının fəaliyyəti müqayisədə zəifdi.***

***Ona görə də onların birgə fəaliyyətləri daha böyük uğurlara imza atar.***

*Vilayət Quliyev*

# QARABAĞ TARİXİNİN GİZLİNLƏRİ...



**1806-cı il iyulunda Qafqazdakı 17- ci yeger alayının komandiri podpolkovnik D.T. Lisaneviçin (1778-1825) və mayor Curayevin (erməni) komandası altındakı kazaklar 35 nəfər kişi və qadın xidmətçisi, bir xanımı və 3 azyaşlı uşağı ilə Şuşa yaxınlığındakı bağlardan birində dincələn Qarabağ hökmdarı İbrahim Xəlil xanın düşərgəsini basıb qabaqlarına çıxan silahsız xanı və adamlarından bir neçə nəfəri öldürdülər. Çadırlarda olan hər şeyi yağmaladılar.**

**Ermənilərdən xanın guya Qacarları Şuşaya dəvət etmək niyyəti haqda donos alan Lisaneviç heç bir təhqiqat aparmadan onu cəzalandırmaq qərarına gəlmişdi.**

**Hadisəni araşdırmaq üçün göndərilmiş general Nebolsin Qafqazın baş hakimi qraf Qudoviçə raportunda xanın tamamilə günahsız olduğunu, Lisaneviçin səlahiyyət həddini aşdığını biıdirmişdi.**

**Amma buna baxmayaraq qatil rus zabitinə heç bir cəza verilməmişdi.**

**Aradan düz 19 il keçəndən sonra, 1825-ci ilin iyulunda artıq general-leytenant Lisaneviç üsyançı qumuqları cəzalandırmaq üçün Şimali Qafqazın Aksay kəndində idi.**

**Qarabağda ikən Azərbaycan dilini bir az öyrəndiyindən şübhəli bildiyi yerli sakinləri bir-bir qabağa çıxarır, küçə söyüşləri ilə təhqir edirdi. Təhqirə məruz qalanlardan Oçar Hacı adlı bir nəfər Lisaneviçə və yanında dayanmış general Qrekova xəncərlə ölümcül zərbələr endirmiş, üstünə gələn qumuq baş pristavı Filatovu ağır yaralamışdı. Bu zaman yaxınlıqdakı başqa bir pristav - qumuq əsilli mayor Musa Usmiyev qılıncını çəkib onu qətlə yetirmişdi. Rus generallarının ikisi də aldıqları yaradan ölmüşdü. Lisaneviç illər sonra haqlı cəzasına çatmışdı. Amma son nəfəsində kazaklara meydana yığdıqları 300 nəfərdən çox qumuğu güllələbaran etmək əmrini vermişdi.. Onlardan yalnız bir neçə nəfəri salamat qurtara bilmişdi.**

**Qarabağ xanının qatili Lisaneviçi öldürdüyünə görə soydaşı Oçar Hacını qılıncdan keçirən və rus komandanlığı qarşısındakı xidmətlərinə görə gələcəkdə general-mayor rütbəsinə yüksələn Musa Usmiyev (?-1843) sonralar İbrahim Xəlil xanın nəvəsi şairə Natəvanla evlənən knyaz Xasay xan Usmiyevin (1808-1867) atası idi.**

**Yəqin ki, Natəvanın taleyin bu qəribə gərdişindən heç vaxt xəbəri olmamışdı...**

# Quzu

*Cəlil Məmmədquluzadə*

**(Hekayə)**

**(əvvəli 1-ci səhifədə)**

***

Kəblə Məmmədhüseyn quzunu boşlayıb girdi evinə, şalını götürüb bağladı, çuxasını geydi, tütün kisəsini qoydu cibinə, çubuğunu taxdı belinə və arvadına dedi ki:

- Quzunu aparıram. - Arvad cavab verdi ki:

- Həyə satmağa aparırsan, o quzuya heç bir manat da verməzlər.

- Yox, satmağa aparmıram, xanlığa aparıram. Bəlkə bir şey qopardam.

Bu sözləri deyə-deyə Kəblə Məmmədhüseyn yendi həyətə, əyilib quzunu qucaqladı, vurdu qoltuğuna, çıxdı küçəyə və üz qoydu Əziz xanın evinə tərəf. Çəpik və oxumaq səsi gəldikcə yavıqlaşırdı.

***Nə durmusan dağ başında...***
***Mələrin nar kimi...***

Xülasə, xanlıq qapısında bir-iki kəndli durmuşdu, həyətdə də bir dəstə kəndli ucadan danışırdılar. Bağçada yekə tut ağaclarının dibində beş-altı quzu otlayırdı. Həyətin küncündə, çardağın altında bir çılpaq ağ at bağlanmışdı. Aşpazxanadan qab-qacaq səsi gəlirdi. Xanlıq qulluqçularından bir neçəsi aşpazxanadan evə xörək və evdən aşpazxanaya boş qab-qacaq daşıyırdılar. Kəblə Məmmədhüseyn düz gəldi pilləkanlardan qalxdı qabaq otağa və nökərlərin birinə dedi:

- Sadıq əmoğlu, xana ərz elə ki, Məmmədhüseyn quzu gətirib.

Bir az keçdi, Əziz xan bərk kefli, çörək dəsmalı ilə dodaqlarını silə-silə çıxdı qabaq otağa və quzunun başını Məmmədhüseynin qoltuğunda görəndə gəldi yavığa və durdu quzunu tumarlamağa:

- Quzu, quzu, nə yaxşı quzu, nə göyçək quzu. Quzu, quzu, quzu!.. - Və məhəbbətin şiddətindən başladı quzunun gözlərindən öpməyə.

Kəblə Məmmədhüseyn də durdu quzunu tərifləməyə:

- Xan, maşallah çox nəcib quzudu. Bir kəndli aparırdı satmağa, zornan üç manıt verib aldım. Bildim ki, qonağınız var, dedim bəlkə lazım ola, plov altına qoyasınız. Çox yeməli quzudu.

İçəri otaqda çəpik səsi bərkidi. Rus qonaqlarının biri qapını açıb Əziz xanı çağırdı. Xan dönüb qaçdı qonaqlara tərəf, genə qayıtdı Məmmədhüseynə tərəf, əlini saldı cibindən bir kağız üçlük çıxartdı.

Pulu genə istədi cibinə qoya, sonra istədi Məmmədhüseynə verə, genə istədi cibinə qoya, axırda atdı Memmədhüseynə və qaçdı içəri. Kəblə Məmmədhüseyn pulu qoydu cibinə, yendi həyətə ki, quzunu ötürsün bağçadakı quzuların içinə.

Kəndlilər genə həyətdə "arx" barəsində ucadan bəhs eləyirdilər, nökərlər də genə sağa-sola qaçmaqda idilər və heç kəs Məmmədhüseynə baxmırdı.

Bu da çuxasını çəkdi qoltuğundakı quzunun başına və üzünü küçə qapısına çöndərib çıxıb getdi evinə.

Və həmən gün quzunu kəsib yedi... Amma doğrudan da quzu çox arıq imiş.

İkinci dəfə

Aradan bir həftə keçmişdi ki, Kəblə Məmmədhüseyn gəzə-gəzə gəldi Əziz xanın həyət qapısına. Xanın nökərlərindən biri həyətdə palaz çırpırdı və Məmmədhüseyni görənde palazı qoydu yerə, gəldi qapıya. Bunlar başladılar o üzdən-bu üzdən danışmağa. Həyətdə iki quzu görsənirdi və Kəblə Memmədhüseyn nökərə nəsihət elədi ki, küçə qapısını açıq qoymasınlar; yoxsa quzular çıxarlar küçəyə, oğul-uşaq tutub aparar. Nökər də bunun cavabında dedi ki:

- Arxayın ol, heç bir köpək oğlu cürət eləyib xanın quzusunu aparmaz!

Söhbət özgə yana çöndü. Məmmədhüseyn başladı xanın əhvalını soruşmağa və xəyalında tutmuşdu ki, bilsin nə vaxt xan genə qonaqlıq eləyəcək. Nökər söhbət arasında dedi ki:

- Sabah yox, biri gün miravay pasrednik (keçmişdə mülkədarlarla kəndlilər arasındakı torpaq münaqişələrini həll edən yerli hökümət nümayəndəsi - red) xana qonaq gələcək və urus həkiminin arvadı da gələcək və bunlardan savayı Dəmirtəpə pristavı da gələcək, Qulam xan da gələcək, Səfi xan da gələcək.

İki gündən sonra Əziz xanın evində genə qışqırıq qopmuşdu. Bu dəfə məxsusi çalıb-oxuyanlar da var idi. Həyət qapısı dolu idi küçə uşaqları ilə. Kəblə Məmmədhüseyn uşaqları aralayıb qapını taqqıldatdı; çünki hərçənd qapı açıq idi, amma istəmirdi həyətə girsin.

Otaqda oxuyub çalanların səsi, qonaqların çəpiyi, həyət adamlarının hay-küyü qarışmışdı bir-birinə.

- Vəliqulu əmoğlu, Vəliqulu əmoğlu, bir bura gəl!

Xanın Vəliqulu adlı nökəri əlində çörəyi tez aparıb yerinə qoyub, qaçdı küçə qapısına. Kəblə Məmmədhüseyn buna salam verib, kefini soruşandan sonra dedi:

- Vəliqulu əmoğlu! Axı insaf deyil, mən kasıb adamam, xana bir tövr ərz elə quzunun üç manatını iltifat eləsin. Sən öləsən, məhəttələm. İki həftədən çoxdu, ha gedib gəlirəm. Amma, vallah, axı utanıram.

Vəliqulu belə cavab verdi:

- Yaxşı, deyərəm. Amma indi xanın başı qarışıqdı, sabah deyərəm.

Vəliqulu istədi qayıdıb getsin, amma Məmmədhüseyn onun ətəyindən yapışıb əlini saldı boynuna:

- Yox, yox, mən ölüm, indi get de. Mən ölüm indi de!

- Ay Allahın bəndəsi, indi mən xana necə gedim belə sözü deyim? Meyər görmürsən qonaqlar başını necə qatıbdırlar?

Məmmədhüseyn hirsləndi:

- Allahu əkbər! Bu da mənə söz oldu? Mən ki, öz pulumu istəyirəm, bunun nə dəxli var? Əmoğlu, sən Həzrət Abbas, bu saat get mənim pulumu al, gətir.

"Vəliqulu! Vəliqulu" - deyib Vəliqulunu aşpazxanadan çağırdılar, bu da Məmmədhüseynə vədə verdi ki, bir tövr düzəltsin və qaçıb girdi aşpazxanaya, plov məcməisini iki əlli qalxızdı yuxarı və çaparaq apardı qonaq otağına.

Cavan xanlardan biri çalğıçıların qabağında oynayırdı. Qonaqlar əl çalırdılar və oynayan cavan oynaya-oynaya getdi durdu həkimin arvadının qabağında və baş elədi bu da dursun oynasın.

Xanım başladı çəm-xəm eləməyə ki, mən oynamaq bacarmıram. Qonaqlar doluşdular bunun başına ki, gərək oynayasan. Axırda xanım durdu ayağa və çalğıçılara dedi ki, "tripaqa" havasını çalsınlar və düşdü oynamağa. Qonaqlar çəpik tutdular. Əziz xan çaxır stəkanını doldurdu, yeridi qabağa və "xanımın sağlığına" - deyib içəndən sonra cibindən bir üçlük çıxardı, apardı taxdı tar çalanın papağına və başladı çəpik çalmağa.

Kəblə Məmmədhüseyn Vəliqulunun yubanmağına səbr eləməyib, girdi qabaq otağa və başladı oradan oynayanlara tamaşa eləməyə, Əziz xan bir üçlük də çıxartdı taxdı kamança çalanın papağına.

Vəliqulu boş nimçələri bir-birinin üstünə qalayıb, istəyirdi otaqdan qaça aşpazxanaya. Məmmədhüseyn getdi durdu onun qabağında və nimçələri qucaqladı:

- Mən ölüm, bu sahat qayıt, o üçlüklərin birini al gətir mənə!

Vəliqulu bilmədi nə desin.

- Bu lotu Hüsi sənə qurban, sözümü yerə salma!

Vəliqulu nimçələri qoydu taxçaya, qayıdıb girdi qonaq otağına və ədəblə getdi ağzını tutdu Əziz xanın qulağına.

- Xan, o Kəblə Məmmədhüseyn yazıqdı, uşağı naxoşdur. Həkim gətirəcək, quzunun puluna gəlibdi.

Əziz xan çəpik çalıb oxuyurdu:

- Nə durmusan dağ başında qar kimi... - və oxuya-oxuya çıxdı qabaq otağa.

- Hə, niyə gəlmisən, Məmmədhüseyn?

- Xan, quzunun puluna gəlmişəm.

- Hə, genə quzu gətirmisən?

- Xeyr, xan, keçən qonaqlıqda gətirmişdim, xırda pulunuz olmadı ki, verəsiniz.

Əziz xan elini saldı cibinə, bir qayıtdı qonaqlara səmt, bir çöndü Məmmədhüseynə tərəf və başladı addax-buddax danışmağa:

- Hələ pulu qalır? Niyə qalır? Niyə indiyə kimi qalır? Yaxşı, verrem, get-get! Necə quzu?

Hansı quzu? Hələ xırda pul yoxdu. Vəliquluya deyərəm versin... Nə durmusan dağ başında... - Oxuya-oxuya qaçdı qonaqların yanına; cibindən bir dəstə kağız pul çıxartdı, bir üçlük taxdı qaval çalanın papağına və bir üçlük de atdı Vəliquluya ki, versin Məmmədhüseynə.

Kəblə Məmmədhüseyn üç manatı alıb yendi həyətə. Gecə yarısına bir saat qalırdı ki, qonaqlar başladılar dağılmağa. Amma Əziz xan əvvəl-axşamdan keflənib yatmışdı.

Üçüncü dəfə

Əhvalatdan bir neçə ay keçmişdi. Bir gün Kəblə Məmmədhüseyn Əziz xanın evinin qabağından keçəndə bildi ki, xanlıqda genə qonaqlıq var. Küçə qapısında iki fayton dayanmışdı. Genə bir faytonda iki nəfər rus çinovniki gəlib yendilər və girdilər həyətə. Kəblə Məmmədhüseyn bir qədər vaxt durdu qapıda, bir az baxdı gəlib gedənlərə; sonra çəkilib çömbəldi divarın dibində və çubuğunu çıxardıb başladı çəkməyə. Yarım saatdan sonra durdu, yavaş-yavaş gəldi dayandı qapının qabağında, başladı həyətə tamaşa eləməyə. Sonra nə fikir elədisə çöndü və bazara tərəf üz qoyub yavaş-yavaş çıxdı getdi.

Bir neçə gündən sonra Kəblə Məmmədhüseyn oturmuşdu bulvarda skameykanın üstündə. Günorta vaxtı idi. Əziz xan dalıyca bir neçə kəndli, natoryus dəftərxanasının qabağından keçirdilər. Məmmədhüseyn durdu ayağa. Dal tərəfdən yavıqlaşdı xanın yanına və salam verdi. Əziz xan çönüb buna baxanda bu da iki əlini döşünə qoyub, ədəblə ərz elədi:

- Xan, utanıram da deməyə, axı o quzunun pulu indiyə kimi qalır.

Əziz xan təəccüblə soruşdu:

- Necə quzu? Məgər mən sənin pulunu vermədim?

- Xan, doğrudu, cibinizdən bir üçlük çıxartdınız ki, verəsiniz, amma həmən üçlüyü verdiniz kamança çalana; yoxsa mənə vermədiniz. Hazır kamançaçı Əzim ölmüyüb ki! İstəyirsiniz, çağırın sual edin. Yoxsa qurban olsun sizə o üç manat, onun maliyyəti nədi ki, mən yalan ərz edim? Qurban olsun...

Xan hirslənib Məmmədhüseynin sözünü kəsdi:

- Niyə axı pulun indiyə kimi qalıb? Mən nə bilim nə puldu, nə cəhənnəm oğlu köpəyin quzusudu?! Küçənin ortasında başlamısan quzu belə gəldi, kamança belə getdi. Utanmırsan? Başlamısan bilmirəm nə quzu, nə axmaq oğlu, kamançaçı köpək oğlu, nə axmaq oğlu axmaq? Quzu, mən bilmirəm nə quzu? Başım qarışıb, iki min işim var; başlamısan küçənin ortasında bilmirəm nə quzu, nə zəhrimar oğlu zəhrimar!

Xan bu sözləri deyə-deyə üz qoydu getməyə. Kəblə Məmmədhüseyn başını qalxızıb cürətlə dedi:

- Xan, o üç manatnan mən nə dövlətli olacağam, nə kasıb. Qurban olsun sənə o üç manat. Ürəyini niyə sıxırsan?

Əziz xan beş-altı qədəm də gedəndən sonra dayandı və cibindən üç manat çıxardıb Kəblə Məmmədhüseyni çağırdı:

- Al quzunun pulunu. Kəblə Məmmədhüseyn pulu aldı qoydu cibinə, bircə bunu dedi:

- Allah xana ömür versin.

***İyun 1914, Tiflis.***

---

*Mehman Cavadoğlu*



# Vəziyyət gərginləşdikcə Paşinyan arxayınlaşır

**Dünən Yerevanda təxminən eyni vaxtda Paşinyanın tərəfdarları və əleyhdarlarının ayrı-ayrı meydanlarda mitinqləri keçirildi. Bu, İkinci Qarabağ Müharibəsindəki ağır məğlubiyyətdən sonra fasiləsiz mitinqlər rejimində fəaliyyət göstərən müxalifətin sıradan növbəti mitinqiydisə, generalların passiv qiyamı, daha dəqiqi, itaətsizliyi səbəbindən vəziyyəti daha da çətinləşdiyi üçün özünün sınanmış mübarizə üsulu olan küçə taktikasına əl atmağa məcbur qalmış baş nazirin ikinci kütləvi aksiyasıydı. Üstəlik, aksiyanın Paşinyanın maraqlarıyla səsləşən simvolik bir gündə, yəni martın 1-də keçirilməsi də onun əlinə oynayırdı. İndi qonşu meydandakı tribunada ağzından od püskürənlərin, erməni xalqının məğlubedilməzliyi barədə dastanlar danışanların xaç atasına çevrilmiş Köçəryan-Sərkisyan cütlüyünün əmriylə 13 il əvvəl məhz həmin gün Yerevanın küçələrində böyük qırğın törədilmiş, 10 nəfər dinc nümayişçi qətlə yetirilmiş, yüzlərlə insan yaralanmışdı. Paşinyanın öz nitqinə elə həmin faciə qurbanlarını anlamaqla başlaması da əslində, əli öz xalqının qanına batmış rəqiblərinə göndərilən sərt bir mesaj idi.**

**Baş nazirin ikinci mitinqinə də opponentlərinin artıq yeknəsək tamaşaya çevrilmiş, eyni natiqlərin "çevir tatı-vur tatı" nitqləriylə qulaqları yağır etmiş mitinqlərindən ən azı iki dəfə çox adam gəldi. Əsl nonsesdir. Əslində, müharibədən məğlub çıxmış baş naziri və ali baş komandanı hakimiyyətdən devirmək çox sadə bir iş olmalıdı. Amma müxalifətin üç ay yarımdı davam edən etirazları nəinki heç bir səmərə vermir, əksinə get-gedə əsl məzhəkəyə çevrilməkdədi. Ordunun rəhbərliyində olan 35 generalın itaətsizlik göstərərək onu istefaya çağırması da, konstitusiyanı ayaqları altına ataraq etirazçıların tərəfinə keçmiş prezidentin dəstəyi də müxalifətin gücünə əlavə güc qata bilmədi.**

**Hərçənd, xeyli müddətdir ki, fasiləsiz mitinqlər rejimindən süst etirazlar mərhələsinə adlamış müxalifət baş nazirin son səhvindən maksimum yararlanacağına böyük ümidlər bəsləyirdi. Bu məşum səhv "İskəndər" raketləriylə bağlı onun verdiyi ehtiyatsız açıqlamadan ibarət idi. 44 günlük müharibədə "İskəndər"lərdən istifadə olunmamasıyla bağlı eks-prezident S. Sərkisyanın qurduğu tələyə düşməsi Paşinyanın getdikcə güclənməkdə olan mövqelərinə ağır zərbə vurdu. Bu, müxalif düşərgədə yeni ümid qığılcımları doğurmaqla yanaşı, orduda islahatlar aparılacağıyla (oxu; ciddi kadr dəyişiklikləri ediləcəyi) bağlı bir müddət əvvəl verilmiş bəyanatdan əndişəyə düşmüş generalları da öz şinellərini qorumaq üçün açıq müqavimətə ruhlandırdı.**

**Xatırladaq ki, Paşinyan Sərkisyanın ittihamına cavabında müharibədə "İskəndər"lərdən istifadə edildiyini, lakin onların partlamadığını və yaxud 10 faiz partladığını bildirmişdi.**

**Həmin "10 faiz" kəlməsini onun hansı mənada işlətdiyini özündən başqa heç kim bilməsə də, Moskvanın siyasi və hərbi cameəsi, çox güman ki, bunu təkcə imicə vurulan ağır zərbə kimi yox, həm də ironiya kimi qəbul elədi. Bir sözlə, "İskəndər" raketləri haqqındakı açıqlama aydın səmada çaxan şimşək effekti yaratdı.**

**Cənubi Qafqazdakı maraqları naminə "manqal inqilabı"nın liderinin bir çox antirusiya demarşlarını və şıltaqlıqlarını qulaqardına vuran və yaxud qulaqburmasını daha münasib vaxta kimi təxirə salan Kreml daha səbrini basa bilmədi. Çünki zərbə imperiyanın ən həssas, ən məhrəm nöqtəsindən - qurşaqdan aşağı vurulmuşdu. Onun hər fürsətdə öyündüyü hərb sənayesi və bu sənayenin fəxrlə təbliğ olunan müasir raket kompleksi məxsərəyə qoyulmuşdu. Təsadüfi deyil ki, Paşinyanın açıqlaması təkcə onlarla rus hərbi ekspertiylə yanaşı Rusiya Müdafiə nazirliyi tərəfindən də rəsmən təkzib edildi. Onsuz da, İkinci Qarabağ Müharibəsi rus hərb sənayesinin bir çox paxırlarını üzə çıxarmışdı. Üzə vurmasalar da, içlərində çəkirdilər. Doğrudur, bundan əvvəl də Yaxın Şərqin ayri-ayrı münaqişə ocaqlarında bəzi rus silahlarının nüfuzuna ciddi xələl dəymişdi. Amma bu vəziyyət Qarabağ savaşındakı qədər kütləvi hal almamışdı.**

**Dünən Yerevanda keçirilmiş və faktiki olaraq iqtidarla müxalifət-baş qərargah-prezident koalisiyasının duelini xatırladan iki yanaşı mitinq Paşinyanın mövqelərinin hələ də rəqiblərindən güclü olduğunu bir daha sübut elədi. O, özünü çox arxayın va sakit aparırdı. Nitqində də ölkənin böhrandan çıxarmaq üçün təzə heç nə demədi, əvvəlki mövqeyini yenidən təkrar elədi; "Əgər parlamentdə təmsil olunan qüvvələr bizim hələ keçən il dekabrın sonu və bu ilin yanvarın əvvəllərində verdiyimiz təklifləri qəbul eləsələr, onda biz növbədənkənar parlament seçkilərinə getməyə hazırıq. Sizə ikinci imkanı verirəm. Seçkiyə gedək və görək xalq kimin istefasını tələb edir".**

**Baş nazirin "sizə ikinci imkanı verirəm" kəlməsindəki ötkəmli intonasiyanı bir kənara qoyaraq onu da deyək ki, bu "ikinci imkan" elə "birinci imkan"ın eynidi. Yuxarıdakı sitatdan göründüyü kimi, ötən ilin sonunda da o müxalifətə erkən seçkilərə getməkdən başqa heç nə təklif etməyəcəyini bildirmişdi. Sonradan bu təklifindən vaz keçsə də, indi yenidən geriyə addım atmağını böyük jest kimi qələmə verərək boyunlarına minnət qoymağı da unutmadı. Üstəlik, hakimiyyətin onlara məcməyidə hazır şəkildə veriləcəyiylə bağlı illüziyalarına son qoydu.**

**Bu inam təkcə öz mitinqinə toplaşan adamların sayının qat-qat çoxluğundan yox, həm də əhalinin ovqatına yaxşı bələd olmasından qynaqlanırdı. İndi müdafiə nazirliyinin girişindən tutmuş əksər şəhər və rayonlarının hərbi komisarlıqlarının qarşısına kimi ölkənin müxtəlif bölgələrində hər gün çoxsaylı piketlər və etiraz aksiyaları keçirilir. Valideynlər övladlarının Qarabağa əsgər göndərilməsini istəmirlər. Bilirlər ki, bu onları birbaşa ölümün ağuşuna atmaqdı. Amma meyitlərini hələ də döyüş bölgəsindən yığışdırıb qurtara bilməyən qisasçı siyasətçiləri bu az maraqlandırır. Çünki öz övladları onların arasında deyil, yeni müharibə başlasa belə yenə olmayacağını dəqiq bilirlər. Kasıbların uşaqlarını isə öz ifadələriylə desək, tikinti materialı kimi yük maşınlarındakı sement torbalarının, taxta və kərpiclərin arasında gizlədərək Qarabağa daşıyırlar. Terrorçu kimi istifadə elədikləri 62 gəncin nakam taleyi onlara dərs olmadı. Odur ki, indi Paşinyan həm də əhalinin öz uşaqlarının taleyini hər şeydən üstün tutan qeyri-siyasi hissəsinə arxayındı. Bilir ki, ən böyük çoxluq onlardı, əksəriyyəti heç seçkiyə gəlməyəcək, gəlsə də müharibə partiyasına səs verməyəcək.**

**Tikinti materiallarından söz düşmüşkən, bir ara Rusiya bunları Azərbaycan ərazisindən daşımağa qərar vermişdi. Bu bəzi həmvətənlərimizdə qıcıq yaratsa da, düzgün addım idi. İndi nədənsə yüklər yenidən əlverişsiz və bahalı Ermənistan marşrutuyla daşınmağa başlayıb. Azərbaycanın təzyiq və etirazları nəticəsində Ermənistandan Qarabağa əsgər göndərilməsi dayandıqdan sonra humanitar yardımın yenidən əvvəlki marşrutla çatdırılmasında məqsəd nədir? Olmaya, erməni əsgərlərinin tikinti materialına çevrilməsi projesində Moskva da yer alır?!**

---

*Rasim Müzəffərli*



## Qarabağlıların bir istəyi haqda

*Doğma yurda qayıdışa hazırlaşanların bir çoxu yeni evlərinin məcburi köçkün düşdüyükləri dövrdən əvvəl tökülmüş bünövrələr üstündə tikilməsini istəyir. Və bu da təbiidir. Çünki 30 il doğmalıq həsrəti çəkən insanlar ata-babalarının ruhları dolaşan öz həyətlərini istəyirlər.*

*Bu istəyin həyata keçməsi mənəviyyata da, hüquqa da, məntiqə də uyğundur, iqtisadi cəhətdən də səmərəlidir, üstəlik, icrası hökumət üçün daha asandır. Bu o deməkdir ki, qayıdış, əsasən, belə də olacaq, inşaAllah. Prezidentimiz də dəfələrlə qayıdış edənlərin istəklərinin mütləq nəzərə alınacağını qeyd edib.*

*Amma "qayıdış, əsasən (!), belə olacaq" yazdım. Çünki yeni yollar və komunikasiyalar, müasir kənd atributları, yeni iş yerləri, sakinlərin özlərinin daha səliqəli və rahat yaşayış tələbatı, fikrimcə, müəyyən dəyişiklikləri məcburi edəcək. Yurdun mahiyyətinə toxunmayan müsbət dəyişiklikləri kim istəməz ki?!*

*Əziz qayıdışdaşlarım! Bu gün mediada və söhbətgahlarda danışılanların çoxu - hələ sənədləşdirilməmiş mülahizələr, hələ təsdiq olunmamış təkliflər və hələ qəbul olunmamış baxışlardır.*

*Əminəm ki, işlənilməkdə olan çoxsahəli konseptual layihələr yaxın zamanlarda hazır olduqdan sonra, Qarabağda kənd və şəhərsalmanın konkret istiqamətləri konstruktiv ictimai müzakirə mövzusu olacaq. Onda bilinəcək ki, "ağıllı kənd" nə dərəcədə qanacaqlı, "yaşıl iqtisadiyyat" nə dərəcədə şəffaf, "virtual kəndxuda" nə dərəcədə gerçəkdir. Odur ki, istəyinizə, istəyimizə yetməyə güc qatmaq üçün, hələ qəbul olunmamış qərarları bir kənara qoyub, lütfən, keçirilən müvafiq rəsmi sorğularda iştirak edin, istəklərinizi ictimailəşdirin və ən əsası, özünüzdən muğayat olun.*

---

## *Ukrayna müharibəyə hazırlaşır?*



**Ukrayna əvvəllər razılaşdırılmış təhlükəsizlik zəmanətlərinin əksəriyyətini ləğv etdi və Donbasda qarşıdurmanın artmasına səbəb oldu.**

Bu sözləri Ukrayna üzrə Təmas Qrupunun rusiyalı nümayəndəsi Boris Qrizlov deyib. "Ukrayna səlahiyyətliləri əvvəlcədən razılaşdırılmış təhlükəsizlik zəmanətlərinin əksəriyyətini sıfra endirdi. Ukrayna münaqişənin hərbi şəkildə böyüməsinə səbəb olur", - Qrizlov bildirib.

**MEHRİBAN**

---

***Məmmədov Seymur Rafiq oğlu 30.10.1995-ci ildə Daşkəsən rayonunda anadan olub. Müharibədən əvvəl də 5 ildir ki, müddətdən artıq hərbi xidmətdə idi. İkinci Qarabağ savaşında qəhrəmanlıq göstərərək Qazi olmuşdur.***

# "Silah yoldaşıma istiqamət verəndə "Faqotnan" vuruldum..."

**- Seymur, müharibə bitib, qələbə qazanmışıq. Bu döyüşdən qalib əsgər, qazi kimi ayrılmısınız. Necə hisslərdir?**

- İzahı çətin olan, olunsa belə tam ifadə edilməyən qəribə sevincli, kədərli bir hisslər..

**- Seymur bəy, hərbiçisiniz. Müddətdən artıq xidmət edirsiniz. Müharibədən əvvəl haralarda xidmət etmisiniz?**

- İlk əvvəl Ağcabədi də. Sonra Gorana ezam olmuşam, ondan sonra da Beyləqanda xidmət etmişəm. Ən sonda da Gəncə şəhərinə gəlmişəm.

**- Hansı ərazilərdə döyüşdünüz, haralarda oldunuz?**

- Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak eləmişəm.

**- Qubadlıda yaralandınız?**

- Bəli, 19 oktyabr, Qubadlıda gedən döyüşlərdə.

**- Yaralanma anını necə xatırlayırsız? Döyüş gedən zaman idi, yoxsa mövqedə olanda?**

- Döyüş gedirdi, hücuma keçmişdik. Silah yoldaşıma istiqamət verəndə "Faqotnan" vuruldum.. Şok halında idi o. Qulağı, ağzı bağlanmışdı, danışa, eşidə bilmirdi. Gördüm, açıqlıqdadır, yanına qaçıb dartıb yerə uzatdım, o da sürünməyə başladı. Faqotu da həmin vaxtı atdılar, yanıma düşdü.

**- Özünüzdə idinizmi vurulanda? Təxliyyə həmin an oldu, ya neçə saat sonrasa?**

- Özümdə olmağıma özümdə idim, amma həmin an sanitarın gəlib bizi çıxarmağı mümkün deyildi. Yolu vururdular. Sonradan təxliyə olundum.

**- Yaranız necə idi vurulan an? Davam edə bildiniz döyüşə?**

- Yox. Heç bir hərəkət edə bilmədim. Bədənim sıxılmışdı. Sağ ciyərim açıq idi, nəfəs alma çətinləşdi. Beldən aşağını hiss eləmirdim. İçalatıma zərbə dəymişdi ümumilikdə. Qaldım yerdə eləcə. Bir az keçəndən sonra zirehli maşınla çıxartdılar. Ağrım çox şiddətli idi. Üç ağrı kəsici belə təsir eləmədi..

**- Girdiyiniz kəndlərin hara olduğunu bilirdinizmi heç? 30 il sonra döyüşçü kimi Qarabağ torpaqlarına ilk dəfə ayaq basmağın özü, döyüşdən əlavə bir həyəcan verər yəqin ki..**

- Yox, açığı bilmirdim. Yəni, heç birimiz. Hərbi sirr kimi idi o. Sonradan bilirdik, eşidirdik ki, haranı azad etmişik, harda olmuşuq. Həyəcan isə təbii ki. Özü də, ən pik həyəcan. Gözümüzü qan elə bürümüşdü ki, biz torpaqdan daha çox həmin an onların bizə etdiklərinin, şəhidlərimizin qisasını almaq istəyirdik. Hər şey bundan sonra gəlirdi.



**- Üzbəüz erməni öldürdüyünüz oldumu?**

- Olub, bəli. Əslində, biz üzbəüz döyüşdə az olurduq, amma yenə də oldu, çox şükür. Şərəfsizlər bizi ancaq artilleriya ilə vururdular. Üzbəüz gələ bilmirdilər ki, heç. Qoyub qaçırdılar hamısı.

**- Bəs, əsir necə, götürürdünüzmü?**

- Hə, əlbəttə. Çox oldu əsir götürdüyümüz.

**- Sosial şəbəkələrdə ermənilər tərəfindən yayılırdı ki, Azərbaycan əsgəri əsirə işgəncə verir, hətta bəzi kanallar ermənilərin bundan qorxmadığını deyirdi. Təbii, ortada olan faktlardan qorxduqları aydın idi. Əsirlərlə əsir kimi davranmaq çətin gəlmirdimi onların etdiklərindən sonra?**

- Deyirlər dəə. Biz qayda-qanuna, müharibə qanunlarına uyurduq. Özümüz götürdüyümüz əsirləri aidiyyatı üzrə təhvil verirdik.

**- Yanınızda şəhid olan oldumu? Mənə elə gəlir, müharibənin ən ağrılı tərəfi məhz buradır. Yaxın dostların, silah yoldaşların gözünün qarşısında can verir..**

- Yox, mənim yanımda olmadı, amma ümumi şəhid olanlar bəsdi də... Yanında, ya başqa yerdə. Allah bütün şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun..

**- Heç vaxt yadınızdan çıxmayan hansı hadisəni deyə bilərsiniz?**

- Bütün hadisələri, hər saniyə baş verənləri, öz başıma gələnləri, yaralanmağı, başqa yaralananları..

Biri yaralanmışdı. Biz 052-nin uşaqlarının yanında olmuşduq. Uşağımı gətirin, uşağımı gətirin deyirdi. Maraqlandım, yaralanmadan əvvəl xəbər veriblər ki, qızın olub. Görməyib hələ qızını. Sonra yenə maraqlananda vəziyyətinin ağır olduğunu dedilər. Başqa xəbər eşitməmək üçün maraqlanmadim sonra.. Ümid edirəm, qızı qucağındadır indi..

**- Müharibədən sonra hansı medallarla təltif olundunuz?**

- "Vətən uğrunda", "Cəbrayıl uğrunda" medalları verilib hələki. Yenə veriləcək.

**- Müsahibə üçün də, etdikləriniz üçün də təşəkkür edirik. Nə yaxşı ki, varsınız, var oldunuz.**

- Buyurun, mən də təşəkkür edirəm. Etdiklərimiz bizim borcumuz idi, biz etməyəcəkdik, kim edəcəkdi?

**Orxan Saffari**



Nicat Novruzoğlu

# Biz kasıb olmalıyıq

*Məni söysəniz də, qınasanız da, tənbeh etsəniz də mən kasıblığın tərəfdarıyam. O kasıblığın ki, hər kəs kasıb olsun. Hər kəsin maddi durumu eyni olsun. Hər kəs eyni yer gəzsin, eyni maşını sürsün, eyni geyinsin...Bəs niyə mən fərqliliyi olmayan kasıb bir həyat diləyirəm? Çünki bizi bu ayrıseçkilikdən ancaq kasıblıq qurtara bilər. Bizi bu rüşvətxorluqdan, harınlıqdan kasıblıq qurtara bilər.. Bizi bu yaltaqlıqdan da kasıblıq qurtara bilər.*

*Əgər hamı kasıb olarsa...*

*Gedirsən poliklinkaya. Ki, sağlamlıq kağızı alasan. Arayışı verən deyir ki, yerində 40 manat. Ya da ki, qapı-qapı düş sağlamlığını yoxlat, sabah da gəlib arayışını alarsan. Biz 5 manat aşağı-yuxarı vargəllə sağlamlıq arayışımız alıb çıxırıq(artıq bu əqli xəstə olmağımıza dəlalət edir. Sağlamlıq qalar adamda?). Çünki cibimizdə arayış üçün pul var. Kasıbda da arayış üçün pul olar?!*

*Oturursan məclisdə. Baxırsan ki, birinin başına pərvanə kimi dolanırlar. Qarın yekə, saat bahalı, geyim firma, telefon da ki, düşmən gözü çıxarır. Mahnılar onun üçün oxunur, şəkilləri o bəzəyir, sağlıqlarda yaşayır, gəlin az qalır onun qoluna girsin, bəy də qarşısında dayanmadan oynayır . Niyə? Çünki varlıdı...*

*Keçək yas məclisinə. Bir imkanlının dədəsi ölsün. Ölsün deyəndə, qarğış deyil ha, ümumi olaraq deyirəm. Fərz edin ki, ölüb. Tay sonra mənə deyilməsin ki, sən bu kasıbın bədniyyətliyinə bax hələ, kasıb, sən də özünü insanmı sanırsan? Mollanın yasini uzandıqca uzanır. Elə bil, yasinin uzunluğu kişinin yerini isti edəcək. Tanıdı tanımadı hər kəs məclisə təşrif buyurar. Gələn elə sifət alar ki, elə bil, rəhmətlik bunun dədəsi idi. Nəysə, ölünün arxasınca danışmayaq indi, Allah rəhmət eləsin!*

*Hamı kasıb olsa qanundan qorxarlar, qanun qiymətli olar, pul qanunu kəsməz.*

*Hamı kasıb olsa, cəzadan qorxarlar, pul cəzanı çəkməz.*

*Hamı kasıb olsa, toyumuzda eyni müğənni oxuyar.*

*Hamı kasıb olsa, mollamız da fərqlənməz, yasinimiz də.*

*Hamı kasıb olsa, mehriban olarıq.*

*Hamı kasıb olsa, əkərik, biçərik, məhsuldarlıq olar.*

*Hamı kasıb olsa, övladlarımızın sayı çox olar.*

*Hamı kasıb olsa, kasıblıqdan heç kəs intihar etməz.*

*Hamı kasıb olsa, hər kəs təhsil alar.*

*Hamı kasıb olsa, hər kəsin balasına iş verilər.*

*Hamı kasıb olsa, harınlamarıq.*

*Hamı kasıb olsa düz söz düzdə qalmaz.*

*Hamı kasıb olsa tərəzimiz düz olar.*

*Hamı kasıb olsa, Vətən üçün hər kəs döyüşər. Kasıbların Vətəni!*

*Hamı kasıb olsa, sevgimiz də saf olar.*

*Bu kasıbyanə misalları yaza-yaza nə qədər istəsən uzatmaq da olar. Amma bilirəm ki, mənimlə razılaşmayassınız. Çünki kasıbam...*

## Misgər Məmmədov: ADU-nun məzunları cəmiyyətin bütün səviyyələrində özünü doğruldub

**"Azərbaycanın paytaxtı və iri şəhərlərində xarici dil müəlliminə tələbat kənd rayonlarına nisbətən çox aşağıdır. Orta təhsil müəssisələrində xarici dil müəllimi peşəsi tələb olunan peşədir, lakin onların dərs yükü ilə təminatı mövcud demoqrafik vəziyyətlə bağlıdır. ADU orta məktəbdə xarici dil müəllimi peşəsi ilə kənd və şəhər məktəblərinin ehtiyaclarını lazımi səviyyədə ödəyir. Orta məktəb üçün xarici dil müəllimlərinin ixtisas və peşə hazırlığı cəmiyyətin tələbatlarını ödəyir".**



Bunu ADU-nun Elmi Şurasındakı çıxışında Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Misgər Məmmədov deyib.

O, bildirib ki, bakalavr və magistratura səviyyəsində xarici dil müəllimlərinin müəllim kimi işləmək istəməsi ilə bağlı aparılan sorğulardan belə məlum olur ki, bakalavr səviyyəsində 20-26%, magistratura səviyyəsində 7-12% müəllimlik fəaliyyətini üstün tuturlar: "Bu faiz göstəriciləri özünü müəllimlərin işə qəbulunda doğruldur. ADU-da cəmiyyətin pedaqoji ehtiyaclarını ödəyəcək səviyyədə xarici dil müəllimi hazırlanır və tələbata cavab verirlər.

1990-2020-ci illərdə ADU-nun məzunları cəmiyyətin bütün səviyyələrində özünü doğruldub. Cəmiyyətə lazım olan 10% tələbat səviyyəsi həmişə ADU tərəfindən müvəffəqiyyətlə ödənib. Bütün dövrlərdə və bütün hallarda cəmiyyətin tələbatı 10% həddində olub və biz də cəmiyyətin tərkib hissəsi kimi bu vəzifənin öhdəsindən gəlmişik.

Pedaqoji prosesin idarə edilməsi, müasir təlim texnologiyalarından istifadə, yüksək ixtisaslı kadr hazırlığı, əqidə, dünyagörüş və vətəndaşlıq mövqelərinin formalaşdırılmasında ADU-da yaradılmış laboratoriyalar kadr hazırlığının peşə, ixtisas, şəxsiyyətin dünyagörüşünün səviyyəsinin formalaşdırılmasına yönəlib və müvəffəqiyyətlə icra olunur".

M.Məmmədov əlavə edib ki, əmək bazarında aparılan təhlillər göstərir ki, xarici dil müəllimlərinin peşə hazırlığına əlavələrin edilməsi zamanın tələbidir:

"Məsələn, xarici dil - psixoloq, bank və maliyyə sektoru üçün kiçik mütəxəssislər, ofis, qeyri-hökumət və hökumət təşkilatları üçün referentlər, turizm və otelçilik üzrə, xidmət sahələri üzrə mütəxəssislər hazırlamaq olar. Hal-hazırda istənilən müəssisədə bir psixoloqun olması vacibdir, yəqin bu məsələ növbəti illər üçün ailələri də əhatə edəcək.

Ünsiyyətin yeni formaları, xüsusilə uşaqların planşent, kompüter vasitəsi ilə asudə vaxtlarının keçirilməsi psixoloqlara olan ehtiyacı günün vacib tələbinə çevirir.

**ADU-da tərcümə, beynəlxalq münasibətlər üzrə mütəxəssis hazırlığının nəticələri ilə biz tərcümə mərkəzlərində, internet saytlarında, ictimai təşkilatlarda, bank maliyyə sektorunda, idarəetmənin müxtəlif səviyyələrində rastlaşırıq: "Bu insanlar işlərinin öhdəsindən layiqincə gəlir və həm də hər hansı bir xarici dili və kompüter hazırlığını nümayiş etdirirlər. Mənə elə gəlir, bu gün ADU-da ixtisas, peşə kafedraları, informatika kafedrası öz pedaqoji fəaliyyətlərinin nəticələri ilə qürur duya bilər. Onların zəhməti hədər getməyib. Bu prosesin təşkilinə Universitet rəhbərliyi tərəfindən həmişə nəzarət olub".**



Ələmdar Məmmədov, Təqaüddə olan baş ədliyyə müşaviri

# ZAKİR QARALOV PROKURORLUĞU İFLİC ETDİ

## Keçmiş prokurordan deputatın iradına cavab

*(Bu məqalə 27 sentyabra qədər yazılmışdır)*

**Yaxınlarda Milli Məclisin iclasında son dövrlərdə Rayon İcra Hakimiyyəti başçılarının hüquqa zidd hərəkətləri müzakirə edilərkən, deputatlardan biri (səhv etmirəmsə Siyavuş Novruzov) prokurorlar hara baxırdı iddiası ilə çıxış etmişdi. İlk baxışda haqlı iraddır.Lakin...**

### Əgər təyinat alan prokurora

birinci tapşırıq icra başısı ilə dil tapmaq olurdusa, icra başçısının bir telefon zəngi ilə prokuror gözdən düşürdüsə, rayonlarda keçirilən zona müşavirələrində Baş prokuror yalnız icra başçısı ilə oturub dururdusa, nəinki RİH-nin,məmurun,deputatın, hətta nazirliyin yerli nümayəndəsinin çağırılması üçün xüsusi icazə tələb olunurdusa və bu üzdən bir çox cinayət işlərinin açılması müşkülə düşürdüsə , hər- hansı bir qurumda cinayət faktı aşkar olunduqda ictimaiyyətə verilən məlumatda prokurorluğun adı ikinci göstərilirdisə ***(məs: Qida Agentliyi və Baş prokurorluğun birgə məlumatı)***, Ağır Cinayətlər Məhkəməsinə göndərilən işlərdə rayon prokuroru ittiham aktını təsdiq edə bilmirdisə, polis rəisi ilə narazılığa görə prokuror dərhal sərəncama götürülüb, qarşı tərəf vəzifəcə daha da böyüdülürdüsə,polis əməkdaşı barədə daxil olmuş ərizə və şikayətlərin yoxlanması üçün DİO rəhbərliyindən icazə alınırdısa, yalnız qanunun aliliyini rəhbər tutmalı olan dövlət ittihamçısının ittihamdan imtina etməsi əməlin tövsifi əmrlə qaydalaşdırılırdısa, rədd və xitam qərarının ləğvinə,bəraət hökmünün çıxarılmasına görə müstəntiq və prokuror məşhər ayağına çəkilirdisə,CM-nin 291-ci maddəsi demokl qılıncı kimi müstəntiq və prokurorun başı üzərində parlayırdısa,ən cüzi xətaya görə (məs;etibarnamə olmadan nəqliyyat vasitəsini idarə etmə)prokurorluq əməkdaşı qanunda nəzərdə tutulmayan ağır cəza alırdısa, və yaxud guya iş yoldaşından uzaq qohumunun şikayətinə ədalətli baxması xahişinə görə bir məmurun tapşırığı ilə idarə prokuroru barəsində xidmət yoxlama aparılıb vəzifəsindən çıxarılırdısa, daha ağır xətaya yol verən dayılılara ”gözün üstə qaşın var” deyən olmurdusa,bank rəhbərliyinə əməkdaşının bank fəaliyyətindən kənar qanunsuz hərəkətləri barədə məktub yazdığına görə rayon prokuroru cəzalandırılırdısa, əməkdaşların bütün hərəkətləri,hətta pal-paltar almaq qaydaları əmrləşdirilib,təşəbbüsdə bulunan hər kəs ”qanundan kənar” hesab edilirdisə məs: prokurorluğun ən ləyaqətli və şərəfli əməkdaşlarından biri cənab Prezidentin Şəki Apelyasiya məhkəməsinin açılışındakı çıxışına əsaslanaraq əlaqəli qurumlara yeni şəraitə uyğun işləmək təklifi ilə müraciətinə görə rəhbərlik etdiyi şöbənin fəaliyyəti kompleks yoxlanılıb vəzifəsindən kənarlaşdırılırdısa, ədalətli və peşəkar keyfiyyətləri ilə seçilən,polisin və icra hakimiyyətinin qanunsuz fəaliyyətinə göz yummayan,bu hərəkətləri ilə rayon ictimaiyyətinin rəğbətini qazanan,gənc prokuror saxta və şübhəli ittihamla həbsə alınırdısa,1600 kq unun alğı-satqısında ”vasitəçi” olduğuna görə prokurorluq əməkdaşının barəsində cinayət işi başlanıb, orqandan xaric olunduğu halda,iri bizneslə məşğul olanlar ...***(elin gözü tərəzidir)***, Baş prokurorun adı korrupsiyada və yaxud biznes fəaliyyətində hallansa da, nə təsdiq nə də təkzib etmədiyi halda,xaricdə yaşayıb dövlət başçısı haqqında hədyan danışanlara biganə qalıb,öz ünvanına söz deyilən kimi minnətçi göndərirdisə, qanunla qadağan olunmasına baxmayaraq anonim məlumat əsasında rayon prokuroru haqqında xidməti yoxlama aparılırdısa, hər-hansı siyasi tədbirlərdə və bayram günlərində rayon prokuroru xidməti iş otağında gecələməli olurdusa, prokurorluğun xeyir duası ilə nazirliklərin mənafeyinə xidmət edən istintaq şöbələri yaradılırdısa, ölkədə yalnız bir nəfərə hesabat verməli olan Baş prokuror böyük məmur korpusu qarşısında yaxşı görünmək üçün dəridən qabığdan çıxıb,öz səlahiyyətlərini tabe orqanlara ”pay”verməklə unitar dövlətimizə və dövlətçiliyə zərbə vururdusa, hətta prezident sərəncamlarının icrasına əngəl törədilirdisə, məmur uşaqları prokurorluğa imtiyazlı şəxslər kimi qəbul edilirdisə, ***(əlbəttə,nümunə götürülməli məmur və məmur övladları da az deyil)*** kollegiya iclaslarında cəza alanların və orqandan xaric olunanların sayı ən böyük müvəffəqiyyət kimi xüsusi pafosla qeyd edilirdisə,(2000-2005-ci illərdə cəza alanların sayı bəlkədə son 50 ildəki qədər olmuşdur) təqaüd yaşına çatmış əməkdaşlarla 5 illik müqavilə gərəkliyinə görə deyil, şəxsi münasibətlər zəminində və kimin adamı olduğuna görə bağlanırdısa, qanunda üç aydan artıq olmaması göstərilsə də əməkdaşlar illərlə əmək haqqı almadan sərəncamda saxlanılırdısa, əvəzində məmur tapşırığı ilə başqa orqanlarda işləmiş ,hətta təqaüdə çıxmış şəxslərin prokurorluğa axını adi hal alırdısa,Prezidentin sərəncamı ilə 01 sentyabr 2019-cu ildən əmək haqqının artırılması nəzərdə tutulduğu halda, 10 aydan sonra bu məsələ həllini qismən tapırdısa, hüquq mühafizə orqanları və güc strukturlarından yalnız ən az ştat vahidi olan prokurorluqda xidmət illəri artırılırdısa,(25 ildən 35 ilə) Baş prokurorun əmrlər toplusu ən nəfis formatda təkrar-təkrar nəşr olunduğu halda (hansı vəsait hesabına!?) uzun illər telefon məlumat kitabçası işıq üzü görmürdüsə , özünü qorumaqla məşğul olan bütün qurumlar aciz vəziyyətə düşürdüsə, (qismən də olsa müstəqilliyini və prokuror nüfuzunu saxlayan qurumlar da olub) başqa sözlə, rəhbərlik tərəfindən müdafiə olunmayacağını bilən, səhvsiz işləməyə məhkum edilmiş, rayon prokuroru və digər əməkdaşlardan icra başçısının cinayətkar əməllərinin qarşısını almaq tələbi nə qədər ağıla,məntiqə və ədalətə uyğundur?

### Fəaliyyətinin ilk aylarından

**bu məsələlərin həllinə çalışıb,rayon prokurorlarının səlahiyyətini qaytaran,prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri addımlar atan,kağız üzərində qalmış Elmi-məsləhət şurasının fəaliyyətini pərpa edən, toxunulmazlıq statusunda olan kadrları kənarlaşdıran,bürokratik əngəllər törədən əmrləri ləğvi edən,kollegiyallığı sözdə deyil işdə həyata keçirmək üçün intizam komissiyası yaradan, ən əsası”Korrupsiyaya qarşı mübarizə haqqında qanun”-un tələbinə əməl edərək, yaxın qohumunun prokurorluqda əmək fəaliyyətinə xitam verməklə digər məmurlara nümunə göstərən hazırkı Baş prokurora hamılıqla kömək etmək lazımdır.Çünki,zəif prokurorluq dövlətçilik və xalq üçün fəsadları gec bilinən ən böyük təhlükədir.**

***P.S.*** *Bu məsələləri hamı bildiyi halda nə üçün ölkə başçısına müraciət etmirdiniz sualına tarixi- analoji faktla cavab vermək istəyirəm.*

***1939-cu ildə bir qrup prokurorluq işçisi insanların əsassız məhkum edilməsi barədə verilmiş protestlərin baxılmasında SSRİ prokuroru M.Pankratovun mövqesizliyi və siyasi büro üzvlüyünə namizəd XDİ komissarı L.Beriya qarşısında acizlik göstərərək,qanunla müəyyən edilmiş hüquqlarından istifadə etməməsi barədə ÜİK(b)P MK-nin siyasi büro üzvü,Leninqrad vilayət və şəhər partiya komitəsinin I katibi,RSFSR Ali Sovetinin sədri A.Jdanova müraciət edirlər.***

Bu məktub barədə A.Jdanov İ.Stalinə məlumat verir və qısa müddətdən sonra M.Pankratov vəzifəsindən kənarlaşdırılır.

Göründüyü kimi Stalin dövründə prokurorluq əməkdaşları cəsarət taparaq öz sözünü deyə bildi.Biz (mən daxil olmaqla) vaxtında bu qanun pozuntularını ölkə rəhbərinə çatdıra bilmədik. Ona görə ki,bizim müraciətlərimiz bu gün artıq hamıya bəlli olan ”güc” tərəfindən ”bloklanırdı”.

**Sözardı:Oxucu düşünməsin ki, keçmiş Baş prokkurora qarşı qərəzim və narazılığım olduğu üçün, bu yazını qələmə almışam.Xeyr!Allahım şahiddir ki,mənim Zakir müəllimə qarşı şəxsi planda heç bir kin-küdurətim yoxdur.45 illik tanışlığımızda Zakir müəllim həmişə hörmətimi saxlayıb,yolumu gözləyib, əməkdaşlar üçün ən yüksək mükafatla, ”Prokurorluğun fəxri işçisi”döş nişanı ilə təltif edib,başqa sözlə münasibətlərimiz yüksək səviyyədə olub.Amma prokurorluğa həddindən artıq bağlı bir insan kimi ”gözlüyü açıb havanı dəyişmək əvəzinə” qapı pəncərəni də sındırıb prokurorluq adlı binanın kökündən silkələnməsinə biganə qalmaq olmaz!**

# BÖYÜK GÜNAH

**... İnsan yarandığı gündən Allahın dərgahına dönüşünə qədər günahların içində olur. Bir var kiçik bir günah eləyəsən, bir də var böyük günahlar törədəsən. Çünki kiçik günahları yaxşı əməllərinə görə Allah-Təala bağışlayır. Amma böyük günahlara gələndə isə onun bağışlanılması o qədər də asan deyil. Ən azından əməl dəftəri əlinə veriləndə sol əldəkindən sağ əldəki əməllər daha ağır olmalı və yaxşı, əməli-saleh işlərinə görə, Allah-Təala sənə öz mükafatını bəxş eləməlidir.**

Bu fəlsəfi fikirlər istedadlı yazıçı-publisist Oqtay Ərgünəşin (Əliyev) "Böyük günah" kitabında bir qırmızı xətt kimi özünü göstərir. İstedadlı yazıçı-publisist bu kitabı qələmə almaqla insanları haqqın, ədalətin, Allahın yanında olmağı, düz yolla getməyi, heç kimin haqqına girməməyi və ən nəhayət, zalımdan, namərddən uzaq olmağı aşılayır. Onun bir-birindən çox gözəl hekayələri, portret oçerkləri və yumoristik yazıları var. Bayaq dedim axı, bu yazıların dili, üslubu, şirinliyi, insanın qəlbinə nur ələməyi onu sözün həqiqi mənasında oxucuya sevdirir. O, XXI əsrin "qırxlotuları"na üzünü tutaraq yazır: *"...bilin ki, dünyanın çarxı həmişə fırlanır. Zamanında bəşəri hisslərlə yaşayın, xalqı sevin, ətrafdakılara insanpərvər olun, xoş münasibət bəsləyin, bəlkə İlahi törətdiyiniz ağır günahlarınızdan keçər...".*

Təbii ki, yazıçının bu cür əxlaqi dəyərlərə, bəşəri duyğulara və insanpərvərlik ideyalarına söykənməyi və insanları düz yola dəvət etməyi həmin daş ürəkli ölkələrdən tutmuş fərdlərə qədər hamısını silkələyir və haqqın yoluna qayıtmağa məcbur edir. Ümumiyyətlə, onun "Şərəf-ləyaqət", "Halallıq, insanlıq", "Hardasan, oğul?", "Böyük günah", "Tarixin çarxı fırlanır", "Qeyrət kəməri" hekayələrində o bir ədib, bir yazar kimi çox incə məqamlara, zərif nöqtələrə, milli dəyərlərə toxunur və onların yadına salır ki, adam keçmişini unutmamalıdır.

### Bir sözü də qeyd edim ki,

*Oqtay müəllimin bu kitabında gözəl hekayələr, bədii sözün çaları, milli və bəşəri dəyərlərin önə çəkilməsi, oxucuya çatdırılması və sevdirilməsi özünü daha qabarıq göstərir. Onun əsərlərinin əsas leytmotivini və qırmızı xəttini bir ideya təşkil edir: kişilik, namus, qeyrət, vətənpərvərlik və insanın bir sifəti olması! Axı zəmanımızdə nəinki beş-on sifətli, yüz sifətli insanlar da az deyil.*

Yazıçı o vaxt oxucunun qəlbini və ürəyini fəth eləyir ki, onun yazdığı ilə əməli bir-birini tamamlayır. Yəni Oqtay Ərgünəşin sözün həqiqi mənasında qələmə aldığı hər bir hekayə, portret oçerk, roman birmənalı olaraq onun ləyaqətli ömür yaşamasdından bir kişi kimi alnı açıq, üzü ağ cəmiyyətdə tanınmasında və eyni zamanda, bu qarmaqarışıq dünyada öz ləyaqətini, mərdliyini və səmimiyyətini qorumaqdan yaranır. O qədər istedadlı yazıçı var ki. Amma şəxsiyyəti və əməli bir qəpiyə dəyməz. Hətta dünyaşöhrətli yazıçıların arasında istedadı olmasına baxmayaraq, şəxsiyyətinin qaranlıq və çirkab olduğuna görə, onların yazdıqlarını bir o qədər də sevmək olmur. Amma Oqtay Ərgünəşin böyük ürəyi, təmiz qəlbi və səmimiyyəti bir daha onu təsdiq edir ki, yazıçı hansı mövzuda yazı qələmə alırsa, öz şəxsiyyəti kimi onlar da dupduru, pak və təmizdir.

### Onun "Böyük günah" kitabını vərəqlədikcə

***bir-birindən gözəl hekayələri, oçerkləri və eləcə də fəlsəfi düşüncəli publisist yazıların şahidi olursan. "Daşlar", "Durnalar qayıdacaq", "Şəhadət barmağı, "Qəssab kötüyü", "Qaratoyuq", "Geyim", "Papaq satan kişi", "Təzadlı dünya", "XXI əsrin "qırxlotuları"", "Çoban iti", "Lazım kişi gəlsə", "Qağayı", "Ürək", "Boş qalan çatı", "Eşşək ki, eşşək!", "Kişi, baş səndə nə imiş!" hekayələri, "Nəyimiz var, nəyimiz yox?", "Qoltuqaltılar" hikmətli sözləri, vətən mövzusunda qələmə aldığı "Süngüyə çevrilmiş qələm", "Yaralı qartal", "Ot kökü üstə bitər", "Bağrı dağlı dağlar", "Əsgər borcu", "Deyilən söz yadigardır" silsiləsində "Rəsul Rza və klassik Azərbaycan ədəbiyyatı", "Füzuli rayonu: quruculuğun yeni ünvanı", "Ömrə şöhrət verən illər" yazıları demək olar ki, yazıçını oxuculara sevdirən ən gözəl nümunələrdir. Məşhur yazıçı olmaq olar, amma sevilən yazıçı olmaq o qədər də asan deyil. Oqtay Ərgünəş bu hekayələri və publisist yazıları ilə tam səmimiyyətlə deyirəm ki, oxucuların ürəyini fəth eləməyi bacarıb.***

### O, başqaları kimi uzun-uzadı sicilləmə hekayələr qələmə almır

Cəmi bir səhifəlik hekayədə bir romanda, bir povestdə deyilən fikri oxucuya elə aşılayıb ki, oxucu onu bulaq suyu kimi, bal kimi qəbul edib "öz malına"çevirir. Məsələn, onun yarım səhifəlik balaca bir "Gileyli qohumlar" hekayəsi var. Qardaş gəlir bacının qapısını döyür. Bacı isə hər şeyi ola-ola "ağlamağa" başlayır: "... Can qardaş, uşaqlar gedib hərəsi bir "Mersedes" alıb. O çıraq haqqı, indi benzin almağa imkanımız çatmır. 35 baş qara malın, 200-ə qədər qoyun-quzunun yemini toplamaq da çox çətindir. Qız-gəlinlər hər toyda bir yeni paltar geyinməsələr, qan əkərlər. Qardaş, beləcə, vəziyyətimiz çox çətin keçir, - deyib, bacım dizlərinə döyərdi..." Hamımızın belə "ağlayan", var-dövləti başından aşan qohumu var. Məsələn, mənim bir bibim oğlunun iki-üç maşını, iki-üç yerdə evi-eşiyi, böyük də təsərrüfatı var. Hər dəfə görüşəndə də deyir ki, dayı oğlu, vəziyyətim çox ağırdı, çatdıra da bilmirəm. Bax, Oqtay müəllim cəmiyyətin içindəki bu cür eybəcərlikləri görür və onları satira atəşinə tutur ki, bəlkə özlərinə gələlər. Əlbəttə, kiçik hekayədə bu qədər dərin fəlsəfi fikirlər, bəşəri ideyalar və insani dəyərlər oxucuya aşılamaq o qədər də asan deyil. Onun




yaxşı bir hekayəsi də var: "Gəlin". Milli dəyərlərə söykənərək indiki gəlinləri keçmişin yaxşı nümunələrini yaşatmağı arzulayır. Yazıçı bir fikri bəyan edir ki, gəlin hamının dilini tapsa, böyüyə-kiçiyə hörmət eləsə, o, evdə oğul-uşaq sahibi olacaq, qayınatası və qayınanası ilə yağla bal kimi dolanacaq. Mən məsləhət bilərdim ki, yenicə ailə quran bəylər və gəlinlər bu hekayəni oxusunlar və həyatın çətin sınaqlarında bir-birini yarı yolda qoyub ayrılmasınlar. Yenə deyirəm, Oqtay Ərgünəşin böyüklüyü odur ki, milli dəyərləri, unudulmuş və yaddan çıxmış, hətta pas atmış gözəl adət-ənənələrimizi bir ürək yanğısıyla, bir hayqırtıyla oxuculara çatdırır və çatdırmasa düşünürəm ki, onun ürəyi partlayar. Amma oxucuya vaxtında çatdırdığına görə, onun ürəyi partlamır, daxilən sakitləşir, içindəki təlatüm, vulkan püskürəndən sonra yenidən özünə qayıdır...

***Mən Oqtay müəllimi 1974-cü ildə Füzulidə çıxan "Araz" qəzetində 3 ay təcrübədə olanda tanıdım. Onda o, redaktor müavini, biz isə tələbə idik. O vaxtı çöhrəsində hansı nuru, hansı işartını görmüşdümsə, bu gün də elə o nuru görürəm.***

### Həyatın çətin sınaqları

- çovğunu, tufanı onu hər cür sınağa çəksə də, çoxları ona namərdlik eləsə də, amma Oqtay Ərgünəş öz ləyaqətini, öz şəxsiyyətini, öz böyüklüyünü və öz mərdliyini qoruyub saxlayıb. O, Füzulinin bütün yazarların uğurlarına sevinən böyük ziyalıdır. Bu qədər istedadına, çoxlu sayda kitablar çap etdirdiyinə baxmayaraq, elə həmin Oqtay müəllimdir.

Oqtay müəllimin çox yaxın bir dostu var. O da dünyanın ən təmiz, ən pak, ən namuslu adamıdı: şair-publisist Mahmud Qacar! Birindən soruşurlar ki, dostunu göstər, sənin kim olduğunu deyim. Oqtay müəllimin də dostu Mahmud Qacar kimi təmiz və namuslu adamlardı. Ona görə də Oqtay Ərgünəşi tək doğmaları deyil, Füzulinin bütün ziyalıları çox istəyirlər.

### O, dövlətə, dövlətçiliyə çox sadiq bir ziyalıdır

***Ulu Öndər Heydər Əliyev haqqında çox unikal bir kitab çap elətdirib. Düzdür, Oqtay müəllimin çoxlu sayda kitabları çap olunub. Mən onların adını sayıb oxucuları yormaq istəmirəm. Amma onların bir neçəsini yenə xatırlayıram: "Seyid Əşrəf müqəddəsliyi", "Əbədiyyətə qovuşan Koroğlu", "Zakir Zeynalov fenomeni", "Ətirli keçən zəhmət illəri", "Boş qalan papaqlar", "Təzadlar"... Bütün bunlarla yanaşı, Amerikada çap olunmuş kitabı.***

Deməli, Oqtay Ərgünəş tək Azərbaycan oxucusuna tanış deyil. Həm də bəşəri mövzuda yazılar qələmə aldığına görə, onu uzaq Amerikada da tanıyanlar var.

Amma onu hamıdan yaxşı Mahmud Qacar, Əbülfət Mədətoğlu, mən və digər yazarlar tanıyırıq. Tanıyırıq ki, Oqtay müəllim bir tikəsini beş-altı yerə bölən adamdı... tanıyırıq ki, Oqtay müəllim bu dünyaya kişi kimi gəlib kişi kimi də ömür yaşayır... tanıyırıq ki, o heç kimin paxıllığını xainliyini çəkməyib və çəkmir...

**Elə ona görə də yaşından həddindən artıq gənc və çevik görünür. Onu gənc və çevik saxlayan böyük ürəyi, təmiz qəlbi və yaşadığı arxada qalan illərdi. O illərin bütün cizgiləri bir nura çevrilib Oqtay Ərgünəşin çöhrəsinə hopub. Kim nə deyir desin, nəsli, kökü, keçmişi olan adamlar heç kəsin qəlbini qırmaz və heç kəsin də halal haqqına girməz! Kişi kimi yaşayarlar və kişi kimi də elin-obanın arasına çıxarlar...**

**Faiq QİSMƏTOĞLU**



Eminquey

# ÜST-dən ÜST-dən insanlıq, altdan-altdan...

***Bir ildən çoxdur ki, insanları, daha doğrusu insanlığı qorumaq adına ÜST-ün dediklərini üstün tutaraq dünya ölkələri hərəkət edir. Qadağalar, insanları oksigendən məhrum etmək, hərəkətlərini məhdudlaşdırmaq, boynuna zəncir bağlamaq. Başdan-başa sərhədlərdən ibarət, o sərhədlər ki, qurbanlar hesabına müəyyənləşdirilib, eləcə də qurbanların hesabına pandemiya adı altında insanlar arası sərhədlər müəyyənləşdirilir. Hansısa ölkədə 2 metr, hansındasa 3 metr. Bir sözlə, həm dünyanın, həm də insanlığın sərhədləri dəyişdirilir. Nə zamana kimi davam edəcəyi naməlum olan bu proses sanki dünyada baş verən bütün fəlakətlərin qarşısına keçib bizə insanlıq dərsi verir. Avropa müəllimin ”xoşbəxt ölkələr”inə baxıb həsəd aparmaya bilmirik. Ömrümüzü dünyaya çıxmağa, ”xoşbəxt ölkələr”in xoşbəxt vətəndaşları olmağa hədəfləmişik. Bəs yaxşı, bizə insanlıq dərsi keçən,***



***meydan oxuyan Avropa və digərləri özləri insanlığa neçə ağac yaxındır?***

***Suriyada dəvə oynadan İŞİD-çilərin xalqa etmədiyi zülm qalmadı. Gözümüzün önündə baş kəsdilər, videolarına baxdıq, psixologiyamız hiss etmədən pozuldu. Bu terrorçuların aparıb düşərgələrə tulladığı insanlar alver qurbanı oldu. Onları xilas etmək üçün külli miqdarda pul xərcləniIdi. Hamısı da ömür boyu özlərilə daşıyacaqları travmalar qazandılar. İstər fiziki, istərsə də mənəvi. İŞİD getdi, yerinə başqa terror təşkilatı gəldi. İnsan alveri bitmədi, yenə də kimin pulu var, vətəndaşını xilas edir, kimin ki yoxdur, taleyi məlum...***

***ABŞ-dan dəstək alan yeni terror təşkilatının mərkəzi Suriyanın Haseki şəhərindəki Al-Hol düşərgəsidir. 62 min adamın saxlanıldığı bu düşərgəyə giriş də, çıxış da qadağadır. Həbsxanadan fərqi yoxdur. Orada saxlanılanların 80 faizi qadın və uşaqlardır. 45 faizi iraqlı, 40 faizi suriyalılar, qalanını isə Asiya, Avropa və Afrikadan gələnlər təşkil edir. Kim ki döyüşməyə gəlmişdi, ailəsini, arvadını, uşağını da gətirmişdi.***

***İŞİD-in tərəfində 2 min suriyalı, 1600 iraqlı, 1700 qarışıq millətlər, 2500 milliyəti bilinməyən əcnəbi terrorist var. Ümumilikdə 11 min adam. Araşdırmalara görə, 57 ölkənin vətəndaşı var İŞİD-in cərgələrində. Asiya, Avropa və Afrika üstünlük təşkil edir.***

***Düşərgədə hərc-mərclik yaranıb.***

***Bu ilin ilk iki ayında 20-dən çox, keçən il isə 33 cinayət hadisəsi baş verib. Yəni bu düşərgədə tutulan, yaşayan heç kimin təhlükəsizliyi qorunmur. BMT-nin statistikasına görə 2019-cu ildə 500 gözətçi var idisə, bu say artıq 400-dən də aşağı düşüb. Pandemiya deyib bar-bar bağırılsa da, bu düşərgədə virus gözardı edilir.***

***İŞİD terror hücumlarını sürətləndirdiyi tarixlərdə əlindəki əsirləri pul müqabilində buraxırdı. İndi Al-Hol düşərgəsindən adam çıxartmağın qiyməti 3-4 min dollar arasında dəyişir. Əgər alveri edən diribaşdırsa, ”ailə endirimi” filan da edirlər.***

***Düşərgədə tutulan vətəndaşlarının canı başda Avropa Birliyi olmaqla, digər Qərb ölkələrinin də veclərinə deyil. Onları xilas etmək uğrunda güc, pul sərf etmirlər.***

***Əgər kimsə öz ölkəsində məhkəməyə müraciət etsə, desə ki, mən o düşərgədə saxlanılan filan adamın qohumuyam və bunu təsdiq etsə, terror təşkilatı ilə əlaqə qurulur, yalnız uşaqlar xilas edilir. Qalanlarının isə canı cəhənnəmə.***

***Bəzi Qərb ölkələri düşərgədə olan insanlarını vətəndaşlıqdan çıxarmaqla çıxış yolu tapır.***

***Təsadüfi deyil ki, İsveç Xarici İşlər naziri BMT-nin tənqidinə, qınağına ”İŞİD-ə qoşulanları geri qaytarmaq kimi öhdəliyimiz yoxdur” deyə cavab vermişdi.***

***Təsəvvür edin, terrorun qucağında dünyaya gələn, gözünü açan kimi aclıqdan əziyyət çəkən, atışma səsi eşidən, bomba partlayışları ilə qidalanan uşaqlar gələcəkdə potensial terrorçuya çevrilə bilər.***

***Dünya isə həmişəki kimi üç meymun siyasətini davam etdirir. Və bu gün öz vətəndaşlarını terrorun qucağında kimsəsiz qoyan həmin ölkələr bizə insanlıq dərsi keçir və insanlığı xilas etmək uğrunda tapşırıqlar verir.***

***ÜST-dən ÜST-dən insanlığın xilaskarı görünənlər, altdan-altdan insanların məhvinə göz yumur, maska taxır...***

## Türkiyə ordusunun PKK ovu davam edir



**Türkiyə ordusu 3 PKK terrorçusunu zərərsizləşdirib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb. ”PKK/YPG terror təşkilatları və İŞİD-lə mübarizəmizi qətiyyətlə davam etdiririk. ”Zeytun budağı” hərəkatı bölgəsində 1 İŞİD və ”Sülh çeşməsi” əməliyyat zonasında 1 PKK/YPG terrorçusu zərərsizləşdirilib”, - açıqlamada qeyd edilib.

**MEHRİBAN**

# İŞĞAL

## (mənşəyi və genelogiyası)



Nizaməddin Şəmsizadə
Professor, Dövlət Mükafatı Laureatı

**Hələ 60-cı illərdə orta məktəbdə oxuyarkən Azərbaycanın ilk xalq şairi Səməd Vurğunun "Vaqif" dramında Vaqif rolunda çıxış etmişdim. Ona görə də əsəri əzbər bilirdim. O vaxtdan bəri bəzi misralar yaddaşımda qalıb:**

*Bir yandan Türkiyə, bir yandan İran*
*Burdan da Rusiya göndərir fərman*
*Pozmaq istəyirlər cah-calalımı.*

Bu misralar 60 ildir ki, zaman-zaman məni düşündürür. Böyük şairin bu misraları indi - Qarabağ uğrunda Vətən müharibəsi getdiyi, qürur və kədər arasında çırpındığım günlərdə mənə aydın oldu: Azərbaycan üç imperiyanın əhatəsindədir. Biri dost və qardaş, ikisi bizim varlığımızı istəməyən, Azərbaycanı Araz adlanan, qılınc ilə ikiyə bölən! Bu ədalətsiz bölgü - tarixi cinayət Azərbaycan xalqının iştirakı olmadan həyata keçirilmiş İŞĞAL aktı İran və Rusiya arasında bağlanan, "Kürəkçay" (1805), "Gülüstan" (1813) və "Türkmənçay" (1828) işğal aktları ilə, özü də hər üçü Azərbaycan torpağında həyata keçirilmişdir. "Kürəkçay" İşğal aktı Knyaz Sisyanov və İbrahim xan, "Gülüstan" Nikolay Ptişşev və Mirzə Əbdülhəsən xan, "Türkmənçay" General İvan Paskeviç və Şahzadə Abbas Mirzə tərəfindən imzalanmışdır.

### Fəqət, işğal XIX əsrdən başlanmır

***Onun mənşəyi və genelogiyası daha qədimdir. O, rusların Azərbaycan torpağına ayaq basdığı dövrdən - IX əsrdən başlanır. Əvvəlcə Don və Volqa (İtil) çayları vasitəsi ilə kiçik gəmilərdə ticarət məqsədi ilə gələn ruslar bu ölkənin gözəlliyinə vurulub, ona sahib çıxmaq kimi işğalçılıq niyyətinə düşürlər: "X əsrdə rusların bu ərazilərə gəlişinin məqsəd və mahiyyəti tamamilə dəyişdi. Əvvəllər 15-20 gəmidən ibarət kiçik dəstələrlə ticarət məqsədi ilə gəldikləri halda, indi yüzlərlə gəmi ilə səfərə çıxanların niyyəti qarətçilik və işğalçılıq idi.***

914-cü ildə 500 gəminin hər birində 100 nəfər olmaqla Azərbaycanın Xəzər sahillərinə 50 mindən artıq rus gəldi... 938-ci ildə ruslar 38 gəmidə Bakı sahillərinə gəldi - Şirvanşah Məniçöhr İbn Yəzid onlarla vuruşdu, məğlub oldu. ("Azərbaycan tarixi" Bakı, Azərnəşr, 1994, səh. 280) Kür çayı vasitəsi ilə gedib, gəmiləri Mübarəki adlı kənddə saxlayıb, 944-cü ilin avqustun 24 də onlar Bərdəni mühasirəyə alırlar (281). Azərbaycanda işğalın mənşəyi bu vaxtdan başlanır və 1100 davam edir...

### Erkən orta əsrlərdə

Azərbaycanda ən böyük İşğal Ərəb işğalı - dini işğaldır. İslam dini meydana gələndən az sonra - 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə ərəblər Azərbaycana basqın edir və şiddətli müqavimətə rast gəlir. Bu artıq ərazi işğalı, yaxud siyasi işğal deyildi. Mənəvi işğal - yadın yaddaş üzərində hökmranlığı başlanması idi. "VII əsrin 60-cı illərində xilafət hakimiyyəti daxilində bir sıra hadisələr baş verdi. 661 ci ildə Xəlifə Əli İbn Abutalıb Kufə şəhərində müxalifətçi... Əbdürrəhman İbn Mülqəm tərəfindən öldürüldü. Xilafətdə hakimiyyət Əməvilər sülaləsinin (661-750) əlinə keçdi.

***Bu sülalənin nümayəndələri Müaviyənin (661-680) və oğlu I Yəzidin dövründə ərəblərin işğalları daha da şiddətləndi. Əmin-amanlıq pozuldu" (səh.243). Elə buna görə də əməvilərə qarşı narazılıq artdı, bu 750-ci ildə Abbasilər sülaləsinin (750-1258) hakimiyyətə gəlməsi ilə nəticələndi. Olduqca qəddar olan V Abbasi xəlifəsi Harun ər-Rəşidin zamanında (786-809) işğal daha da gücləndi. Ərəb işğalına qarşı Xürrəmi ideologiyasının və qəhrəman Babəkin mübarizəsi Azərbaycanın işğala qarşı azadlığı uğrunda müharibəsinin ən şərəfli tarixi idi. "Xürrəmilər tarixdə ilk dəfə olaraq, yadelli işğalçılara qarşı mübarizədə azadlıq rəmzi kimi qırmızı bayraq qaldırmış və qırmızı paltar geymişlər" (səh.258). Babəkin Azərbaycanın azadlığı uğrunda mübarizəsi xalqımızın əbədi düşməni olan erməni Səhl Smbatın xəyanəti nəticəsində məğlub oldu.***

1220-ci ildə Monqollar ilk dəfə Azərbaycana daxil olanda, ruslara yer olmadı. 1225- ci ildə Azərbaycan Atabəylər (Eldənizlər) dövləti süqut etdi. 1234-cü ildə Monqollar ikinci dəfə Azərbaycana soxuldu, 1239-ildə Dərbənd şəhərinin zəbti ilə bütün Azərbaycan Monqollar tərəfindən istila olundu ("Azərbaycan tarixi" səh 322).

***Hülakü xan (1258-1265) 1256-cı ildə Azərbaycanı, 1258-ci ildə Bağdadı istila etdi və 500 ildən artıq hökm sürən Abbasilər süquta uğradı. Beləliklə, yeni zəbt edilmiş ərazilər hesabına V Monqol Ulusu - Hülakülər (Elxanilər) dövləti yarandı. Azərbaycan dövlətin siyasi - insibati ərazisinə çevrildi. Təbriz, Abaqa xanın zamanından başlayaraq, dövlətin paytaxtı oldu. ("Azərbaycan tarixi", səh.325). Beləliklə, işğalçılar dəyişdi, işğal olunan - Azərbaycan dəyişmədi.***

1385-ci ildə Toxtamış gəldi, işğal etdi, çoxlu qənimət və iki yüz min əsir apararaq, Qarabağdan qızıl Qızıl Ordaya getdi.

### 1387-1397-ci illər arasında

Təbriz şəhəri yerli hakimlər tərəfindən 14 dəfə hücuma məruz qaldı, 14 dəfə bir feodalın əlindən digərinə keçdi, nəticəsi bu oldu ki, 1392-ci ildə Əmir Teymur gəlib Təbrizi işğal etdi. Bu proses Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin vaxtına qədər davam etdi. Bu zamandan etibarən, işğalın forma və məzmununu dəyişdi.

Bir fakta nəzər salaq: "1463-cü il dekabrın 2-də Venesiya respublikasının senatında Osmanlı Türkiyəsinə qarşı Ağqoyunlu dövləti və Qaraqoyunlu bəyliyi ilə ittifaqa girmək haqqında xüsusi məsələ müzakirə edildi." (375).

***Həmin proses Səfəvilər dövlətinin təşəkkülünə qədər davam etdi. Şirvanşahlar, Atabəylər və Səfəvilər Azərbaycan tarixinin ən şərəfli dövrü, dövlətçilik zirvələri idi. Səfəvilər dövləti (1501-1736) də Rusiyasız keçinə bilmir. 1553-cü ildə Səfəvi Səfiri Hüseyn Türkiyəyə qarşı müqavilə bağlamaq niyyəti ilə Moskvaya getmişdi.***

1524-cü il, mayın 23-də, 37 yaşında Şah İsmayıl Xətai qəflətən vəfatından sonra oğlu I Təhmasib taxta çıxır (1524-1576) ölkəni idarə etməyə başlayır. I Təhmasibin vəfatından sonra oğlanları Məhəmməd, İsmayıl və Heydər arasında hakimiyyət üstündə mübarizə gedir. II İsmayıl (1576-77) hakimiyyətə sahib olur. Bir il keçməmiş saray çevrilişi nəticəsində İsmayıl qətlə yetirilir.

1578-ci ildə Şah İsmayılın nəslindən olan Məhəmməd Mirzə - Xudabəndə Qəzvinə gəlir və taxta oturur (1578-87), (bax. Azərbaycan Tarixi səh.429). Xudabəndənin oğlu Şah Abbas varlı bir fars tacirinin malikanəsində fars və erməni uşaqları arasında böyüyür, fars dayələrindən təhsil alır "fars tacirinin qızlarına dərs deyən erməni Tatevos Manukçi evə gözəl erməni qızları gətirir, xüsusilə qızı Marqonun gənc Abbasla görüşlərini təşkil edir" (Elcanlı S. "Mənim mövqeyim", 1999, səh.381). 17 yaşına çatanda Abbas təhqir və hədələrlə atası Xudabəndəni xəstələndirir, Xorasan hakimlərinin köməyi ilə Səfəvi dövlətinin şahlığını əlindən alır.

### Hakimiyyətinin ilk aylarından

***imzaladığı bir neçə fərmanla Azərbaycan Səfəvi dövlətini İran dövləti, özünü İran şahı, dövlətin dilini fars dili elan edir, Zəncan, Xoy, Maku, Rəşt şəhərlərinə erməniləri köçürür, sarayda doqquz erməni kənizi saxlayır gecə gündüz onlarla əylənir (İsgəndər Münşi).***

1588-ci ildə Işah Abbas Rusiya səfirini sarayında qəbul edərkən ona demişdi: "Osmanlılara qarşı müharibədə əgər çar onu dəstəkləyəcəksə, Bakını və Dərbəndi ona verəcək" (Raxmani "Azerbaydjan v konse XVI-XVII veke", Baku, 1981, st.98).

Beləliklə, bu işğal silahla yox, fars və erməni siyasəti ilə icra olunur. Icraçı "sapı özümüzdən olan balta" - nağıllarımızda nəyə görəsə "cənnətməkan" adlanan əslində isə cəhənnəmməkan olan Şah Abbas idi. Səfəvi imperiyası Rusiya ilə həmsərhəd olan yeganə dövlət idi. Qüdrətli Səfəvi imperiyasının süqutundan sonra Azərbaycanda yaranan, faktiki olaraq Azərbaycanı parçalayan kiçik dövlətlər ilan gülləyə doğru gedən kimi Rusiyaya doğru gedirdilər. Stepan Razinin üsyanı ilə (1650-1671) rusların XVIII əsrə - xanlıqlar dövrünə qədərki, işğalçılıq siyasəti başa çatır. Bu siyasət ticarət adı altında aparılırdı.

Milli qeyrət şairimiz Mirzə Ələkbər Sabir, 1909-cu ildə ürək ağrısı ilə yazırdı.

*Neyləyim ey vay! Bu urus başlılar*
*bilməyirəm hardan aşıb-daşdılar!?*
*Ölkədə gündən-günə çoxlaşdılar.*
*Hər əmələ, hər işə culqaşdılar.*
*Qoymayın, ay köhnələr, ay yaşıdlar!*
*Heyvərələr hər yerə dırmaşdılar.*

*(Hohhopnamə, s.172)*

Rusların Azərbaycanda (eləcə də Yaxın Şərqdə, xüsusilə türk - islam dünyasında!) İşğalçılıq sıyasəti vahid (və əbədi!) proqram - I Pyotrun "Vəsiyyətnamə"si əsasında aparılmağa başladı. 1725-ci ildə yazılıb, 1738 -ci ildə elan edilmiş bu "vəsiyyətnamə" Rusiyanı İmperiya elan edən, onun işğalçılıq siyasətinin prioritetlərini müəyyənləşdirən sənəd idi. "Vəsiyyətnamə"nin bəzi müddəalarına nəzər salaq:

**- Rus dövləti həmişə müharibə müvazinəti hazırlamalıdır və çalışmalıdır ki, bu hazırlıq Rusiyanın tərəqqisinə səbəb olsun;**

**- Rus qızlarını türk oğlanlarına verməli;**

**- Rus sərhədlərini genişləndirmək övladlarının vəzifəsidir;**

**- Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya Avropa xəzinələrinin açarı olan İstanbul olsun, tez və yerində çalışıb İstanbulun qərb torpaqlarına sahib olmaq lazımdır.**

Əlbəttə İstanbula sahib olan şah, dünyada ilahi şah olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Türkiyə ilə İran arasında fitnə-fəsad tötətmək, davadalaş yaratmaq lazımdır. Bu işdə sünni və şiə məsələləri arasındakı ixtilaflar böyük kəskin silah və basılmaz ordudur. Rusiyanın nüfuzunu Asiyada qaldırmaq üçün sünni və şiə ixtilafları yaxşı bir vasitədir. Türkiyə ilə İran dövləti arasındakı müvazinəti elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsin.

- İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, Xristian dini əqidəsini və mədəniyyətini orada ciddi təbliğ etmək, yaymaq lazımdır.

**- Türkiyə dövləti məhv olmadan İranın canını almaq məsləhət deyil.**

**- Gürcüstan ölkəsi, Qafqaz xətti İranın şah damarıdır...Ona görə də siz vaxtı yubatmadan Qazqazı zəbt və işğal edib, İranın daxili hakimlərini özünüz xidmət və müti edəsiniz;**

**- Hindistanın açarı Türkiyənin paytaxtıdır;**

**- Türkiyəni Avropadan ayırmalı;**

**- İşin axırında sair ölkələrin hamısını öz məmləkətimizə ilhaq edib, bütün dünyaya sahib olarsınız (bax: "Dirilik" jurnalı, 1916, səh.42).**

Rus dövləti 180 ildir (bu gün də!) bu işğal və ilhaq sənədi əsasında fəaliyyət göstərir. Xalq şairi Nəriman Həsənzadənin "Xarıbülbül" poemasında belə deyilir:

*Pyotrun vəsiyyəti*
*hələ indi üzə çıxır*
*Yollar gedib İstanbula*
*Ordan da Təbrizə çıxır*
*Şah vermişdi*
*Naxçıvanı, Qarabağı*
*Rusun qəsdi*
*Təbrizədi.*

Vicdanlı rus alimi əsl ziyalı yazır:

"Stremlenie izuçitğ svoix vraqov probujdalo russkoe provitelğstvo spesialğno sobiraetğ svedenie o turkax i krımsix tatarax, posılatğ dlə etoy üeley k nim svoix posolstva, znakomitsə s literaturı evropeyskoy stran, posvəhennoy istorii qosudarstvennomu ustroystvu i reliqii turk i tatar" (Simernov N.A "Oçerki istorii izuçeniə İslama v SSSR", 1954, st.17).

Deməli, ruslar ərazisini işğal etdiyi xalqların yaddaşını da işğal edir. Mədəni sərvətlərini də istila edirdilər. Bu daha amansız işğal idi. Ərazini qaytarmaq olar, MƏNƏVİ İTKİLƏRİ QAYTARMAQ ÇƏTİNDİR.

Bu I Pyotrun irəli sürdüyü və rus dövləti tərəfindən illərlə həyata keçirilən "Parçala və hökm sür!" işğal prinsipinə sərfəli idi.

Milli istiqlal şairi Məmməd Araz XX əsrdə bu faciənin poetikasını yaratdı:

*Ey daşlaşan, torpaqlaşan*
*ulu babam!*
*Qədim tarix dərəsindən*
*səs ver mənim səsimə sən*
*Sənə gələn, səndən ötən*
*nəydi belə? -*
*səndən ötüb qardaşına dəydi belə*
*O məstliyin*
*baş fırladan*
*havasından qopan daşdı.*
*Azərbaycan torpağından*
*Araz boyda şırım açdı.*
*Məndən ötdü...*
*Bunu dedi Şəki xanı*
*Bunu dedi Bakı xanı*
*Bunu dedii İbrahim xan,*
*Fətəli xan, Kəlbəli xan*
*Qəza ötsün məndən dedi*
*Ötən kimi "mən-mən" dedi*
*Onlar "mən-mən" deyən yerdə*
*Sən olmadın Azərbaycan!*
*Səndən, məndən ötən zərbə*
*Vətən, Vətən sənə dəydi!*

*(Məmməd Araz, Seçilmiş əsərləri, B, 2003, S.15-16)*

Etibarlı mənbələrdən birində oxuyuruq: "Fətəli xan II Yekaterinadan Quba xanlığını himayəsinə götürməyi bir daha (!) xahiş etdi" Xudat yaxınlığında - Gavduşan çölündəki döyüşdə (1774) məğlub olan "Fətəli xan rusiyaya müraciət edərək kömək istədi. 1775-ci ilin martında general U.F.-de Medemin başçılıq etdiyi rus qoşunları Dərbəndə yaxınlaşır (ASE- III cild, səh.253-254). Bundan əvvəl Fətəli xan Azərbaycan xanlarını vahid dövlət kimi birləşdirmək uğrunda mübarizə aparırdı, fəqət bu iki səbəbə görə baş tutmadı:

**1.** Xanlar öz hakimiyyətlərini itirmək istəmir. əksinə bu niyyətdə olan Fətəli xana qarşı döyüşə başlayırlar;

**2.** Belə bir təşəbbüs ayrı-ayrı xanları idarə edən rus siyasətinə zidd idi. Bir tarixi fakta nəzər salaq: "1726-cı ilin sonu, 1727-ci ilin əvvəllərində (Bu zaman I Pyotrun sənədi vəsiyyətnaməsi hazır idi) Quba xanlığı rusiya himayədarlığına qəbul edilir... 1726-cı ilin oktyabr ayının 20-də Dərbənddə qubalı Hüseynəli bəyRusiya himayəsini qəbul etdiyini bildirdi və sədaqət andı içdi" (Şahin Fazil "Quba tarixi", 2010, səh 96). Əgər Fətəli xanın nəcib təşəbbüsü baş tutsa idi, Azərbaycan Amerika birləşmiş Ştatları formatında vahid bir mərkəzdən idarə olunan "Azərbaycan Xanlıqlar dövləti" səfəvilərdən sonra mərkəzləşmiş dövlət ola bilərdi. "ətəli xanın 1769-cu ildə rus konsulluğunun məmuru Matveyev ilə söhbəti zamanı qeyd olunmuşdur ki, onun atası Hüseynəli xan bu vəzifəyə I Pyotr tərəfindən təyin və təsdiq edilmişdir (bax: Abdullayev Q. "Azerbaydjan v XVIII veke i zaimoatnoşenie s Rossii", 1965, səh. 89).

***Rusiyanın köməyi ilə xan təyin olunmuş Hüseynəli xanın oğlu bu tarixi missiyanı yerinə yetirə bilməzdi. Ruslarla görüşdən qayıdarkən yolda verilən zəhər ona heç Qubaya çatmağa imkan verməd, Bakı yaxınlığında vəfat etdi, Bibiheybətdə dəfn olundu. Baş daşı indi də Azərbaycan tarixi muzeyində saxlanılır.***

İşğala bəzən biz özümüz getmişik, əlbəttə həmişə imperiyaların gizli təzyiqi və təkidi ilə!

Gələk XIX əsrə, podpolkovnik Abasqulu ağa Bakıxanov Tiflisə çar canişinin qərərgahına təzə gələn tərcüməçi prapovşik Mirzə Fətəli Axundzadəyə demişdir: "Mənim bu günüm, sənin gələcəyindir. Bunu yadında saxla" onda A.Bakıxanov Şərqə, M.F.Axundzadə isə Şimala gedirdi. A.Bakıxanov bəlkə də tövbə etmək üçün Məkkəyə gedirdi. Məkkə ziyarətindən qayıdanda Vadeyi - Fatimə adlanan yerdə o 1846-cı ildə 57 yaşında vəfat edir. Fəqət ruslar buna heç bir reaksiya vermədilər...

A.Bakıxanov bədnam "Türkmənçay" müqaviləsi bağlananda tərcüməçi kimi iştirak etmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın Rusiya və İran tərəfindən işğalı rəsmiləşdirən bu müqaviləyə - işğala qarşı ilk etiraz edən qubalılar olmuşdur.

### 1837-ci ildə Hacı Məhəmməd və Yarəlinin başçılığı ilə

***12 min Quba kəndlisi üsyan etdi. Lkin üsyan kortəbii kəndli üsyanı idi və həmişə olduğu kimi xəyanət nəticəsində məğlub oldu: 15 fəal üsyançı Quba meydanında asılaraq, edam edildi. Hacı Məhəmməd Sibirə Katorqaya göndərildi. Yarəli qaçaraq gizləndi və sonra gizli fəaliyyətini davam etdirdi (ətraflı bax: Sumbatzade A. "Kubinskoe vostanie 1837", 1961; Mustafazadə T. "Quba xanlığı", 2005; Şahin Fazil "Quba tarixi", 2016 ).***

M.F.Axundzadənin taleyi haqqında isə onun qədirsiz ölümündən sonra arvadı Tubu xanıma 1879-cu ildə çar canişin dəftərxanasına - M.Fətəlinin inanıb xidmət etdiyi rəislərinə göndərdiyi məktubdan öyrənirik: "Halbuki, qocalığında o, daim özünün uzunmüddətli, yarım əsrə yaxın olan qulluğuna güvənib, mənə toxtax verirdi ki, ölüm-itim olarsa, onun qayğıkeş rəisləri xidmətlərini layiqincə qiymətləndirəcək, oğlunun təhsilinin başa vurmasına imkan yaradacaqlar. Lakin belə bir mərhəmət və mənim ərimin sağlığında ona, nə də onun vəfatından sonra mənə göstərilmişdir". Bir qədər keçəcək - Bir üzüm qaradır, bir üzün sarı \\ Fələk də götürməz bu əzabları (Ə.Qəmküsar) - deyə poeziyamız fəryad edəcək. Aldanış, inamdan sui istifadə yolu ilə, həm mənəvi, həm də siyasi-inzibati İşğal, XX əsrdə də davam edir. N.Nərimanovun V.İ.Leninə məktubunda məktubunda oxuyuruq: "Mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir... Ermənistana, daşnaqlara vermək, düzəldilməsi mümkün olmayan pis nəticələr verə biləcək səhvdir.

***Əziz Vladimir İliç Lenin məgər "Müstəqil Azərbaycan" Sizin dilinizdən çıxmamışdırmı? Axı məhz buna əsaslanaraq, biz Müsavatın qurduğu fitnəkarlığı məhv edə bildik. Üç respublikadan birinci olaraq sovet Rusiyasının qoynuna atılmış (!) Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir" (Nərimanov N. Seçilmiş əsərləri, Bakı, 2004, səh 466). Lakin, "oyanan Şərqin simvolu" N.Nərimanov "Zəngəzur və Naxçıvan uyezdləri sovet Ermənistanının bölünməz əraziləridir" kimi bəyanatı imzalayır...***

Azərbaycanı İşğal etməyə, Azərbaycan Demokrativ Cumhuriyyətini devirməyə gələn "XI Qızıl Ordu"nun komandanı Mixayil Yefremova üzərində xəyanət cümləsi həkk edilmiş "...za doblestnoe vzyatie qor. Baku i Gandja" sözləri yazılmış qılıncı xalq adından şəxsi imza ilə bağışlayanlar hələ "Əziz Vladimir İliç tərəfindən aldadıldıqlarını bilmirdilər".

### Bolşevik - daşnak hakimiyyətinə satılmış

Əliheydər Qarayevə 1920-ci ildə M.Ə.Rəsulzadə demişdi: "Səni bolşevik qardaşların divara söykəyib güllələyəndə məni yada salarsan". Çox çəkmədi, tarix bu həqiqəti 1937 də təsdiq etdi. Bu da mənəvi işğala təməl olan növbəti aldanış idi "Bu gün fərman verən, sabah can verir" di.(S.Vurğun).

**1905-07, 1918-20, 1947-53, 1988! - bunlar Azərbaycanların öz dədə-baba torpaqlarında zorla deportasiya olunduğu tarixlərdi. Gəlmə ermənilər rusların köməyi ilə İrəvanı, Göyçəni İşğal edib özlərinə Ermənistan adlı dövlət yaratdılar. Bu proses 1828-ci il "Türkmənçay" işğal aktından sonra ermənilərin məqsədli şəkildə, kütləvi surətdə İrandan və Türkiyə ərazisindən köçürülməsi sayəsində baş verdi. Qarabağ problemi də elə bu zaman yarandı. SSRİ-nin axırıncı rəhbəri M.Qorboçovun yardımı ilə bir milyon Azərbaycanlı öz vətənində qaçqın düşdü, torpaqlarımızın iyirmi faizi işğal olundu. 366-cı rus alayının iştirakı ilə Xocalıda amansız soyqırım həyata keçirildi, şəhər əhalisi ilə birlikdə yer üzündən silindi. 30 il bu İşğala dözdük, beynəlxalq ictimaiyyətə, özünü demokrat adlandıran, insan hüquqlarını müdafiəçisi hesab edən dövlətlərə və təşkilatlara səbrlə qulaq asdıq, beynəlxalq hüquqa riayət etdik. Fəqət nə bu problemi çözməli olan Minsk qurupu, nə də sair təşkilatlar Azərbaycan xalqının qanuni tələblərinə məhəl qoymadı. Nəhayət 27 sentyabr, 2020-ci ildə, haqq divanı yetişdi, millətimiz və dövlətimiz özünə, ordusuna və baş komandanına güvəndi, tarix işğala son qoydu!**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Daşaltı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***Məmmədov Şaiq Şükür oğlu 26.12.1999-cu ildə Gəncə şəhərində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 09.11.2020-ci ildə Daşaltı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

*XTQ əsgəri Məmmədov Araz*



***XTQ əsgər Məmmədov Araz Adil oğlu 02.05.1994-cü ildə Gəncə şəhərində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 04.11.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

*Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***Əsgər Muradov Elcan Eldəniz oğlu 03.07.2001-ci ildə Gəncə şəhərində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 01.10.2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

*MAXE Dünyamalıyev Elşən*



***MAXE Dünyamalıyev Elşən Mübariz oğlu 06.04.1997-ci ildə Gəncədə anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 01.10.2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

*Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***Abbasov Nurhan Ərəstun oğlu 17.06.1991-ci ildə Gəncə şəhərində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən müharibəyə cəlb olunan Nurhan igidlik və mərdlik göstərərək 11.11.2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

*Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***XTQ MAXE Əsgərov Musa Rövşən oğlu 16.06.2000-ci ildə Gəncə şəhəri, Nizami rayonu, Gülüstan qəsəbəsində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 27.10.2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

*MAXE İsgəndərov Bəhruz*



***MAXE İsgəndərov Bəhruz Abbas oğlu 29.11.1986-cı ildə Gəncə şəhərində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 29.10.2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidimiz ailəli idi. Mədinə adlı qızı Vətənə əmanət qalıb.***

*Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***MAXE Əliyev Mərhab Şikar oğlu 09.03.1979-cu ildə Gəncədə anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 16.10.2020-ci ildə Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.Şəhidimiz ailəli idi. Sübhan və Səma adlı övladları Vətənə əmanət qalıb.***

# ÖLÜM SEVİNMƏSİN QOY...



**_Kəmalə Rəhimli_**

***Həyat gəldi-gedər düşünsən bir az,***
***Təmiz ad, təmiz söz qalandı yadda.***
***Yaxşılıq qiyməti bilinməyən zər,***
***Bütün dünya yaşar bir təmiz adda.***

Ölüm haqdır. Hər kəs tez və ya gec Tanrının ona bəxş etdiyi ömür payını yaşayıb, sonda əbədi gözlərini yumacaq, istəsə də, istəməsə də. Həyatda yaşadıqca tanımadığımız insanlarla üz-üzə gəlirik. İçərilərində elələri olur ki, ona daha da yaxın olmaq ehtiyacı keçir qəlbindən. Nəsə səni ona bağlayır, doğmalaşa bilirsən. Doğmalıq qan qohumluğu ilə deyil, ruhun bağlılığı ilə təcəssüm olunur. Ruhən sənə yaxın olan insanla rahat olursan. Danışmağa söz tapıb bölüşə bilirsən. Həyatımda beləleri çox az olub. Onlardan biri də hər zaman təmiz adı, təmiz sözü ilə yaşayan, əlindən yaxşılıqdan başqa bir şey gəlməyən Aidə xanım idi. Bu günlərdə onun dünyasını dəyişməsi xəbərini eşitdim. Hələ də inana bilmirəm buna.

### Azərbaycan Dillər Universitetinin

***Azərbaycan Dilçiliyi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə dokroru, dosent Aidə Lənkəran qızı İbrahimova 1957-ci il sentyabrın 13-də Ağdamın Seyidli kəndində anadan olmuşdur. O, gözəl Ağdamın təmiz havasını uda-uda, Qarabağın dağından, daşından süzülən, insanların müqəddəs saydığı Kötəl çayının saf sularından içə-içə, anası Qaragöz xanımın laylalarını dinləyə-dinləyə böyüyüb boya-başa çatmışdır. Seyid Mirbaba ağanın nəvəsi idi.***

Aidə xanım 1963-cü ildə Seyidli kənd orta məktəbinə getmiş, hələ uşaq yaşlarından publisistika və bədii yaradıcılığa həvəs göstərmişdir. O, 1973-cü ildə Ağdam rayon 8 saylı orta məktəbi əla qiymətlərlə bitirib, həmin ildə də Azərbaycan Pedaqoji Universitetinin (APU-nun) filologiya fakültəsinə daxil olmuşdur. Aidə xanım ikinci kursda oxuyarkən "Dağ tərənələri" adlı ilk şeirlər kitabı çapdan çıxıb. Universiteti fərqlənmə diplomu ilə başa vurduqdan sonra doğma kəndinə qayıdıb. 1977-1992-ci illər ərzində oxuduğu məktəbdə dil-ədəbiyyat məllimiəsi işləyib. Hər zaman şagirdlərinə ana nəvazişi, ana qayğısı göstərmiş, şagirdləri də onu anaları qədər sevmişdilər.

### "Müəllim ruhun tərbiyəçisidir" - deyiblər

Təsadüfi deyildir ki, Aidə müəllimənin dərs dediyi, vətənpərvər ruhda tərbiyə etdiyi şagirdlərin 120 nəfəri Birinci Qarabağ döyüşlərində qəhrəmancasına şəhid, 59 şagirdi isə müharibə əlili olub. A.İbrahimova vətənpərvər, torpağını, el-obasını canı, qanı ilə sevən təəssübkeş xanım idi. O, ailə üzvləri ilə birlikdə əlinə silah alıb mənfur düşmənlərdən torpaqlarımızı azad etmək üçün qızğın döyüşlərdə iştirak etmişdir. Qardaşları - Hidayət və Elşad müharibədə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmişlər.

***Aidə xanım döyüşdə şahidi olduqlarını, müharibənin ağrı-acılarını Vətənin qəhrəman oğullarına həsr etdiyi "Durnalar köç eylər" silsilə yazılarında qələmə almışdır.***

A.İbrahimova 1993-2001-ci ilədək Azərbaycan Dövlət Dillər Universitetinin Azərbaycan Dilçiliyi kafedrasında müəllim kimi fəaliyyət göstərmiş, şərəfli müəllim adını hər zaman uca tutmuşdur. Kollejtivin, tələbələrin sevimlisi idi. Azərbaycan dilçiliyinin inkişafında rolu olan dilçi alim Azərbaycan leksikoqrafiyasının inkişaf tarixinin tədqiqi ilə məşğul idi. "Azərbaycan leksikoqrafiyasının təşəkkülü", "Əliheydər Orucov" monoqrafiyalarının, türkiyəli tələbələr üçün yazdığı "Azərbaycan dili" dərsliyinin müəllifidir. 6 cildlik Azərbaycan Ensiklopedik lüğətini hazırlayıb. "Azərbaycan dialektologiyası" proqramının, bir sıra kitab və dərsliyin də müəllifidir. 1999-cu ildə "XX əsr Azərbaycan leksikoqrfiyasının (1930-1960-cı illər) inkişaf tarixi" adlı namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi alıb. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin, Müharibə və Əmək Veteranları Şurasının, Azərbaycan Qadınlar Cəmiyyətinin üzvü olub.



O, həm də gözəl, qayğıkeş ana, sevimli nənə idi. 6 nəvəsi var. Ömür-gün yoldaşı Ruslan müəllimlə Anar, Arslan, Leyla adlı övladlar tərbiyə edib, onlara ali təhsil vermişdir. Anar və Arslan Bakı Dövlət Universitetinin hüquq fakültəsində eyni kursda oxuyub, təhsillərini magistraturada davam etdirmişlər. Leyla isə Azərbaycan Dövlət Dillər Universitetində təhsil alıb, hazırda orada dərs deyir.

Oğlu Arslanın vaxtsız dünyasını dəyişməsi Aidə xanım üçün böyük itki olsa da, o, balaları qədər sevdiyi şagirdlərini, ilk şəhidlərimiz olan - Əlini, Bəxtiyarı və digər şəhidlərimizi, qardaşlarını itirəndə qəlb yanğısının, itkinin nə olduğunu bilmiş, hələ o vaxtdan ürəyini şama döndərmişdir.

### On ildən çoxdur ki,

***tanıyırdım Aidə xanımı. Haqqında mətbuat səhifələrində yazılar vermişdim. Dəfələrlə qonağı olmuşdum. Birlikdə tədbirlərdə də iştirak etmişdik. Tez-tez zəngləşərdik. Ağdamın işğaldan azad olunması xəbərini eşidəndə ağdamlı tanışlarımın içərisində ilk ağlıma gələn, bu xəbərin sevincini bölüşüb təbrik etmək istədiyim də o olmuşdur. Elə sevinirdi ki   Xeyli danışdıq. Söhbət zamanı birdən susdu. Sonar titrək səslə: "Ay Kəmalə, görək gedib çıxa biləcəyəmmi Ağdama?" - deyərək kövrəldi. Mən də təsirləndim. Sonra: "Aidə xanım, Allah qoysa gedərsiz, darıxmayın" dedikdə - "Gedərsiz yox, gedərik. İnşallah səni də qonaq aparacam. Gedib gözəl Ağdamı görərsən" söyləmişdir.***

Vəfatından bir neçə gün qabaq da danışmışdıq. Hələ də o gözəl, şirin, məlahətli səsi qulağımdadır. Mehriban, səmimi, sadə, xeyirxah, ziyalı, alicənab xanımlarımızdan idi Aidə xanım. Azərbaycan xanımlarına xas xüsusiyyətlər onda cəmlənmişdi. Yaxşılıq etmək, ehtiyacı olana əl tutmaq həyat meyarı idi. Həcc ziyarətində olmuş, müqəddəs yerləri ziyarət etmişdir. Süfrəsi hər kəsə açıq olardı. Onunla söhbət etdikdə mənən dincələr, rahatlıq tapardın. Qəlbi hər zaman Allahın yaratdıqlarına, insanlara sevgi hissi ilə döyünərdi. Çox təəssüf ki, o qəlb fevralın 4-ü oğlu Arslanın dünyasını dəyişdiyi gün həmişəlik susdu. Qeyrətli el qızı, dəyərli ziyalı Aidə İbrahimova doğma yurd-yuvasına qayıtmaq arzusunu da biryolluq özüylə apardı.

**Müqəddəs kitabımız olan "Qurani-Kərim"də buyurulub: "Qiyamət günündə alimlərin mürəkkəbi şəhidlərin qanıyla ölçülər". Məqamın uca, ruhun şad, yerin cənnət olsun, nur üzlü, mələk simalı, sevənlərinin, şagirdlərinin, tələbələrinin qəlbində daim yaşayacaq hörmətli alimimiz Aidə xanım!**

**Sizi heç zaman unutmayacam!**

# MÜHARİBƏ VETERANI İŞ AXTARIR

**Xanoğlan Rza oğlu Cabbarov vətənpərvər, yurdsevər gəncdir. Bakıda fizika-riyaziyyat və informatika təmayüllü liseyi yüksək qiymətlərlə bitirib. Hərbi xidmət keçib. Azərbaycan Dövlət Neft Sənaye Universitetinin mexanika fakültəsinin materialşünaslıq mühəndisliyi ixtisasına bakalavr kimi yiyələnib. Di gəl ki, ali təhsilli gənc neçə illərdir nə ixtisasına uyğun, nə də başqa bir babat iş tapa bilmir, bacarığını, potensialını göstərsin. Yalnız özəl sahədə xırda-para işlərdə çalışıb, ailəsinə çörəkpulu qazanıb.**



İkinci Qarabağ Vətən Müharibəsi başlayan kimi Xanoğlan dərhal Ali Baş Komandanın, Müdafiə Nazirliyinin və vicdanının səsinə səs verib.

Könüllü olaraq cəbhə bölgəsinə yollanıb. İki ayacan hərbi hissədə olub, müxtəlif tapşırıqların öhdəsindən uğurla gəlib.

Şübhəsiz, torpağımızın azad olunması, bütövləşməsi Xanoğlan Cabbarov kimi cəsur övladlarımızın sayəsində baş verib. İnsafən, indi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev daim şəhid ailələrinə, qazilərimizə, əsgərlərimizə diqqət göstərir, problemlərin həllinə göstəriş və sərəncamlar verir. Bundan dövlət orqanları da nümunə götürür. Axı, ordumuz həqiqətən bu müharibədə can qoyub, qələbə qazanıb.

Xanoğlan təvazökar və istiqanlı gəncdir. Baxmayaraq ki, yüksək hazırlığı, biliyi var, ən adi işin qulpundan da yapışmağa hazırdır. İngilis, rus dillərində oxuyub-yazmağı, danışmağı bacarır, kompüter biliyi yüksək səviyyədədir, "BC" kateqoriyalı sürücüdür.

Sənədlərini "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə, Neft Şirkətinə yollasa da, hələ ki, ona cavab verən yoxdur. Bizcə, bu səmimi müraciətdən sonra Xanoğlan Rza oğlu Cabbarovla maraqlanan tapılar. Kömək etmək, imkansıza əl tutmaq, qapı açmaq lazımdır, cənab məmurlar, iş adamları, səlahiyyət sahibləri!

*1. Adil Cəmil - şair-publisist, Respublikanın Əməkdar jurnalisti*
*2. Əbülfət Mədətoğlu - - şair-publisist, Respublikanın Əməkdar jurnalisti*
*3. Ağacəfər Həsənli - şair-publisist*
*4. Elçin Hüseynbəyli - yazıçı-publisist, Əməkdar incəsənət xadimi*
*5. Tofiq Nurəli - həkim-şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*6. Balayar Sadıq - şair, "Yurd" jurnalının baş redaktoru*
*7. Maarif Soltan - "Qobustan" jurnalının baş redaktorunun müavini, Prezident təqaüdçüsü*
*8. İslam Qəribli - filologiya elmləri doktoru, professor*
*9. Oqtay Abbasov - pedaqoji elmlər namizədi, dosent*

***Ümumilikdə 30 imza***

# Vaksinasiya olunmaq istəməyən müəllimlərə qarşı hər hansı tədbir görülməyəcək

***Təhsil işçilərinin vaksinasiyası könüllüdür, amma onun zəruri olaraq, keçirilməsi vətəndaş məsuliyyətindən, peşə təəssübkeşliyindən irəli gəlir.***

***Trend-in məlumatına görə, bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva bildirib.***



***Onun sözlərinə görə, vaksinasiya olunmaq istəməyən müəllimlərə qarşı hər hansı inzibati tədbirin görülməsi nəzərdə tutulmur.***

***M.Vəlieyava deyib ki, hər kəs vaksinasiyanın əhəmiyyətini başa düşməli və dezinformasiyalara fikir verməməlidir.***

***O əlavə edib ki, məktəblərdə əyani tədrisin dayandırılmaması üçün karantin rejiminin qaydalarına əməl olunmalı, insanlar vaksinasiyadan keçməlidir.***

# "ŞƏHİDLƏR CAN VERDİ, VƏTƏN QURTULDU!"

**Zeynalabdin Novruzoğlunun "Yazdım-yazmadım" kitabı barədə təəssüratlarım...**

***Başı qorumaq üçün,***
***Dili qorumalısan.***
***Dili qorumaq üçün,***
***Bəzən lal olmalısan.***
***Abrı qorumaq üçün***
***Nəfsi qorumalısan***
***Nəfsi qorumaq üçün,***
***İnsan doğulmalısan.***

Elə bir zamanda yaşayırıq ki, gənclərə "bu yolla get" deyə tövsiyyə edə, "Kəlilə və Dimnə", "Qabusnamə" kimi həyatnamələri oxuda bilmirik. Çünki indiki "Z" nəsil nümayəndələrinin öz cığırı, öz yolu var. O yolda yanlışlıq da olsa, bu nəsil çəkinmir, sürətli addımlarla yalnız irəliyə doğru gedir. Bizə isə onların addımlarını saymaq, yıxılanda "vay" deyə uflamaq, yıxanda "ah" deyə ahlamaq qalır.

***Çox şikayətçiydik yeni nəsildən. Amma son olaylar göstərdi ki, əslində, bu nəsil bizdən qat-qat məntiqli, ürəkli, cəsarətlidir. Bu qərara Qarabağ döyüşlərinə gözlərini belə qırpmadan atılan gənclərimizi görəndə gəldik. Bəli, "Z" nəslinin gəncləri birdən-birə ahıllaşdılar, müdrikləşdilər, qəlblərində Vətən sevgisi, qollarında güc, gözlərində düşmənə nifrət döyüşə atıldılar, azad etdilər tapdaq altında inləyən torpaqları, tarixi mədəniyyəti, qeyrəti, kişiliyi...***

Bəs, bu gənc nəsil necə yetişdi? Onlar öz kiçik ürəklərində bu böyüklükdə sevgini, cəsarəti necə sığışdırdılar? İndi haqqında danışacağım adamlar - öyrətmənlər, alimlər, sənətkarlar, yaradıcılar yetişdirdi onları. Həmin öyrətmənlərdən biri və birincisi də yazımın girişində örnək gətirdiyim nəsihətnamənin müəllifi Zeynalabdin Novruzoğludur. Yaşadığı dövr ərzində dilini, başını, abrını, gendən gələrək onunla doğulan nəfsini qoruyan və əsil insan olan Zeynalabdin Novruzoğlu!

O, bu insani keyfiyyətlərlə tək özünü qorumur, həm də ətrafındakılara - sürət, texnika əsrinin gənclərinə əsil insan olmağı öyrədir. Tarix müəllimi Zeynalabdin Novruzoğlu tarixi yazacaq (yazan) balalara üzünü tutaraq:

***Bu torpaq düşmənə verilə bilməz,***
***Bu torpaq nənəmin şal örpəyidir.***

- deyir, neçə-neçə ananın sinəsinə vurulacaq oğul dağının qarşısını alan, Vətənin başını uca edənləri əzizləyir:

***Qəhrəmanlar Vətən üçün can verir,***
***Öz ömründən sənə, mənə pay verir.***

- misralarıyla müqəddəs Şəhidlərimizin ruhuna abidələr yaradır, "Vətən! Vətən!" deyə "qəhrəman"lıq edənləri qınayır:

***Gəl yazaq***
***Şəhidlərin başdaşına***
***Kim ki Vətəni sevdi,***
***əcəl aldı apardı.***
***"Vətən!" "Vətən!" deyənlər,***
***Rütbə aldı, ad aldı.***

...Bəzən elə hadisələr olur ki, ilk vaxtlar həmin hadisəni faciə kimi qəbul edirik. Zaman keçəndən sonra olayın əslində zərurət - vacibiyyət olduğunu görür, özümüzü yenidən tanıyırıq. Özünüdərk isə onurumuzu artırır, başımızı uca, üzümüzü ağ edir. Belə hadisələrə örnək olaraq yaxın tariximizi - 20 Yanvarı misal çəkə bilərəm.

Qanlı Yanvara hamımız kimi Zeynalabdin Novruzoğlu da faciə olaraq yanaşdı və elə həmin illərdə "Qurğuşun yağışı yağdı Bakıya" adlı şeirini yazdı. O dəhşətli gecəni təsvir edən şeirin sonuncu misrası belədir:

***Asfalt səkilərdə lalə göyərdi,***
***Şəhidlər can verdi, Vətən qurtuldu.***

Şair bu faciəni söz edən şeirini Vətənin qurtuluşuyla sonlandırdı. Şairlər Tanrının söz adamları, öz adamlarıdır deyirlər.

Ona görə də Tanrının öz adamı Zeynalabdin Novruzoğlu irəlini gördü, o ağrının altında sevincimizdən bəhs etdi. Bu gün biz 20 Yanvar olayını faciə, matəm günü kimi deyil, fəxarət, qurtuluş, Azərbaycan xalqının kimlik tarixi kimi qeyd edirik. Bu barədə danışmaq tez olsa da, əminəm ki, zaman gələcək, 2020-ci ilin 44 günlük müharibə günləri də tariximizə bayram kimi düşəcək, gələcək nəsillər bu gündən sevinclə söz açacaqlar....

***

Zeynalabdin Novruzoğlunun əsərlərini oxuduqca, bu yaradıcılığın ana xəttinin müdrik kəlamlar - aforizmlərdən ibarət olduğunu görürük: "Hər kəs ağlı boyda görür, dərk edir", "Təklənən bir öküz çaqqaldan qorxar", Başı buludlara söykənən dağın, ayağı uçurumda, dərədə olar!", Ağlın hünərindən çox olsa əgər, ağırlıq eyləyib, səni əzəcək", "Qoşa qanadlardır ağıl və hünər, birləşsə, səmada qartal görünər", "Daha da böyüyür, gözəl görünür, kiçik dairəyə sığan böyüklük", "Arximed axtardı elə bir nöqtə, dünyanı yerindən oynada bilə", "Bir damla göz yaşı bacarar bunu, onun ağrısını qəlb duya bilməz", "Bulaq suyu kimi təmiz adamlar, selə qarışanda murdarlanırlar!", "Kütlə təfəkkürü hər şeyə qadirdir!", "Siyasətin ticarətlə qohumluğu var, ikisi də alıbsatır, dəllaldır onlar!", "Xalqı qəlbən sevənlər, bunu xalqa demirlər!", "İnsanlıqdan üz döndərən bir tula, ya zora baş əyər, ya da ki pula!", "Lalın dili beynəlxalq dil" və s...

***

***Bölmə yeri qitələrə, Tanrı bütöv yaradıb,***
***Tövrat, Zabur, İncil, Quran" hamımıza irs qalıb.***



Şair bu misralarında evangelist təfəkkürə söykənərək, müqəddəs dördlüyü ("Tövrat", "Zabur", "İncil", "Quran") biri-birindən ayırmadan Allahın yaratdığı ali irqi bir olmağa çağırır, Allahın adından istifadə edərək, yerlərdə - fani dünyada qurulan Allah evlərinin ("Kilsəni şeytan yaratdı. Kilsə yalanlarını Allaha doğruldan qurumun adıdır" L.N.Tolstoy) əslində ürəyimizdə olmağının vacibliyindən bəhs edir, din, dil, irq, millət, təbəqə ayrıseçkiliyə "yox" deyir, bütün dünyanın dərdini çiyninə alaraq bəşəriyyəti mutlu görmək istəyir:

***İstərəm dünyanın dərdlərini mən,***
***Alam öz çiynimə, baş alıb gedəm...***

***

Aşağıdakı misralara diqqət edək:

***İnanan inansın, inanmayan heç,***
***Araz içimizdən axırmış bizim.***
***Buyur, bu Araz, bu da körpü, keç,***
***Araz içimizdən axırmış bizim!***

***Bu misralarda Araz təkcə hamımızın bildiyi tanıdığı iki qardaşın ayrılıq simvolu deyil. Araz fanilərin tapındığı din olaraq qabarır. Araz safdır, Araz müqəddəsdir, Araz qovuşduran, Araz ayırandır, Araz yaradandır, Araz Tanrıdır! O tanrıya inanan da var, inanmayan da. Bəlkə də Siratdır - doğru yolumuzdur Araz. Bu, içimizdən axan Arazın tükdən nazik, qılıncdan kəsərli körpüsündən hər kəs keçə bilərmi? Bu körpüdən keçmək üçün cəsarətin, dəyanətin, qüdrətin, nurun olmalı, işıqlandırmalısan ətrafı... Arazı keçərsək, Tanrı sevgimizi, Tanrı əmanəti yurd-yuvamızı, qeyrətimizi, adımızı, dilimizi... qaytaracağıq deyə içindən keçirir şair (Bu yerdə böyük şairimiz Bəxtiyar Vahabzadəni xatırlamaq çox gözəldir: "Arazın üstündən keçə bilmirəm, Araz dərdim olub sinəmdən keçir...")...***

..."Analar gecənin simaforları" misralarında isə şair analar üçün ölməz bir abidə yaradır. O, "gecənin simaforları" deyərkən, anaların əslində həyatın simaforları, həyatın özü, üzü olduğunu qeyd edərək, anaları Tanrı üzlü - nurlu, Tanrı xislətli - yaradan, Tanrı heysiyyatlı - qoruyan, Tanrı ürəkli - sevən, Tanrı cəsarətli... adlandırır.

Zeynalabdin Novruzoğlunun yaradıcılığında təmsillər də geniş yer alıb. O, zamanımızdakı eybəcərlikləri lirizmin yumşaq qəlibində deyil, təmsildə qınağa çəkməyi daha məqsədəuyğun bilir:

***Qurdun ağzı bağlanar,***
***Qoyun yeyər, yağlanar.***
***Nehrədə yağ çalxanar,***
***Tərəzi düz çəkəndə***

Bəzən bu eybəcərliklər təmsilin də qəlibindən daşaraq satiraya yol açır:

***Harda buyruq var, bilir,***
***Harda quyruq, var, bilir,***
***Harda yumruq var, bilir,***
***Yaltaq tərif deyəcək.***

Bu müdrik kəlamlı, geniş ürəkli insanın içində məsum, ağıllı, həm də dəcəl bir körpənin yatdığını görürük. Müəllifin uşaqlar üçün yazdığı əsərlərində həmin körpə özünü daha yaxından göstərir:

***Göy üzü qarajdı,***
***Ulduzlar maşın.***

Şair, uşaq dilində danışmağı, uşaqlar kimi düşünməyi elə bacarır ki, bu məsumiyyətə böyüklər də qoşulur.

"Anlarsan" şeiri də uşaqların dilinə yatımlığı, uşaq təfəkkürünə uyumu, çətin tələffüs edilən kəlmələrdən uzaqlığı ilə diqqəti çəkir. Burada da müəllifin əksər uşaq şeirlərindəki kimi ailəyə, ətrafa, heyvanlara, təbiətə məhəbbət aşılanır, halallığın ən yüksək keyfiyyət olduğu qabarır, bir sözlə, maarifləndirmə prinsipi önə çəkilir. Şeirin qəhrəmanı Pərvizin "Qara inəkdən ağ süd, necə sağır nənəsi?" kimi suallarına atası bir cavab verir: "Kitab oxumalı, elmələrə sahib olmalısan! O zaman bütün sualların cavabını biləcəksən!" Bu baxımdan, şairin "Qoca və çörəksatan" poması da təqdirəlayiqdir. Tək yaşayan adama çörəkçi: "Tək olduğun halda niyə hər gün üç çörək alırsan?" deyir. Adam isə cavabında: "Üç çörəyin birini, borcuma verirəm mən", - deyir, - yəni valideynlərinə. "Birini borc verirəm" - övladlarına, - "Birini də özüm yeyirəm!" - deyir.

Zeynalabdin Novruzoğlu bayatıları da lakonikliyi, bədii və fəlsəfi tutumu ilə özünəməxsusdur:

***Əzizim, dağdan ağır,***
***Təpəsi dağdan ağır.***
***Ananın göz yaşıdı,***
***Damlası dağdan ağır.***

Nəzmin hər bir növündə qələmini sınayan, hər mövzuya uyğun qəlib seçən (əslində, sözü pıçıldayan Tanrı onun qəlibini də özü biçir) Zeynalabdin Novruzoğlu ədəbiyyat, söz adamlarına və sözüsevənlərə sübut edir ki, o, söz yolunun hər bir cığırına yaxşı bələddir. Sözdən şaxələnən hansı izlə addımlasa, büdrəməyəcək, yıxılmayacaq.

Kitabın son bölümündə müəllifin müxtəlif illərdə yazdığı oçerklər, esselər toplanmışdır. Bu publisistik yazılar da quruluş və yanaşma tərzinə görə orjinal, məntiq və məna çalarına görə səciyyəvidir.

***... Zeynalabdin Novruzoğlu ilə şəxsən tanış deyiləm. Bu yaxınlarda şairin qardaşı oğlu Cavid Tofiqoğu mənə "Yazdım-yazmadım" adlı, nəfis tərtibatla işlənmiş bir kitab təqdim etdi (275 səhifədən ibarət. "Elm və təhsil" nəşriyyatı-2014). "Lirik şeirlər", "Satirik şeirlər", "Təmsillər", "Uşaq şeirləri", "Poemalar", "İkiliklər", "Bayatılar", "Məqalələr" bölümlərindən ibarət olan bu toplunu sadəcə varaqlamaq istədiyim halda, şeirlərin dil axıcılığı, bədiiliyi, sözlərin rəng çaları, fonetik qohumluğu, hadisələrə yanaşma özəlliyi və s. kitabı son nöqtəsinə qədər oxutdurdu.***

Zeynalabdin Novruzoğlu Naxçıvanda doğulub və orada yaşayır. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin tarix fakültəsini bitirib. Tələbəlik illərindən publisistik yazıları və şeirləri ilə mətbuatda müntəzəm olaraq çıxış edir. "Zaman yaratmağa qadir deyil" (1998), "Əldə gül, dildə tikan" (2009), "Yazdım-yazmadım" (2014) şeir kitablarının müəllifi, Azərbaycan Jurnalistlər və Azərbaycan Yazıçılar birliyinin üzvüdür. Başqaları üçün özünü yandıranlardan:

***Tütə-tütə, yana-yana yaşamışam mən,***
***Buz üstündə yanan oda oxşamışam mən.***

Ölmək üçün deyil, yaşamaq üşün ölümün gözünə dik baxanlardandır.

***Ölmək üçün yaşama,***
***Yaşamaqçün öl, olar!***

**Dəyərli insan, pedaqoq, şair, publisist Zeynalabdin Novruzoğlu ilə "Ürəkdən ürəyə görünən yolda" qarşılaşdığım üçün məmnunam. Şairlə üz-üzə söhbət etmək arzusuyla yazıma son qoyuram...**

**Hörmətlə:**
**İradə Aytel**

# İrana səfər qaydaları açıqlandı

***İranın Azərbaycandakı səfirliyi koronavirusla mübarizə dövründə İrana səfərin qaydalarını açıqlayıb.***

***Bu barədə İran səfirliyindən məlumat verilib.***

***İran səfirliyi bildirir ki, İran İslam Respublikasının Koronavirusla Mübarizə üzrə Qərargahı tərəfindən qəbul edilmiş qaydalara əsasən, yeni növ COVID-19 virusunun yayılmasının qarşısının alınması məqsədilə İrana səfər etmək istəyən bütün xarici vətəndaşlar, o cümlədən Azərbaycan Respublikası vətəndaşları səfərdən öncə giriş icazələri almalıdılar:***

***"Bununla əlaqədar İrana səfər etmək istəyən Azərbaycan Respublikası vətəndaşları əvvəlcə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahdan çıxış icazəsi almalı və daha sonra isə İran İslam Respublikasnın Bakıdakı Səfirliyinin Konsulluq Şöbəsinə müraciət etməklə qeydiyyatdan keçərək İrana getmək üçün giriş icazələri almalıdılar".***

***İran İslam Respublikasnın Bakıdakı Səfirliyinin Konsulluq Şöbəsinin ünvanı: "Bakı şəhəri, Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 269".***

***Telefonlar:***

***+99412-433-03-11, +99412-434-19-76, +99412-434-03-40***

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 25 (2206) 4 mart 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# HƏQİQƏTLƏRİMİZİN SÜBUTUNDA DİASPORAMIZIN ROLU

**Günün reallıqlarını göz önünə gətirəndə ən çox müzakirə olunan, gündəmdən düşməyən bir mövzu xüsusi olaraq diqqəti çəkir. Təbii ki, bir Azərbaycan vətəndaşı olaraq məni və soydaşlarımı özünə çəkən bu məsələnin konkret adı, ünvanı var. Yəni məlum olan budur ki, Dağlıq Qarabağ və bütövlükdə Azərbaycanın işğal olunmuş torpaqları həm tarixi ədəbiyyatdan, həm dünya mediasında, həm də siyasi müstəvidə artıq kök atmış, şaxələnmiş mövzulardan, məsələlərdən biridir, bəlkə də birincisidir.**

Ona görə ki, dünyanın qaynar ocaqlarından sayılmış Cənubi Qafqaz, xüsusilə erməni terrorunun ünvanı olan Ermənistan və ötən ilin noyabr ayının 10-a kimi işğal altında qalmış ərazilərimiz həmişə atəş səsləri, talanlar, axıdılan qanlarla diqqət mərkəzində olmuşdu. Bax, bütün bunların böyükl dünyaya çatdırılması,




yəni gerçəklərin təqdim olunması üçün Azərbaycan hakimiyyəti son 18 ildə genişmiqyaslı, həm də hücum xarakterli siyasi kurs götürmüş və nəticədə də informasiya blokadasını yararaq dünyaya Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ ətrafında baş verən həqiqətləri, gerçəklikləri çatdırmışdı.

Birmənalı şəkildə vurğulamaq lazımdır ki, Azərbaycan prezidenti cənab İlham Əliyevin özünün də qeyd etdiyi kimi, son 17 ildə görülən işlər, aparılan danışıqlar dünya mediasına çıxarılan tarixi faktlar göstərmişdi ki, biz başqalarının torpağı üçün yox, öz torpaqlarımızı işğaldan azad etmək üçün mübarizə aparırıq. Bu mübarizədə istifadə etdiyimiz, yararlandığımız bir vasitə də dünyadakı Azərbaycan diasporunun fəaliyyəti olmuşdu.

Əgər 44 günlük Böyük Vətən Müharibəsini göz önünə gətirsək, onda görərik ki, Azərbaycan diasporu döyüş səngərlərində baş verən gerçəklikləri öz imkanları daxilində, bəzən onda böyük səviyyədə fəaliyyət göstərdikləri məmləkətlərdə siyasi qurumlara, dövlət orqanlarına ictimaiyyətə faktlarla çatdırmaqda böyük əzmkarlıq nümayiş etdiriblər. Bu mənada Böyük Britaniya krallığında və İslandiyada yaşayan soydaşlarımızın yaratdığı "Britaniya-Azərbayvan Cəmiyyəti"nin təşkilatçılığı ilə Qarabağda baş verən tarixi gerçəklikləri, döyüş səlnaməmizi, konkret videomateriallar, sənədlər, hətta xəritələr və eskizlər vasitəsilə yayımlamışdılar. Onların təşkil etdikləri canlı görüşlərdə, videokonfranslarda nümayiş etdirdikləri müharibənin faciələri, eləcə də erməinlərin döyüş xəttindən 100 kmlə uzaqdakı Bərdə, Gəncə, Mingəçevir şəhərlərini, Tərtər, Ağcabədi rayonlarını, hətta Bakı ətrafını necə xaincəsinə faşist xisləti ilə atəşə tutmalarının görüntüləri yayımlanmışdır. Uşaqların, qadınların, qocaların, hətta təsərrüfat subyektlərinin, mal-davarın güllələnməsi, iriçaplı silahlarla atəşə tutulması, qadağan edilmiş döyüş sursatlarından istifadə olunması barədəki konkret dəlil-sübutlar Böyük Britaniya Krallığının, Şotlandiyanın, İslandiyanın sakinlərinə nümayiş etdirilmişdi.

Bax, Diasporla İş Üzrə Dövlət Komitəsinin bilavasitə dəstəyi və zəruri vasitələrlə, materiallarla təminatı hesabına ölkə xaricindəki diaspora təşkilatlarımızın gördüyü bu işlər demək olar ki, dünyanın aparıcı media qurumlarının da diqqətini çəkmişdi. Onlar nümayiş etdirilən materialar əsasında hazırladıqları reportajlar, televiziya materialları ilə dünya ictimaiyyətinə Cənubi Qafqazda, xüsusilə Azərbaycan-Ermənistan müharibəsində




baş verənlər barəsində dəqiq bilgilər vermişdilər.

***Biz dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspora təşkilatlarımızın istər Avropa, Amerika qitəsində, istərsə də şərq ölkələrində həyata keçirdikləri təbliğat kampaniyasına nəzər salanda ən çox diqqəti çəkən "Qarabağ Azərbaycandır!", "Şuşa Azərbaycandır!", "Xocalıya ədalət!" və digər şüarlarla qarşılaşırıq. Artıq Ali Baş Komandanımız, Azərbaycan prezidenti cənab İlham Əliyevin dillər əzbərinə çevrilmiş "Qarabağ Azərbaycandır və!" fikri bir gerçəkliyə çevirlib. Ona görə ki, xalqımız, onun müzəffər Ordusu uzaqgörən siyasi liderinin, qətiyyətli Komandanının rəhbərliyi altında 30 ilə yaxın işğal altında olan ərazilərimizi erməni işğalçılarından azad edərək dövlət sərhəddimizi bərpa etmiş və bununla da "yenilməz erməni ordusu" barəsindəki mifi alt-üst etmişdi.***

Diaspora təşkilatmızın Qətərdəki fəaliyyəti də bu mənada təqdirəlayiqdir. Belə ki, Doha şəhərində soydaşlarımızın təşkil etdiyi möhtəşəm avtoyürüşdə Azərbaycan-Türkiyə bayraqları qələbəmizin təminatçısı olan prezidentimizin şəkilləri, həmçinin "Qarabağ Azərbaycandır!", "Şuşa Azərbaycandır!", "Biz qalib gəldik!" yazılmış böyük plakatlar şəhərin baş meydanında nümayiş etdirilmişdi. Yürüşü izləyənlər həmin anlarda xalqımızın haqlı sevincinin şahidinə çevrilmişdilər.

Dünyanın beyin mərkəzi sayılan Avropada, eləcə də "azadlığın ünvanı" imicini qazanmış Amerikada Azərbaycan diasporasının gördüyü işlər də həqiqətən uğurlu xarici siyasətimizin bir nümunəsidir. Belə ki, erməni diasporunun və ermənipərəst qüvvələrin daha güclü olduğu Amerikada, Avropada öz həqiqətlərimizi sübut etmək soydaşlarımız üçün, burada fəaliyyət göstərən diasporlarımız üçün həmişə çətin olmuşdu. Təbii ki, bu məsələdə dünyada hakimlik edən ikili standartlar da böyük rol oynamışdı. Lakin həqiqət həmişə çətin və gec də olsa zəfər çalır. Və bu mənada bizim gerçəkliyimiz, haqq işimiz Avropa və Amerikada da özünü sübut edə bildi. Yəni Fransanın Nant şəhərində yaşayan soydaşlarımız şanlı qələbəmizin müzəffər Ordumuzun şərəfinə burada böyük nümayiş xarakterli yürüş təşkil edərək əllərindəki Azərbaycan bayraqları şüarlarla və transporatlarla fransızların Nant sakinlərinin diqqətini çəkə bilmişdilər.

**Hətta səsləndirilən milli musiqilərimiz və yerli sakinlərin də qoşulduğu "Yallı" rəqsi təkcə bayram sevincimizi yox, həm də halal haqqımız olan tarixi gerçəkliklərimizi ifadə edirdi. Bax, bu mənada Polşada, Almaniyada, İngiltərədə, Bolqarıstanda, Macarıstanda, ümumiyyətlə, Avropanın mərkəzində bizim uğurlu xarici siyasətimiz nəhayət ki, həqiqətlərimizin təsdiq tapmasına ən böyük dəstək oldu. Biz bu dəstəyi ölkə prezidentimizdən, onun dəmir yumruğundan və bir də uğurlu xarici siyasətindən qazandıq. Böyük uğurların reallaşmasında vasitələrdən biri də təbii ki, Diasporla İş Üzrə Dövlət Komitəsinin tutduğu doğru yol oldu. Bu yolun da adı haqqımızı dünyaya qəbul etdirmək idi.**

***Əbülfət MƏDƏTOĞLU***

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Gözün aydın, seyid

**Dünya yaranan gündən İslam dininə xüsusi hörmət, ehtiram, inanc müsəlmançılığın əsasını təşkil etmişdir. İmamlardan törənən seyidlərin şəcərəsi dünyanın hər yerinə şaxələnib yayılmışdır. Seyidlər müqəddəslərin davamçısı, ocaqları - ziyarətgah, inanc, ümid, şəfa mənbəyi olmuşdur. İnsanlar dara düşərkən, xəstə olarkən həmin ocaqlardan, pirlərdən şəfa diləmiş, aləmləri yaradan Allaha dua edərək o müqəddəslərin xatirinə onların muradına çatması üçün yalvarmış və muradlarına çatmışlar. Hələ tarixi keçmişimizdə xalqımız Məşədiyə, Həccə, Kərbəlaya, Kəbəyə, Məkkə-Mədinəyə, hətta Qüdsə və s. ziyarətlərə uzun səfər edərək əbədi rahatlıq tapmışlar. İnsanların müqəddəslərə, ziyarətgahlara həmişə ehtiyacı olmuşdur. Bu gün bu ocaqların mərkəzində seyidlər dayanır. Xalq ənənəsində Peyğəmbərin nəslindən olanlar seyid adlanır. İstər islam dinində, istərsə də xalq arasında seyidlərə ehtiram göstərmək, qulluğunda durmaq həm səvab, həm də çox təkid olunur. Məclislərdə seyidi yuxarı başda əyləşdirmək, onun qulluğunda durmaq ənənəyə çevrilib. Bizdə də seyidlərə xüsusi ehtiram və hörmət vardır. Seyidlərin insanların üzərində haqqı vardır. İnsanların da onların üzərində haqqı vardır.**

Seyidlik - (ağa) mənəvi bir şərafətdir. İmam Rza buyurub:" Biz nübuvvət nəslinin insanları üzərinə olan haqqımız Peyğəmbərə (s) görədir". Seyid - bəşəriyyətin ucalıq və əzəmətini nümayiş etdirən insaniyyət əxlaqını və dəyərini nümayiş etdirən insandır.

Belə sevimli seyidlərdən biri də seyid Hacı Talıb Səyyad oğlu Hüseynovdur. Talıb Səyyad oğlu 1963-cü ildə Füzuli rayonunda ağır seyidlərdən olan seyid Səyyahın ailəsində dünyaya gəlib. Körpəyə Bəni Haşim qəbilənin başçısı həzrət Əlinin atası, islam peyğəmbəri Məhəmmədin (s.a.s.) atası Abdullahın ata-ana bir qardaşı Əbu Talıbın ismini verdilər. 1970 - ci ildə Xurşud Banu Natavan adına orta məktəbin 1-ci sinfinə gedib. 1980 - cı ildə məktəbi əla qiymətlərlə və tərifnamə ilə bitirib. Zəhmətə olan məhəbbət, sevgi onu peşə məktəbinə çəkir. O, texniki peşə məktəbini də əla qiymətlərlə başa vurur.

## *Atası seyid Səyyah ağa*

***onu ali məktəb tələbəsi görmək istəyirdi. Odur ki, 1982-ci ildə sənədlərini Azərbaycan Dövlət İqtisad Universitetinə təqdim edərək tələbə adını qazanır. Oxuduğu illər ərzində universititin ictimai həyatınada, tələbə elmi cəmiyyətində fəal iştirak edir. Ali məktəbi müvəffəqiyyətlə başa vuran T. Hüseynov ordu sıralarında- Moskvanın Kaluka vilayətində hərbi xidmətdə olur. 1985-ci ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Adi işçidən şöbə müdiri vəzifəsinə qədər yüksəlib. Hal-hazıtda nazirliyin Aqrar Elm və İnnovasiya mərkəzinin həmkarlar ittifaqı komitəsinin sədridir. Hacı seyid Talıb Səyyad oğlunun elmi fəaliyyəti kənt təsərrufatının inkişafı ilə bağlıdır. O, dissertasiya üzərində işləyir. İndiyə qədər respublikamızda və eləcə də xarici ölkələrdə elmi məqalələri çap olunub. Seyidin elmi fəaliyyəti, gördüyü işləri qiymətləndirən nazirlik onu " Fəxri Fərman" ilə təltif edib.***

Birinci Vətən müharibəsi illərini xatırlayaraq seyid dedi: ***"Baxmayaraq nazirlikdə şöbə müdiri idim, Qarabağ hadisələri başlayandan sonra könüllü olaraq ordu sıralarına qoşuldum. Yadımdadır, avtobusla Ağdam rayonuna yola düşdük. Axı mən Qarabağın hər qarış yerinə bələd idim və oraları yaxşı tanıyırdım. Düşmən demək olar ki, hər yerdən artilleriya atəşinə tuturdu. Top səsi, tankların gurultusu yaxşı eşidilirdi. Qəlpələr tutmasın deyə və ya onun zərbə dalğasına düşməyək deyə strateji əməliyyat və taktiki manevrlər edirdik".***

Talıb Hüseynov Birinci Qarabağ müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılıb və qarşısına qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirib, ta ki, 1994- cü ilin mayında Rusiyanın dəstəyi ilə atəşkəs əldə olana qədər. Ikinci Qarabağ müharibəsində öz torpaqlarımızı azad etmək uğrunda müharibədə minlərlə insanlar kimi Talıb Hüseynov da könüllü olaraq cəbhəyə getmək, torpaqlarımızı işğalçılardan azad etmək üçün lazımi təşkilatlara müraciət etsə də, yaşa görə ona ehtiyac olmadıqlarını bildirdilər. Azərbaycan Vətən müharibəsinin qalibi idi. Çünki onun Ordusu işğalçı və terrorçu ermənistan ordusunu darmadağın edirdi.

## *Tarixdən oxumuşdu ki,*

***14 may 1805- ci ildə Qarabağ xanı İbrahim xan və Rusiya imperatoru I Aleksandrın adından general Sisyanov arasında Qarabağ xanlığının Rusiya imperiyasının tərkibinə daxil olması haqqında tarixi müqavilə - Kürəkçay müqaviləsi imzalanmışdır. Amma imperator özünün müqavilə ilə verdiyi sözünü tutmadı, hansı ki, ona əsasən, İbrahim xana "onun ərazilərinin toxunulmazlığı, öz xanlığında tam daxili özünü idarəetmə və onun varislərinin xan rütbələrinin tanınmasına zəmanət" vədini vermişdi. İran Marağasından erməni köçkünlərinin sələfləri 1978 - ci ildə Mardaket rayonunun Maraqaşen ( İranın Marağa adını Qarabağda da ollduğu kimi "Maraq" adına "aşen" şəkilçisi qoyaraq Maraqaşen) adını qoymuşlar. Bununla da, özləri də sübut etmişlər ki, Qarabağa ermənilər rus çarının köməkliyi ilə yerləşdiriliblər.***

"Qarabağ ermənistandır" demələri yalan və cəfəngiyatdan başqa bir şey deyildir. "Artsax"-sözü də Azərbaycanda başqa millətlərlə yaşamış Alban sözüdür. Bu adın ermənilərə heç bir adiəti yoxdur. Heç özləri də bilmir ki, "Artsax" sözünün mənası nədir. Bu mənfur ermənilər Qafqaza ayaq atdıqları ilk gündən azərbaycanlılardan, Albanlardan, Gürcülərdən və s. xalqlardan hər nə varsa özünküləşdirərək oğurlamışlar. Bir vaxtlar bizə yaltaqlanaraq, xidmətimizdə qul kimi duraraq sonradan bu qonaqpərvərliyi, bu insanlığı unudaraq bizi "axmaq" kimi qiymətləndirdilər. Bu gün "Dəmir Yumruq" kimin axmaq olduğunu ermənilərə sübut etdi.

Ermənilər 1920 - ci ildə Sevr müqaviləsi üzrə ermənistanın "torpaq əvəzinə sülh" kosepsiyasının "yeni ərazilər uğrunda yeni müharibə" əvəzləməsi həyasızlıqdan, namərdlikdən başqa bir şey deyidir. Burada mənim yadıma Milix Yevdayevin ermənilər haqqında dediyi hikmətli sözü yadıma düşür. O, demişdir: "Dadanmış, qudurmuşdan betərdir!".

## *Seyid Talıb*

***birinci vətən müharibəsində erməni seperatçılarına qarşı vuruşanda, seyid yenicə ailə qurmuşdu və evdə altı aylıq körpə uşağı qalmışdı. Komandanlıq onun döyüş bacarığını yüksək qiymətləndirməklə yanaşı, onun qeyri-adi bacarığından da istifadə edirdi. Ağır döyüşlərin getməyinə baxmayaraq, düşmənin fasiləsiz minomyot mərmiləri onu qorxutmadı. Buna baxmayaraq o, döyüşlərin birində ağır yaralanır, onu Bakıya göndərirlər. Doğulub boya-başa çatdığı Füzulinin ermənilər tərəfindən işğal olunmasıdan məyus olub ilk dəfə ağladı da. Amma bilirdi ki, o itirilən torpaqlar alınacaq. Hətta o günü görmək üçün nəzir də dedi. Və bu illər ərzində Qarabağın işğaldan azad olması üçün Ulu Yaradana dualar etdi.***

Seyid Talıb tez-tez Allah Rəsulunun (s.a.s.) hikmət, məna çeşməsindən ovuc dolusu içən aşiq kimi danışır. Seyidin Quran, əhli-beyt dəryasından dadmış ilahi hikmət, mərifət və bəsirət lütfi ilə mükafatlanmış böyüklüyünü anladıq. Bir nida, bir səs duyduq! Mütləq həqiqətdən süzülüb gələn, haqqa söykənən, Haqqın yaratdığını gözəl görmək istəyi idi bu səs. Hər adam bu səsi nə görə bilir, nə eşidə bilir.

İşində-gücündə əmanət yükünü görən, yerini və vəzifəsini bilən, Allah rizası üçün, Vətən sevgisi üçün canından keçməyə hazır olan, yana-yana, alışa-alışa qəlbləri titrədən bir səslə danışır hacı Talıb. O, Böyük Yaradana qul olmağa, Bəndə, Ümmət, Vətəndaş olmağa. Gözəl, mərd, kamil olmağa - İnsan olmağa!

Talıbın atası seyid Səyyah ağada da qeyri-adı bacarıq, möcüzələr göstərən hikmət var idi. Səyyah ağa İlahi həqiqət və elmə, əməyə bağlanan, əxlaqlı, çətin məsələləri həll edən, camaata xütbə oxuyan və onların qarışıq işlərinə yardım edənlərdən idi. O, Ulu sözün ətrini duyan, Allaha, səmimiyyətə bağlı, insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizliyin dərk edən seyidlərdən idi.

## *Arabir şeirlər də yazırdı*

***seyid Səyyad ağa. Şeirlərindəki sevgi, ictimai-mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyətli rol oynayır.***

Şeirlərində, xüsusilə də qəzəllərində seyid Səyyadın ən çox insan və təbiət, insan məhəbbəti, təbiət gözəllikləri, dostluğa sədaqət, sevgi-vəfanı önə çəkməkdir. Şairin sevgisi adi sevgi deyil. Ağa insanı, daxili ruhi aləmini, təbiətin gözəlliklərini dərindən duymuş, yüksək intelekt və ilhamı ilə onları ustalıqla mənalandıra bilmişdir. O vaxtlar Qarabağa, xüsusiylə də Füzuliyə gələn şair və yazıçılar, mədəniyyət işçiləri mütləq onunla görüşərdilər. Ustat qəzəlxan Maillə yaxından dost idi; vaxtaşırı görüşər, yeni qəzəllərini bir-birlərinə oxuyardılar.

Hacı seyid Talıb ağa həccə getməyi çox arzulayırdı, amma gedə bilmirdi. Bir gün bir nəfərin yuxusuna girir ki, filan ünvanda Talıb ağa adında bir seyid var, onu Həccə göndər. O, imkanlı adam yuxuda deyilən ünvana gəlib onu tapır və böyük istəklə seyidi Həccə göndərir. Sən demə o imkanlı adamın övladı olmurmuş və ondan xahiş edir ki, ziyarətdə olarkən ona da dua etsin. Seyid də onun övladı olması üçün Allaha dua edir. İndi o şəxsin övladları var və o çox xoşbəxtdir. Haci Məkkədə olduğu zaman bir çox möcüzələrlə rastlaşmışdır...



***Seyid Talıbın ən böyük arzusu Qarabağ torpaqlarının azad olunması idi. O, bilirdi ki, işğal altında olan torpaqlarımız azad olunacaq. Ona görə də o xoşbəxt günün şərəfinə nəzir də demişdi. Bunu bilən hər bir şəxs onu görəndə:" Nəzirin qəbul olsun, seyid!" demişdilər.***

Seyid deyir: ***"Allaha nəzir etdim ki, İlahi, arzum Füzulini azad görməkdir. Bu xoşbəxtliyi mənə sağ ikən qismət eylə. Füzuli azad olunanda sözümü tutdum və nəzirimi də həyata keçirtdim. Arzunu o dünyaya aparmaq olmur, gərəkdir ki, bu dünyada arzuna çatasan, ruhunla, canınla. İnsan ruhu əsla məğlub olmur! ".***

Hacının da gözəl qəzəlləri var, amma üzə çıxarmır. Hərdən-bir öz yaxınlarının, dost-tanışlarının arasında olanda deyir şeirlərindən. Hacı seyid Talıb ağa deyir ki, indi şeirlər çoxdur, mədh və tərifdəki, maşallah! Xüsusən də yaltaqlıq şeirləri. Qəhrəmanlıq şeirləri isə şeirin başqa bir növüdür və adətən xüsusi ahəngləri qəbul edir. Qəhrəmanlıq şeiri o şeirdir ki, ondan qeyrət, şücaət və mərdlik qoxusu gəlsin. Yaxşı şeir ruhu hərəkətə gətirir və coşdurur. Bir də görürsən bir-iki nazik kitabı çıxanı elə tərif edirlər ki, heç klassiklərimizi belə tərif etməyirlər.

Seyid həmişə ikinci vətən müharibəsindən söhbət düşəndə deyir ki, bu gün azərbaycanın öz-özü ilə öyünməyə haqqı var.

## *Hacı ikinci Qarabağ müharibəsindən fəxrlə danışır*

***"Anaların ağlaması o ağlamaq deyil, bu qəhraman övlad üçün qəhramanlıq hissləri tapmağımız, onun qəhraman ruhundan öz ruhumuzda bir nur peyda olması, haqq və həqiqət yolunda qeyrət tapmağımız, ədalətsevər olmağımız, zülmə və zalıma qarşı mübarizə etməyimiz, izzəti - nəfsin, şəraf və insaniyyətin, həmçinin kəramətin nə olduğunu anlamağımız xatirinə anlamaq lazımdır".***

Bəzən zülmət gecədə su axtaran və qəfildən suyu tapan insana bənzəyir mömin insan. Onda ki, Seyid olasan! Ümumiyyətlə, ruh böyüdükcə bədən əziyyətə düşür; ruh kiçildikcə bədən rahatlaşır. Müqəddəs kitabda deyilir: "Əgər nəfislər (ruhlar) böyük olarsa onun istədiklərinə çatmaq üçün cismələr əziyyəttə düşər".

Kiçik ruhdan bəhs etməyəcəm, böyük ruh arzu edər ki, İlahi hədəflər yolunda və özünün böyük hədəfləri yolunda şəhid olsun. Bizim vətən yolunda qurban gedən şəhidlərimiz kimi. Onların ruhu kiçik deyildi, böyük ruh idi. Elə güman etməyin ki, ixtiraçılar, alimlər və sərvətli şəxslər bəşəriyyətə daha çox xidmət edirlər, xeyir, şəhidlər qədər heç kəs bəşəriyyətə xidmət etməmişdir. Onlar çıraq və işıq kimidir. Əgər çıraq və işıq olmasa, biz nə iş görə bilərik?

***Şəhidləri yazıq bilməyin. Məgər ölmək bir comərd üçün, bir valideyn üçün ardır? Ölmək o zaman ardır ki, insanın məqsədi və amalı əskik olsun və vəzifə üçün öldürülsün. Bu zaman deyərlər ki, məqsədnə çatmadı. Vətən və haqq yolunda ölüm insan üçün ar deyil, ona görə ki, o elə bir yolla gedir ki, həmin yolla saleh insanlar və Allahın seçilmiş bəndələri addımlayır. Necə ki, Kərbəla şəhidi imam Hüseyn demişdir: " Mən özüm üçün ölümü səadət, zalımlarla yaşamağı isə məzəmmət kimi görürəm". Almanların məşhur bir deyimi var " Biz ikinci dünya müharibısində mənlik və şəxsiyyətimizdən başqa hər şeymmizi itirdik. Şəxsiyyətimizi itirmədiyimiz üçün hər şeyi yenidən əldə etdik". Biz də hər şeyi yenidən quracayıq, çünki bizim mənliyimiz də var, şəxsiyyətimiz də!***

Seyid Talıb ağa kənd təsərrüfatına bağlı adamdır. Bilirik ki, təsərrüfatçılarımızın çoxlu qayğıları ilə yanaşı, həm də hər şeydən əvvəl, nüfuzlu mütəxəssis sözünə ehtiyacı var.

## *Torpaqlarımızın xüsusiyyətləri,*

ümumən, əkinçilik mədəniyyəti, kənd təsərrüfatının, texnikanın yeni nailiyyətlərinin, qabaqcıl təcrübənin geniş yayılması kənd təsərrüfatının əsas sahələrindəndir. Sevindirici haldır ki, nazirliyin köməkliyi nəticəsində təsərrüfatlar çətinlik çəkmirlər, kənd təsərrüfatı yeni, müasir texnika ilə təmin olunmuşdur.

Təsərrüfatda işləmək üçün yüksək ixtisaslı mühəndis texniklər hazırlanmasını nəzərdə tutmaq əsas aktual məsələdir. Bu işlərdə xarici ölkələrin təcrübəsindən də geniş istifadə olunur. Bir ton çay yarpağı yetişdirilməsi üçün nə qədər zəhmət tələb olduğunu kim bilmir ki. Burada torpağın hər rarışına, hər çay koluna əsl əkinçi qayğısı gərəkdir. Özü də bu qayğı və qulluq mövsümi xarakter daşımamalıdır. Cərgələr aralarının şumlanmasından tutmuş yarpaqların dərilməsinə qədər olan dövrdə bütün aqrotexniki tədbirlər vaxtında və qaydasında həyata keçirilir. Çalışılır ki, hər cür faydalı bitkilərin ehtiyatlarının kəsilməsinə səbəb olan hər cür manye aradan götürülsün. Seyid sevinclə deyir ki, azad olunmuş torpaqlarımızda da, yazda çiyid səpiləcək sahələrin qış aratına qoyulması, əkinlərin çör-çöpdən təmizlənməsi, payızlıq taxıl zəmilərinin kübrə verilməsi, pambıqdan başqa digər yazlıq bitkiləri əkiləcək, yonca, çuğundur, soğan toxumu səpiləcək, soya və başqa meyvə və tərəvəz bitkiləri yetişdiriləcəkdir. Yaz - tarla işlərinin vaxtında görülməsi üçün mövcud texnika indidən saz halına gətirilmişdir.

## *Bunu qeyd etmək lazımdır ki,*

heyvandarlıqda da irəliləşmə mövcuddur. Heyvandarlıq məhsulları istehsalı və satışı sahəsində də sevindirici nailiyyətlər qazanılmışdır. Təzə sağılmış südün qoxusunu kim unudar?

***Hacı Talıb təbəssümünü gizlədə bilməyərək dedi ki, bir qohum kəndlim şəhərdə mənə dedi ki, şəhərdə yaşamaq çətindir. Səbəbini soruşduqda dedi ki, hər kiçik şey üçün mağazaya, marketə nə qədər qaçarlar? Kənddə darıxmağa vaxt da yoxdur. Hayıf deyil kənd! Şəhərdə bəzən qapıqonşular bir-birini tanımır; kənddə isə başqa cürədir. Bir qonaq kəndin bu başında görünəndə, kəndin o başında adı çəkilir.***

Ölkəmizin iqtisadi və sosial inkişafının əsas istiqamətrləri layihəsində aqrar-sənaye kompleksi qarşısında mühüm və şərəfli vəzifələr qoyulmuşdur. Burada söhbət əhalinin artan tələbatını daha da dolğun ödəmək üçün ərzaq və kənd təsərrüfatı xammalı istehsalının durmadan çoxaldılmasından gedir. Bu işdə əlbəttə ki, Kənd Təsərrüfatrı nazirliyinin əməyini xüsusi qeyd etmək lazımdır.

Azərbaycan aqrar elmi fəal innovasiy siyasətinin həyata keçirilməsi üçün zəruri potensiala malikdir.

Kənd təsərrüfatı sahəsində də sanballı elmi araşdırmalar aparmağa, səmərəli innovasiya məhsulları yaratmağa qadir, intellektual səviyyəli elmi kadr potensialı vardır ki, bu da ölkəmizin təbiət elmləri -xüsusən biologiya və kənd təsərrüfatı sahələri daim inkişafda olmaqla, dünya elminə davamlı inteqrasiya edir.

**Seyid Talıb Hüseynov qeyrətli, qayğıkeş, mərd vətəndaşdır. Qarabağı, Azərbaycanı öz canından da artıq sevir. Füzuli ziyalılarından biri kimi 44 günlük ikinci Qarabağ müharibəsinin ilk günlərindən azərbaycan ordusunun, Ali Baş Komandanın gücünə, inamına və şücaətinə arxayın olan, dualar edən, seyid Talıb Hüseynova öz işində uğur, can sağlığı və yeni-yeni nailiyyətlər arzulayırıq. Bir daha Qarabağın alınması münasibətiylə deyirik: - "Gözün aydın, Azərbaycan! Gözün aydın, seyid!"**

**Sabir Samir Nemətzadə**
**AYB və AJB -nin üzvü**
**Prezident mükafatçısı**

# 52 illik ömrün keşməkeşləri: Yazıçı Fərman Kərimzadə...

***O vaxt yeddinci sinifdə oxuyurdum. Sevdiyim tarix fənnini tədris edən, sevdiyim müəllimim mərhum Bayram Nağıyev tarixi hadisələri, tarixi şəxsiyyətləri elə sevə-sevə, elə maraqla danışırdı ki, zəngin nə vaxt vurulduğundan da xəbərimiz olmurdu. Bayram müəllim sinifdə ən çox xatırlatdığı qılıncı və qələmi ilə Azərbaycan tarixində dərin iz qoymuş tarixi şəxsiyyət Şah İsmayıl Xətai idi. Bir gün Bayram müəllimə yaxınlaşdım, dedim ki, müəllim, Şah İsmayıl Xətai haqqında danışdığınız oməlumatları hardan oxuya bilərəm? Müəllim gülümsəyərək üzümə baxıb: hələlik sən dərslərini oxu, sənin Fərman Kərimzadə oxuyan vaxtın deyil.***

Niyə vaxtım deyil? Tələsik özümü məktəbin kitabxanasına çatdırdım. Kitabxanaçı Adilə xala kitabı tapıb mənə verdi. Arxamca "çırma haa, kitabı" sözünü də eşitdim. Əlimdə Fərman Kərimzadənin "Xudafərin Körpüsü" romanı idi. Kitabı oxumağa başlayanda Şah İsmayıl Xətaini yaxından tanıyıb, sevəcəyimə inanırdım. Həmçinin belə bir mükəmməl tarixi roman yazdığına görə Fərman Kərimzadəni də sevməmək günah idi.

Bu gün doğum gününü ehtiramla andığım sevimli yazıçımın, kinorejissor, yazıçı, ssenaristin həyatı və yaradıcılığı ilə siz oxucularımı da tanış etmək istəyirəm:



### 12 yaşında yurdundan çıxarılan, ədəbiyyata və həkim qıza aşiq olan Fərman...

***"Son eksponat", "Toy toğlusu", "Mis qazan", "Talada", "Ümid", "Xınalı" hekayələri, "Xallı maral", "Toy dəvətnaməsi" povestləri, "Qanlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü" kimi tarixi romanların, "Təbriz namusu", "Qoca qartalın ölümü" əsərlərinin müəllifiFərman Kərimzadə 1937-ci il martın 3-də Ermənistanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olub.***

1948-53-cü illərdə sovet rejiminin və erməni fitnəsinin tüğyan etdiyi, azərbaycanlıların tarixdə ikinci böyük deportasiyası dövrü bu ailənin də taleyindən yan keçmədi.12 yaşı olanda Qərbi Azərbaycandan Beyləqana məcburən köç etdilər. məskunlaşdılar. Fərman və bacı-qardaşları yarımçıq qalmış orta təhsilini Beyləqan rayonunun Şahsevən kəndində başa vurdular. Ailəni yaxından tanıyanların sözlərinə görə, kitabsevər, ədəbiyyat aludəçisi olub. Atası İsmayıl Şeyx Əlioğlu hüquq işçisi, dövrünün ziyalısı olduğu üçün mütailəni çox sevib. Anası Qəmər isə təhsilsiz qadın olub. Amma Azərbaycan bayatılarını, mahnılarını, folkloru gözəl bilirmiş. Fərman da, digər övladlar kimi, o nağıllarla və bayatıların avazı ilə böyüyüb. Bəlkə elə bu səbəbdəndir, yazıçının əsərlərində bir xəlqiliyin, bir sadəliyin olması...

Orta məktəbdə yaxşı rəssamlıq qabiliyyəti olduğu üçün hamı onun rəssam olacağını zənn edirmiş. Yazıçı Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinə qəbul olunub. Rəssamlığı başa vurandan sonra 3 il İsmayıllıda, Beyləqanda orta məktəblərdə dərs deyib. Bu dövrlərdə onun ilk hekayələri artıq müxtəlif qəzetlərdə çap olunmağa başlayır. Moskva Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari fakültəsini bitirir.

Elə həmin illərdə eşqə düşən yazıçımız tibb institutunda oxuyan tələbə qızla- həyat yoldaşı Xalidə xanımla tanış olur.Fərman Xalidəni o qədər bəyənir ki, tez bir zamanda onlara elçilərini göndərir. Yaxın dostu Məmməd Aslanda elçilikdə iştirak edir. Amma "kənddən gəlmiş kasıb tələbə" qız verməyəcəklərini anlayan aşiq sevgilisini götürüb qaçmaq məcburiyyətində qalır. Gənclərin bu evlilikdən 4 övladı olur Yeganə, Sevinc , Əziz , Aybəniz...

### Yaradıcılığın başlanğıcında

İstedadlı yazarın maraqlı hekayə və povestləri arasında 1958-ci ildə qələmə aldığı "41 nömrəli ayaqqabı" hekayəsi ilk təcrübə olsa da, müharibənin fəlakət dolu nəticələrini təsirli bir dil ilə oxucuya çatdırır. "Son eksponat", "Toy toğlusu" hekayələri də müharibə mövzusundadır, müharibənin ağrı-acılarından bəhs edir. "Son eksponat"da ana qəhrəmanlıqla həlak olmuş oğlunun muzeydəki köynəyini - öz əli ilə toxuduğu köynəyi qorumağa çalışır, oğlunun sinəsini dəlib-deşən güllə yerini muzeydəki baxımsızlıqla, köynəyə güvə düşməsi ilə əlaqələndirir. F.Kərimzadə hadisələrin məntiqini tutmağı, obrazların mənəvi-psixoloji aləmini aydın cizgilərlə əks etdirməyi bacaran sənətkardır. Bu cəhət onun müharibə mövzusunda yazdığı hekayələrlə yanaşı, "Ölülər yalan danışmır", "Mis qazan", "Talada", "Ümid", "Xınalıq" və başqa hekayələrində, "Xallı maral", "Toy dəvətnaməsi" povestlərində də güclü və qabarıqdır. Povestlər işıqlı ideallar təbliğ edir, xalq malını dağıdanları, israfçıları, əliəyriləri, tüfeyli və kübar yaşayış tərzini ifşa edir. "Xallı maral" povestinin qəhrəmanı Zəkəriyyə harın zümrənin ad günləri və müxtəlif işrət məclisləri üçün bir-bir kəsdirib apardıqları xallı maralların qoruğunu dağıdır, "təbiət bu maralları o cür canavarlardan daha yaxşı qoruyar", deyə onları təbiətin qoynuna qovur. "Toy dəvətnaməsi" ibrətamiz sonluqla bitir: zavoddan oğurladığı bir maşın spirti xırıd edə bilməyib qamışlı gölməçəyə boşaldan baş şərabçı Vəli özü də həmin gölməçənin qurbanı olur.

### "Qarlı aşırım"dan "Axırıncı aşırım"a gedən yol

Amma bunlar bir yana onu bir yazıçı kimi sevdirən romanları olub-desəm yəqin ki səhv etmiş olmaram. 1967-ci ildə çap olunmuş "Qarlı aşırım" onun yazıçı istedadını, ümidverici və gələcəkli bir nasir kimi yetişdiyini üzə çıxardı. Roman Fərmana çox böyük şöhrət və təbii ki, pul gətirib.Onun ssenarisi əsasında çəkilmiş "Axırıncı aşırım" filmi ekranlara çıxandan sonra yazıçı xeyli əziyyət çəkib. Qızı Yeganənin dediyinə görə, atasını öldürməklə hədələyirmişlər. "Bir dəfə bibimgilə getmişdim, bir kişi gəlib dedi ki, o uşaqları niyə bura göndərirlər, indi atalarının heyifini uşaqlarından alaq? Çox qorxdum. Sən demə, Qəmlonun qohumlarından imiş. Onlar deyirdilər, guya Qəmlonu qəsdən mənfi qələmə verib. Atam heç nəyi yalan yazmayıb. Qəmlo həqiqətən elə adam olub. Nənəmdən də eşitmişəm. Qəmlonu qadınlar yabayla öldürüblər. Kişilər güllə vurub, görüblər ölmür, özünü samanlığa vurur, qadınlar yabayla düşüblər üstünə. Amma erməniyə qarşı döyüşüb. Bizim babamızla bir yerdə vuruşublar. Mərdlikləri də varmış".






***Filmdəki Xəlil obrazı Fərman Kərimzadənin doğmaca dayısı oğlu olub. Deyilənə görə yazıçının anası ölənə qədər Xəlil deyə-deyə bayatılar deyirmiş. Abbasqulu bəy isə yazıçının atasının ən yaxın silahdaşı, qohumu, dostu olub. Kərbəlayi İsmayıl da yaxın adamı olub. "Ə, nə hökumət, hansı hökumət? Mən belə hökumət tanımıram!"sözlərini sovet hökumətinin qılıncının tiyəsi də, qəbzəsi də kəsdiyi 1967-ci ildə yazıçı məhz Kərbəlayi İsmayılın dili ilə deyir.***

### Yaşanan "Qəmlo" sıxıntısı

Qəmlonun əsl adı Qəmbəralı imiş, Qəmlo deyirmişlər. Yaxın adamlar nə qədər israr etsələr də, yazıçı onun adını Qəmbəralı kimi yox, Qəmlo kimi yazır.

***Yazıçının qızı yazır: "Axırıncı aşırım" filminini Moskvaya təsdiqə aparanda məni də özüylə aparmışdı. Saatlarla "Ostonkino"nun qarşısında atamı gözləyirdim. O, gah gülə-gülə gəlir, gah əsəbi olurdu. Nəhayət, Brejnevin qızı Qalina işə qarışandan sonra film təsdiq olundu. Qalina özü atama qonaqlıq verdi. Hamı yeyib içirdi. Mənə isə süd verib, öz yatağına uzatdı Qalina Brejneva. "Mı do utra budem pit, a tı yeşyo rebyonok spi", deyib, bir "mışka" şokaladı da verib, məni yatırtdı.***

Rəhmətlik anama danışmamışdım bu detalları. Çox qısqanc idi".

"Qarlı aşırım" romanı Fərmana çox böyük şöhrət və təbii ki, pul gətirib. Film çəkiləndən sonra ona kinostudiyanın binasından 5 otaqlı ev də veriblər.

*(Yaxın günlərdə film haqqında yazı hazırlayacağam)*

### "Xətaişünas" Fərman Kərimzadə

***Uzun tədqiq və araşdırmalardan, tarixi mənbələri oxuyub başa vurandan sonra xalqımızın tarixinə, 500 il əvvəlki babalarımıza məhəbbət və hörmətin ifadəsi olan "Xüdafərin körpüsü" romanı yazıçıya inanılmaz bir uğur gətirdi. Ədəbiyyat mütəxəssislərinin fikrincə "Oxucu orta əsr Azərbaycan həyatının həyəcanlı səhnələri ilə qarşılaşdıran bu roman Ağqoyunlularla Səfəvilər hakimiyyətinin qovuşduğu, birincilərin ikincilərlə əvəzləndiyi dövrün, Azərbaycan torpaqlarının birlik, Azərbaycan mədəniyyətinin yüksəliş dövrünün bədii salnaməsidir. F.Kərimzadə yeni faktlar əsasında dövrün ziddiyyət və çətinliklərini, qızılbaş bayrağı altında tarixi mübarizənin məqsədini, köklərini müasirlik ruhu ilə təsvir etmiş, qaranlıq səhifələri kifayət qədər işıqlandırmışdır. "Xüdafərin körpüsü" istər yazı tərzi, istərsə də təhkiyə və dialoqlarının səlisliyi, zənginliyi ilə seçilən bir romandır, qəhrəmanlıq dastanıdır.***

Hər iki kitab ("Xüdafərin körpüsü" və "Çaldıran döyüşü") yüksək ideya-estetik keyfiyyətləri, güclü ictimai-siyasi məziyyətləri ilə yanaşı, quruluş, dil xüsusiyyətləri ilə də diqqəti çəkir. Zəngin bədiilik vasitələri oxucunu 500 il keçmişə aparır, təsvir edilən dövrün havasına daxil edir. Gözəl təbiət lövhələri, min bir rəng heyranlığı ilə ictimai hadisələrin rəmzi əlaqəsi yaranır".

Yazıçı "Xudafərin körpüsü"nə görə 32 min rubl alıb.

### Gəlimli- gedimli dünya

**3 mart 1937-ci ildə bu dünyaya qədəm basan F.Kərimzadə 1989-cu il mart ayının 17-də bu dünyanı tərk etdi. 52 yaşında dünyasını dəyişməsəydi bu gün 84 yaşı olacaqdı və nə qədər dəyərli dəyərli əsərlər yazıb yaradardı. Hətta yazıb bitirəndən sonra yaşadığı evdən yoxa çıxan Nəsrəddin Tusi və Andranik haqqında əsərlərini yenidən qələmə alardı. Qızı müsahibələrinin birində atasının KQB tərəfindən öldürüldüyünü deyir: Sap-sağlam adam idi. Məncə, onu KQB öldürdü. Son hadisələrdə çox fəal idi. Anama da demişdi ki, məni izləyirlər, tutulsam, bilin ki bunlar edib. Hətta bir dəfə çağırıb nəsə təklif də eləmişdilər, təbii ki, qəbul eləməmişdi. O, azad adam idi. Bu hadisələrlə bağlı Moskvaya getmişdi, ordan gəldi, heç evə dəymədən Tərtərə yollandı. O vaxt adamlar köçürülürdü Ermənistandan. Kəlbəcərə gedib, sonra bir də Tərtərə qayıdıb. Orda iflic olmuşdu. Amma mən buna inanmıram. Daha doğrusu içimdə ciddi şübhələr var"**

**Əntiqə RƏŞİD**

---

***"Hiss etdiklərimə inanıram. Nəyisə hiss edirəmsə, ona inanıram. İnsan var ki, nəyisə hiss edir, deyir, əşi, oldu da. Amma mən hiss etdiklərimə inanıram. Həyatda heç nə boşuna deyil. Allah bu dünyada nəyisə elə-belədən yaratmayıb. Eləcə də hiss". "Ədalət" qəzetinin qonağı vokal, jazz, estrada və muğam janrlarının ifaçısı Kamil Qədimzadədir.***

# "Sənətdən pis istifadə edənlər çoxdur"

**-Söhbətimizə elə sizin təqdimatınızdan başlayaq...**

-1993-cü ildə Bakı şəhərində anadan olmuşam. Ailəmdə musiqiyə maraq olub. Elə bu maraq da mənə keçib. 7 yaşım olanda musiqi məktəbinə getmişəm. Oranı bitirib, Asəf Zeynallı adına Musiqi Kollecinə daxil olmuşam, daha sonra isə Mədəniyyət və İncəsənət Universitetində oxumuşam. Müəllimim Vaqif Gərayzadə olub. Özümə görə müəyyən uğurlarım var və bundan sonra da nailiyyətlər əldə etmək istəyirəm.

**-Keçən müsahibəmizdə demişdiniz ki, musiqi mənim qarşıma qoyulmuş bir missiyadır...**

-Mən həmin müsahibədə söyləmişəm ki, musiqi mənə həyatda verilmiş bir missiyadır ki, mən yerinə yetirməliyəm. Hərəyə Allah tərəfindən bir missiya verilir. Bu, məndə də belədir. Musiqi əgər mənə bir missiya olaraq verilibsə, mən bunu yerinə yetirməliyəm. Mən başqa sahədə də ola bilərəm, amma burada olan rahatlığı orada tapa bilməyəcəm. Sadəcə işimi görəcəm. Amma musiqidə belə deyil.

### "Sənət vəfasız ola bilməz"

**-Bəzi ifaçılar var ki, söyləyir, musiqi çox vəfasızdır. Siz necə düşünürsünüz?**

-Sənətə vəfasız deməzdim. Bu, mənim öz fikrimdir. Sənət vəfasız ola bilməz. Sənətə qoyulan dəyər vəfasız ola bilər. Yaxud da insan özü. Sənət necə vəfasız ola bilər ki? Mən sənətə düzgün yanaşıramsa, o, mənə necə vəfasız olsun? Mən düzgün yanaşmayacamsa, deməli, mən vəfasız olacam. İnsanların özüdür vəfasız, sənət vəfasız olmur. Sənət elə sənətdir də. Ondan kimisi pis istifadə edir, kimisi yaxşı. Təəssüflər olsun ki, bu gün sənətdən pis istifadə edənlər çoxdur. Ki, bu da sənətin vəfasızlığından irəli gəlmir, əksinə insanların vəfasızlığından irəli gəlir.

**-Hər kəs deyir ki, bayağı ifalar, amma kimsə söyləmir ki, bayağı mahnılar nədir?**

-Bayağılaşma "asan" deməkdir. Həmişə demişəm, ailəmə də bunu deyirəm, insanlar asan bir şeyi istəyirlər, çətin nəsə istəmirlər. İnsanlar asan söz istəyirlər, asan musiqi istəyirlər. Məsələn, musiqili meyxana. Mahnının kökündə nə dayanır? Musiqi! Musiqili meyxanada isə kökdə meyxana dayanır. Meyxananı isə deyirlər, oxumurlar.

**-Günahı kimdə görürsünüz?**

-Bir az öncə dedim, toplum asan bir şey istəyir, çətin bir şey istəmir. Mən çətin əsər ifa edirəm, onu 500 nəfər dinləyir, asan bir əsər oxuyuram, onu 5 milyon nəfər dinləyir. Və mən də istəyirəm ki, məni çox adam tanısın, çox adam sevsin. Amma hansı yöndə sevsin? Deyirəm ki, qoy asan oxuyum, insanlar məni tanısın, sonra çətin oxuyaram. Onsuz qulaq asacaqlar. Belə olmalı deyil. Mənim özümü təhlil edək. Hansısa bir mahnını ifa edirəm, bilirəm ki, ona 10 milyon adam qulaq asmayacaq. Amma yenə də həmin çətin mahnıları oxuyuram. Rəşid Behbudovun, Şövkət Ələkbərovanın repertuarından ifa edilən mahnılar niyə çoxlu baxış sayı yığmır? Bir və ya iki mahnı ola bilər, tutsun. Niyə həmin mahnıların baxış sayı yüksək olmur? Pis mahnıdır? Xeyr. Bəs niyə baxış sayı yoxdur? Demək ki, bəzi insanlar istəmir, özünə əziyyət verib mahnını dərk etsin.

Bəzən olur ki, efirlərdə hansısa bir jurnalist deyir ki, gördünüz, necə gözəl canlı oxudu? Bu ifadə mənə həm gülməli gəlir, həm də ağır. Ki, bu nə deməkdir? Necə yəni? Oxumalıdır da. Onun sənətidir də. Bu başqa sahənin adamıdır ki, durub canlı oxusun və biz də deyək ki, gördünüz, necə gözəl oxudu?! Oxumaq müğənninin borcudur, işidir, peşəsidir. Başqa nə cür olmalıdır ki?!

### "Eqoist birisi deyiləm"

**-Sənətdə çətinlikləriniz...**

-Düşüncələrim məni çətinliyə salır. Bizim mədəniyyətimiz böyükdür. Bizim Üzeyir Hacıbəyov, Cahangir Cahangirov, Qara Qarayev, Tofiq Quliyev, Rauf Hacıyev kimi ustadlarımız olub. Onlardan musiqilər gəlib bizə. Bizim muğamlarımız var. Muğamların dərinliklərində o qədər zənginliklər var ki. İnşaAllah, hər şey zamanla qaydasına düşəcək.




**-Kamil Qədimzadə eqoist insandır?**

-Qətiyyən eqoist birisi deyiləm. Eqoist insanlar daha çox özünü sevirlər. Təbii ki, hər kəs özünü sevir, amma müəyyən çərçivədə. Məni tanıyan hər kəs bilir ki, eqoist deyiləm. Səmimiyyətim var, səmimi bir insanam. İnsanları seçirəm, sadəcə özüm üçün seçirəm, musiqini də seçirəm, sadəcə özüm üçün. Mən hansısa bir musiqidə mütləq rahatlıq tapmalıyam.

**-Müəlliminizdən söhbət açaq...**

-Həmişə Vaqif müəllimin özünə deyirəm. Söyləyirəm ki, Allah sizi Azərbaycan musiqisinin üzərindən əskik eləməsin. Bu gün belə fəxr edirəm ki, mən Vaqif Gərayzadənin tələbəsiyəm. Ömrümün sonuna kimi də tələbəsi olacam. Mən Vaqif müəllimin tələbəsi olmağı hələ 10-11 yaşım olanda istəmişəm və Allah da bunu mənə qismət etdi. Uşaqlıqda düşünürdüm ki, görəsən, bir dəfə Vaqif müəllim məni görəcək, bir dəfə deyəcək ki, mən pianoda ifa edim, sənsə oxu, baxım?! Hər zaman bunu düşünmüşəm. Bir dəfə də yuxuda görmüşdüm ki, Vaqif müəllim pianoda ifa edir və mən oxuyuram. İnandırım sizi, o hadisə də oldu.

Vaqif müəllimlə fəxr edirəm. Kimləri yetişdirib, hansı musiqiləri yazıb. Tələbəsiyəm deyə demirəm, biz onun qədrini bilməliyik. Həmişə Vaqif müəllimlə əlaqə saxlayanda deyirəm ki, canınız sağlam və ömrünüz uzun olsun. Ki, biz sizdən bəhrələnək.

### "Hadisələr öncədən idarə olunur"

**-İnanclı insansınız?**

-Bəli, özü də çox inanclıyam. Hiss etdiklərimə inanıram. Nəyisə hiss edirəmsə, ona inanıram. İnsan var ki, nəyisə hiss edir, deyir, əşi, oldu da. Amma mən hiss etdiklərimə inanıram. Həyatda heç nə boşuna deyil. Allah bu dünyada nəyisə elə-belədən yaratmayıb. Eləcə də hiss. Hiss də boşuna deyil. İnsana nə üçün hiss verilib? İnanclıyam, arzu edirəm və ona inanıram.

**-Hadisələri hər zaman hiss edirsiniz?**

-Hadisələri öncədən hiss etmək nə məndən, nə də insanlardan asılı deyil. Hadisələr öncədən idarə olunur. Arzu, xəyal, yuxu, hissiyat bizlik deyil. Onları idarə edən var. Bunlar bizim əlimizdə olsaydı, istədiyimiz kimi idarə edərdik. Məsələn, sevgi gözlənilmədən gəlir.

**-Allahla tez-tez danışırsınız?**

-Əlbəttə, hər gün danışıram. Bura gələndə də danışırdım.

**-Daha çox nələr barəsində danışırsınız?**

-Şükür edirəm ki, bu günü qismət edib. Sabah üçün şükür edirəm. Ailəm, dostlarım, dünyamız salamat olsun deyə dualar edirəm. Dua edənəm, hər gün dua edirəm. Dua etməyi xoşlayıram. Yəqin ki, bu, təbiətimdən irəli gəlir.

**-Allaha bağlı olan insan-Kamil Qədimzadə nədən qorxur?**

-Allahdan, günahlardan qorxuram. Deyilir ki, bu olmaz, əgər mən bunu edirəmsə, deməli mən düzgün yolda deyiləm. Ondan qorxuram ki, Allah şeytana lənət eləsin, mən səhv nəsə iş görərəm. Günahdan qorxuram. Başqa heç nədən. Hər zaman dua edəndə deyirəm ki, Allahım, bizi sənin qarşında başıaşağı etmə.

**-Səhvsiz, günahsız bir tək Allahdır. Hər kəsin də günahı olur...**

-Allah bizə ağıl verib. Ağıl verib ki, özümüzü idarə edək. Əgər düşünsək ki, Allah bağışlayandır, o zaman günahları edib, deyərik ki, onsuz Allah bağışlayır. Belə düşünmək lazım deyil. Biz günah etməməliyik.

**-Mən sizə təşəkkür edirəm ki, dəvətimi qəbul edib gəldiniz.**

-Siz sağ olun ki, dəvət etdiniz.

**Rövşən Tahir**

---

# "Televiziyalara bayağı musiqiləri təbliğ edənlər çıxarılanda..." -

## SƏRT CAVAB VERDİLƏR



**Tarix Əliyevin aparıcısı olduğu verlişdə "Gülbahar xanımdan, Gövhər xanımdan başqa mənə qarmon ifaçısı göstərin. Ceyran xanımdan sonra tarda bir tək Humayı görürəm. Rəmişdən sonra cavan bir gitara ifaçısı göstərin ki, onun ifaları məni ağlatsın. Yoxdur" deməsi gənc musiqiçiləri özündən çıxardı. Sosial şəbəkədə Tarix Əliyevin fikirləri sərt tənqid edildi, ona Konservatoriyaya getməyi və oradakı istedadlıları tanımağı məsləhət bilib ittiham etdilər. Adalet.az saytı olaraq məsələ ilə bağlı bir neçə gənc ifaçının fikirlərini öyrəndik:**

***Kamança ifaçısı Təbriz Yusubov:*** "Tarix bəyin bu məsələyə toxunması yaxşı mənada qaysaqlanmış yaranın üzərini açdı. Əslində gənc ifaçılar var və yetişməkdə də davam edir. Sadəcə onlar üçün meydan yoxdur. Tarix bəy qeyd edir ki, gənc gitara ifaçıları arasında eləsi yoxdur ki, onun ifasını dinləyib ağlayım. Ola bilər gənc gitara ifaçıları arasında Tarix bəyin zövqünü oxşayanı yoxdur və ya heç onların ifasını dinləməyib. Ona görə bu fikirdədir. Amma bu o demək deyil ki, gənc ifaçılar yoxdur və ya yetişmir. Gənc gitara ifaçılarından Teymur Şahmarov, Ramal İsgəndərli, Teymur Orucov var. Özü də çox gözəl və istedadlı ifaçılardır. Hətta qarmon alətinin də layiqli qadın davamçılarından var. Onun da adı Gülbahar Məmmədzadədir. "Gənc ifaçılar yetişmir" deyən insanlar bir az araşdırma aparsa, verilişlərinə dəvət etmək üçün axtarış etsələr, nə qədər gənc ifaçının yetişdiyinin şahidi olacaqlar. Televiziyalara bayağı musiqiləri təbliğ edənlər çıxarılanda əlbətdə ki, gənc ifaçılar gözəgörünməz olacaq".

***Gitara ifaçısı Teymur Şahmarov:*** "Gözəl ifaçılar var və hər zaman olacaq, sadəcə telekanallar işıqlandırsa, Tolik bəy və o cümlədən, digər insanlar onları tanımış olar. Çox heyif ki, cavan nəsil musiqiçilər heç diqqət mərkəzində deyil, ona görə də inkişafa doğru heç bir maraq yoxdur, bu barədə çox danışmaq olar, amma gərək kimlərəsə maraqlı olsun ki, biz də danışaq. Bizə diqqət göstərib fikrimizi öyrəndiyiniz üçün çox sağ olun. Bəlkə, bundan sonra gənc nəsil yaxşı ifaçılar yada düşər".

***Qarmon ifaçısı Fuad Göyüşov:*** "Aygün Zeynalova, Gülbahar Məmmədzadə qarmon ifaçılarıdır ki, Tarix Əliyev onları tanımır. Adını çəkdiyim ifaçıların hər ikisi gözəl musiqiçidir. Gəncdirlər, xanımdırlar və gözəl də ifa edirlər. Digərləri də var, lakin yadıma düşənlər bunlardır. Yəqin ki, efirlərə çağırılmadığı üçün onları tanımırlar. Bir çox bacarıqlı, istedadlı insturmental ifaçılıqla məşğul olan sənətçilərimiz var ki, gündəmdə deyillər. Bu gün efirlərin başı meyxanaya, musiqili meyxanaya qarışıb, odur ki, belə ifaçılarımız kənarda qalıb. Kaş ki, maraqlanalar, görələr ki, həmin ifaçılar necədirlər. Şəxsən məndən siyahı istəsələr, istedadlı gənclərin adlarını təqdim edərəm".

**Rövşən Tahir**

---

### 9 futbolçu və 1 məşqçi qəzada öldü



***Sierra Leonenin "Makkari" klubunda faciə yaşanıb.***

***Qol.az xəbər verir ki, Batkanu şəhərindən Makeniyə qayıdan komandanın yer aldığı mikroavtobus qarşıdan gələn yük maşını ilə toqquşub. Nəticədə 9 futbolçu və 1 məşqçi vəfat edib.***

***20-dən çox oyunçu hadisə nəticəsində xəsarət alıb. Onların bəzilərinin vəziyyəti ağırdır. FIFA və ali futbol qurumunun prezidenti Canni İnfantino dünyasını dəyişənlərin ailələrinə və yaxınlarına başsağlığı verib.***

---

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin kanvoy taboru tərəfindən ikinci kanvoy bölüyün komandiri mayor Cümşüdov Taleh Teyyub oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Xətai rayon Hərbi Komissarlığının Musayev Cahid Fazil oğluna verdiyi MN 0055732 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Musa Ələkbərli **Əziz Kərimə** qardaşı

**ZƏKƏRİYYƏ SAHİB OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Məzahir Əhmədzadə yaxın dostu, xalq artisti **Fəxrəddin Manafova** həyat yoldaşı

**VALİDƏ xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 69
Çapa imzalanmışdır: 03.03.2021